


## Siyasi partiyalardan Xocalı soyqırımı ilə bağlı etiraz bəyanatı

*Bu gün 20-ci əsrin ən dəhşətli faciələrindən olan Xocalı soyqırımının törədilməsindən 29 il ötür. Azərbaycan siysdi partiyaları bununla bağlı həm ölkə ictimaiyyətinə, həm də beynəlxalq ictimaiyyətə yönəlik bəyanat verimlər. Milli Cəbhə Partiyasının (MCP) sədri, deputat Razi Nurullayevin Soyqrım Parkı təklifi yenidən gündəmə gəlib. MCP Xocalı Soyqırımının 29-cu il dönümü ilə bağlı bəyanat yayıb və bəynatda bu məqama da diqqət çəkilib.*

Səh.13



## Paşinyana qarşı çevriliş cəhdi


# UNIKAL

№08 (2046) 26 fevral 2021-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru


Səh.2



## İlham Əliyevdən Ermənistana növbəti xəbərdarlıq

### Baş nazirin "İsgəndər" açıqlaması Ermənistanda siyasi gərginliyi pik həddə çatıdırıb

***25 fevral Ermənistan üçün olduqca gərgin gün oldu. Hər şey baş nazir Nikol Paşinyanın "İskəndər" raketləri bağlı fikirlərini məsxərəyə qoyan baş qərargah rəisinin müavin Tiran Xaçatryanın işdən çıxarılması ilə başladı. Bununla yanaşı, İrəvan sakinləri səhəri müxalifətin etiraz aksiyaları ilə açdılar. Daha sonra Ermənistan ordusunun baş qərargah rəisi Onik Qasparyan və 40-dan çox generalın imzaladığı bəyanat yayıldı. Bəyanatda Paşinyanın dərhal istefa verməsi tələbi yer almışdı. Nikol Paşinyan bunu çevriliş cəhdi kimi qiymətləndirərək xalqı qanuni hakimiyyəti müdafiə etmək üçün meydanlara səslədi.***

Səh.8

## "Azərbaycan suverenliyini tam bərpa etməyincə müharibəni bitmiş saymaq olmaz"



*COVİD-19 virusuna qarşı mübarizə davam etsə də, hələ də onu nəzarət altına almaq mümkün olmayıb. Ölkədə vaksinasiya prosesinə start verilsə də, cəmiyyətdə narahatlıq tamamilə aradan qalxmayıb. ADP sədrinin müavini, həkim Həsrət Rüstəmov "Unikal" qəzetinə müsahibəsində bu barədə fikirlərini bölüşüb.*

Səh.4

## Qərib Məmmədov müəmması...



*Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyevin Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti seçilməsindən sonra bu qurumda sabiq iri məmurların müxtəlif yüksək vəzifələrə gətirilməsi adi hal alıb. Həmin eks məmurların cəmiyyətdəki imici də hər kəsə məlum olduğu...*

Səh.6

## Cavanşir Feyziyevin yeni biznes "metod"u ciddi narazılıqlar yaradıb



*Bu günlərdə məlum olub ki, Azərbaycanda siqaret biznesinin böyük hissəsi Milli Məclisin üzvü Cavanşir Feyziyevin tam nəzarətinə keçib. Ölkənin dərman bazarında da inhisarçı mövqelərə sahib olan Feyziyevə məxsus şirkətlərin - "İMEKS", "Krokus LTD" və "AMD Trade"-nin Azərbaycana siqaret idxalında mütləq payı var.*

Səh.15

# Xatirədən Zaura cavab: "Məni tökdüyüm pullar məşhur edib"

***Aparıcı Zaur Kamal müğənni Xatirə İslama söz atıb.***

Zaur ATV-də çıxdığı "7 Canlı" proqramında qonaq olan Manaf Ağayev və Aqşin Taryeloğlunun cibinə pul qoyub. Aparıcı "Artıq olmalıdır. Müğənnilər istəyirlər. Qədərini deməyin. Gələn müğənnilərə Zaur Kamal pul verəcək. Xatirə xanım istəmişdi. Biz sizi məşhur edirik, yuxarı qaldırırıq, tamaşaçıya sevdiririk" sözlərini deyib. Manafın "Belə olsa nə var ki... Buradan onlara pay düşür. Deyirəm axı, əvəzimdən oxuyursan" sözlərinə Zaur "Efir olmasa, siz məşhurlaşa bilməzsiniz" cavabını verib. Müğənni isə "Düzdür... Amma insanın gərək qanında da ola" deyə, əlavə edib.



Müğənni Xatirə İslam aparıcı Zaur Kamalın onun telekanallardan qonorar istəməsini ələ salmasına cavab verib.

"Unikal" axşam.az-a istinadən bildirir ki, bunla bağlı İnstaqramında paylaşım edən sənətçi bunları yazıb: "Onların başı şouya qarışıb, biznesi unudublar. Mən də onlara biznesi başa salmağa çalışıram. Şou olan yerdə biznes də olmalıdır. Özü də məni telekanallar yox, telekanallara tökdüyüm pullar, mahnılar, aranjimanlar tanıdıb. Görüm indi bir kasım adamı gətirib Xatirə İslam edərsiz?".

# Roza İlhaməyə məhkəmədə uduzdu - ÜZR İSTƏYƏCƏK



***"Maşın" realiti-şousunun canlı yayımında aparıcı İlhamə Bədəlovaya qarşı ittihamlarla çıxış etmiş müğənni Allahverdiya Roza məhkəmədə aparıcıya uduzdu.***

İki ildən artıq çəkən prosesə son olaraq Ali Məhkəmədə baxılıb və aparıcının xeyrinə qərar verilib.

İddiaçı İlhamə Bədəlovanın cavabdeh Roza Allahverdiyevaya qarşı "şərəf və ləyaqətin, işgüzar nüfuzun müdafiəsi, dəymiş mənəvi zərərin əvəzinin ödənilməsi" tələbinə dair mülki işə Yasamal Rayon Məhkəməsində baxılıb.

Məhkəməyə səbəb Rozanın "Maşın" şounun efirində aqressivliklə dediyi: "Səhiyyə işçisisən? Verilişin var? İnsanlara dəstəksən, düzdür? O verilişi gözəl təbliğ edirsən. Amma sənin yanında olan ağır xəstə olan öz işçini qovdun, mən işə götürdüm. Sən sus, səhiyyənin adını çəkmə. Sən o verilişi aparırsan, amma sadəcə, sima olaraq. Yaxşı, işini dərindən bilən olsaydın, sənin yanında ağır xəstə olan insanı işdən qovmazdın. Qorxdun ki, sən xəstələnərsən" cümlələri şər və böhtan hesab edilib və R.Allahverdiyevanın buna görə televiziya vasitəsi ilə təkzib edərək İlhamə Bədəlovadan üzr istəməsi tələb edilib.

Qeyd edək ki, R.Allahverdiyeva Ali Məhkəmənin qərarından kassasiya şikayəti versə də, şikayəti təmin olunmayıb.



# Mənzurəyə "Tünzalə" dedi, sənət adamlarını tanımadı

***Xalq artisti Səməd Səmədov "Həmin Zaur" proqramında qonaq olub.***

Axşam.az xəbər verir ki, müğənniyə sənət adamlarının fotoları göstərilib. S.Səmədov onlar arasında seçim edib.

Əməkdar artist Rühəngiz Allahverdiyeva ilə Ruhəngiz Musəvinin şəklini görən Səməd R.Musəvini seçdiyini deyib.

İfaçı Mənzurə Musayevanı isə tanımayıb. O, sənətçinin şəklinə baxaraq, Tünzalə Ağayeva deyib. Səmədova daha sonra Xalq artisti Arif Quliyev və Valeh Kərimovun fotosu göstərilib. O, V.Kərimovun adını bilməyib.

Sənətçi aparıcı Aytən Səfərovu da tanımayıb.

# "Suşi yeyib, onu da paylaşırlar" - Vasifdən həmkarlarına irad



***"1 il 1 aydır toy yoxdur. Yanvar-fevral aylarında heç vaxt toy olmayıb. Çox nadir halda həmin aylarda toya gedərik. Martın 15-dən isə rəsmi karantin elan edildi".***

Axşam.az xəbər verir ki, bu sözləri Əməkdar artist Vasif Məhərrəmli "Səhər mərkəzi" proqramında deyib. Müğənni karantindən, toylara qadağa qoyulmasından bəhs edib: "Sənətə həvəs düşkünlüyü, soyuma oldu. Sənət adamı səhnə üçün darıxır. Bu, maddiyata bağlı olan hal deyil. Ünsiyyət, pozitiv enerji üçün darıxmışam. Elə şadlıq evləri var ki, qonaqlar səhnədən uzaq olur. Tamaşaçı ilə gözgözə ünsiyyətdə olmamaq ruh düşkünlüyü yaradır".

V.Məhərrəmli İnstaqramdan bəhs edib. O, sosial şəbəkədə yemək paylaşan həmkarlarını ələ salıb: "Daxili senzura var, hər şey paylaşmaq olmaz. İnstaqramda sənətdən nəşə yayımlamalısan. Amma indi 1 ildir sənət yoxdur, başqa foto da qoya bilərik. İndi suşi, krevetka yeyib paylaşırlar. Bir-iki reklam paylaşdım, ona da qonorar almadım. İzləyicilər başladı ki, toy yoxdu, keçdiniz reklama. İnstaqramımdan pul qazanmamışam".

# "Rafaellə restoran açmaq istədik, amma..."

***Əməkdar artist Coşqun Rəhimov "Fəlidən doğru xəbər" proqramında qonaq olub.***



Aktyor həmkarı Rafael İsgəndərovla birlikdə biznes qurmaq istədiklərini söyləyib: "Bir neçə dəfə cəhd etdik biznes quraq. Restoran, kafe açmaq istədik, amma alınmadı".



## Peyvənd olunan deputatdan vətəndaşlara çağırış

***“Artıq birinci doza vaksinasiya olundum, özümü normal hiss edirəm. Peyvəndlənmə prosesinin müəyyən olunmuş qaydalara uyğun uğurla davam etdirilməsinin şahidi oldum”.***

Bunu açıqlamasında Milli Məclisin deputatı Ceyhun Məmmədov deyib. Onun sözlərinə görə, Milli Məclis rəhbərliyi əməkdaşlar üçün şərait yaradıb ki, hər kəs rahat şəkildə peyvənd oluna bilsin:

“Hesab edirəm ki, ümumilikdə vətəndaşlarımız könüllülük prinsipi əsasında təşkil olunan bu prosesdə aktiv olmalıdırlar. Əgər biz tezliklə bu bəladan xilas olmaq istəyiriksə, peyvəndlənmədən yayınmamalıyıq. Ümumiyyətlə, bir ildir yalnız Azərbaycan deyil, bütün dünya infeksiyanın yaratdığı fəsadlardan ciddi əziyyət çəkir. Qapanmalar oldu, bir sıra sahələrə uzunmüddətli məhdudiyyətlər qoyuldu, iqtisadiyyat, sosial məsələlər və insanların yaşam tərzi xeyli dəyişdi. Ona görə də, bu proseslərə hər bir vətəndaşımız aktiv şəkildə qatılmalıdır. Azərbaycan yanvar ayından peyvəndlənmə işlərinə start verdi və təqdir olunası haldır ki, hazırda ölkəmizdə bu proses surətlə davam etdirilir. Ayrı-ayrı strukturların əməkdaşları, risk qrupuna daxil olan insanların peyvəndlənmə prosesinə cəlb olunmaları müsbət haldır”.

Vətəndaşları vaksinasiyada aktiv olmağa dəvət edən deputat peyvəndin ilkin dozasından sonra heç bir yan təsirin müşahidə edilmədiyini vurğulayıb: “Bəzən cəmiyyətdə bu məsələlər ətrafında müzakirələrin aparılmasının şahidi oluruq. Bəzən isə yanlış təbliğatları görürük. Hesab edirəm ki, heç bir əsası olmayan bu cür şayiə və antitəbliğatlara diqqət ayırmamalı və insanlarımız sağlamlıqlarının, yaxın ətraflarının qorunması və ümumilikdə infeksiyanın aradan qalxması üçün başladılan prosesdə aktiv olmalıdırlar. Mən özüm də müəyyən müşahidələr aparmışam və böyük əksəriyyətin peyvənd olunmasından sonra özünü normal hiss etdiyinin şahidi olmuşam Ona görə də, çəkinmədən hər bir vətəndaşın prosesə qoşulması tövsiyə olunur. Dövlətimizin, xalqımızın gələcək təhlükələrdən uzaq olması baxımından aktiv vaksinasiya hazırda xüsusi əhəmiyyət daşıyır”.

# “Azersun Holdinq”in süni qiymət artımları davam edir

## Abdulbari Gözəlin sahibi olduğu şirkət öz məhsullarını kəskin bahalaşdırması artıq adət halını alıb



***Azərbaycanın yerli qida bazarının inhisarçı şirkəti - “Azərsun Holdinq” süni bahalaşma ilə məşğuldur. Bunu adıçəkilən şirkətin istehsalı olan qida məhsullarının qiymətində son zamanlar müşahidə olunan, bəzi hallarda isə hətta fantastik həddə çatan qiymət artımı da təsdiqləyir. Xüsusilə vətəndaşların ən çox istehlak etdiyi məhsulların kəskin bahalaşması diqqət çəkir.***

Məsələn, bir neçə gün əvvəl sosial şəbəkələrdə ən çox yağların və çayın qiymətindəki artım müzakirə mövzusu idi. Məsələn, 1 litrlik “Final” yağlarının 4.89, 100 qramlıq “Azərçay”ın isə 1.94 manatadək bahalaşdığı bildirilirdi. Eyni artım “Möcüzə” yağında və digər məhsullarda da qeydə alınmışdı. “Azərsun” istehsalı olan qəndin qiyməti 1 kiloqram üçün 1.40 manatdan 1,60-1,70 manata yüksəlmişdi. Bu isə təxminən 14-21%lik bahalaşma demək idi. Şəkər tozunun qiyməti topdansatışda 1 kiloqram üçün 92 qəpikdən 1.08 manata, pərakəndə satışda isə 1 manatdan 1.10 manatadək yüksəlmişdi. Yəni 10-17% bahalaşmışdı. Market sahibləri qiymət artımının öz təşəbbüsləri olmadığı, istehsalçı şirkətin bahalaşma qərarı verdiyini bildirirdilər.

Yəni açıq şəkildə bəyan olunurdu ki, “Azərsun Holdinq” qiymətlərini qaldırıb. Səbəbi naməlumdur. Çünki ölkədə, məsələn, nə devalvasiya baş verib, nə də hökumətin qiymət artımını şərtləndirəcək mesajları var. Əksinə, ələqədar dövlət qurumları ölkədə süni qiymət artımına qarşı mübarizə aparıldığını bildirir, belə hallara yol verən istehsalçılara xəbərdarlıq edirlər. Elə isə Abdulbari Gözəlin rəhbəri olduğu “Azərsun Holdinq”in hansı məntiqlə əsas qida məhsullarının qiymətini bu cür kəskin şəkildə artırdığı müəmmala ra yol açır.

Bazarın monopolist şirkəti olduğu halda “Azersun Holdinq” niyə bahalaşma ehtiyacı hiss eləyib? Bu faktiki olaraq hökuməti, onun iqtisadi siyasətini sabotaj etmək cəhdi deyilsə bəs nədir? Üstəlik, adıçəkilən şirkətin istehsalı olan qida məhsullarının keyfiyyətində ciddi dəyişiklik yoxdur. Həmin məhsullarla bağlı hələ də istehlakçılar şübhəlidir: onların keyfiyyətcə dünya standartlarından geridə qaldığı barədə cəmiyyətdə çoxdan möhkəmlənmiş, oturuşmuş ortaq qənaət mövcuddur. Lakin monopolist şirkət olduğundan vətəndaşlar istənilən halda “Azersun Holdinq”in məhsullarına möhtacdırlar.

Belədə A.Gözəlin şirkətlər qrupu hansı məntiqlə mütəmadi şəkildə qiymətləri artırmaq ehtiyacı duyur?

Qeyd edək ki, dəyərləndirmələr “Azersun Holdinq”in 2017-ci ildən bu yana öz məhsullarının qiymətini dəfələrlə qaldırdığını göstərir. İctimaiyyət həmin bahalaşmadan narazı qalsa, etiraz səsini qaldırsa da, naməlum səbəblərdən aidiyyatı dövlət qurumları adıçəkilən şirkətin süni bahalaşdırma siyasəti qarşısında acizlik nümayiş etdirir, bunu önləməkdə çətinlik çəkir. Son nəticədə isə zərbə sıravi vətəndaşa, onun cibinə dəyir. Hətta ötən ilin payızında, Vətən müharibəsinin gedişində belə fürcətcillik göstərən və qiymət artımına gedən, misal üçün, 50 kq -lıq kisədə şəkər tozunu 41.50 manatdan 44.50 manata, “Final” günəbaxan yağını 0.5 litr üçün 1.41 manatdan 1.55 manata, 1 litr üçün 2.58 manatdan 2.83 manata, 2 litr üçün 5.02 manatdan 5.53 manata bahalaşdıran “Azersun Holdinq” yetkililəri artıq adət halını alan bu addımlarını cəmiyyət üçün əsaslandırmaq məcburiyyətindədirlər. Gözəlin şirkətlər qrupu ictimaiyyətə açıqlamalıdır ki, hansı səbəbdən az qala hər ay öz məhsullarının qiymətini 10-30 faiz yüksəltmək ehtiyacı hiss eləyir?

Eyni zamanda əlaqədar dövlət qurumları da inhisarçı bir şirkətin son illərdə həftə səkkiz, mən doqquz, məhsullarının qiymətini süni şəkildə bahalaşdırması ilə bağlı açıq mövqe ortaya qoymalıdır. Unutmayaq ki, ölkə qanunvericiliyində bu cür addımların hüqiqi məsuliyyəti aydın şəkildə təsbit edilib. Kimsə özünü həmin məsuliyyətdən azad edə bilməz. Buna cəhd göstərdikdə isə məhz müvafiq dövlət qurumlarının müdaxiləsi qaçılmazdır. Kimsə azad bazar iqtisadiyyatını özfəaliyyət kimi dəyərləndirib hökuməti və onun iqtisadiyyatını sabotaj eləyir, eyni zamanda istehlakçı hüquqlarını arxa plana keçirirsə, bunun cəzasına da qatlaşmalıdır.

Mövzu ilə bağlı söhbətləşdiyimiz tanınmış iqtisadçı ekspert Natiq Cəfərlinin sözlərinə görə, Azərbaycanda qiymət artımının hər zaman obyektiv və subyektiv səbəbləri olub: “Bu, illərdir elə bu cür də davam edir. Əsasən, noyabr ayından qiymət artımı daha da sürətlənir. Düz Novruz bayramı bitənə və yerli məhsullar bazara çıxana qədər... Təəssüf ki, həmişə belə bir tendensiyanın şahidi olmuşuq. Bu il iki amil də bunun üzərinə gəldi. Birinci amil odur ki, dünyada ərzaq məhsulları indeksində təqribən 10 faizə yaxın yüksəlmə var. Ərzaq qiymətləri dünya üzrə yüksəlib. Təbii ki, bunun Azərbaycana da təsirləri var. İkincisi isə odur ki, bizdə logistik xərclər bahalaşdı. Yanvar ayından benzin və dizelin qiymətinin artması logistika və daşınma xərclərini artırdı ki, bu da qiymətlərin artımına təsir göstərdi. Lakin bunlar obyektiv səbəblərdir. Subyektiv səbəblər isə həmişə olduğu kimidir. Azərbaycanda bir sıra sahələrdə oyunçu çatışmazlığı, əsasən də rəqabətsizlik mühiti var. Rəqabət yoxdur deyə qiymət daha sürətlə artır. O cümlədən də ərzaq məhsulları bazarında... Pərakəndə satışda müəyyən bolluq, çoxçeşidlilik yaradan oyunçular - yeni dükanlar, marketlər çox olsa, topdansatış bazarında inhisarçılıq mövcuddur. İnhisarçı şirkətlərdən biri də “Azersun”dur. Həm istehsalda, həm də ölkəyə idxal olunmada böyük bazar payına sahibdir. Yeri gəlmişkən, ölkənin qanunvericiliyinə görə, hansı sahədə şirkətlərin bazar payı 30-33 faizdən, yəni üçdə birdən yuxarıdırsa, həmin şirkətlərdə qiymətin müəyyən olunması siyasətinə dövlətin müdaxilə etmək, tənzimləmək səlahiyyəti yaranır. İnhisarçılığa qarşı mübarizə ilə bağlı qanunvericilikdə bu müddəa var. Lakin reallıqda biz onun tətbiqini heç vaxt görməmişik. Elə sahələr var ki, “Azərsun” şirkəti az qala bazarın 90 faizinə nəzarət edir. Nəticə etibarilə inhisarçı şirkətlərin bazarda olması və rəqabətsizlik mühiti qiymətin artmasında mühüm rol oynayan amilə çevrilir”.

***Orxan Həsənli***

# Siyasi partiyalardan Xocalı soyqırımı ilə bağlı etiraz bəyanatı

## Ermənistanın hərbi-siyasi rejiminin törətdiyi bəşəri cinayətlərə hüquqi qiymət verilməsi ilə bağlı çağırış edildi




***Bu gün 20-ci əsrin ən dəhşətli faciələrindən olan Xocalı soyqırımının törədilməsindən 29 il ötür. Azərbaycan siysdi partiyaları bununla bağlı həm ölkə ictimaiyyətinə, həm də beynəlxalq ictimaiyyətə yönəlik bəyanat verimlər.***

Milli Cəbhə Partiyasının (MCP) sədri, deputat Razi Nurullayevin Soyqrım Parkı təklifi yenidən gündəmə gəlib. MCP Xocalı Soyqırımının 29-cu il dönümü ilə bağlı bəyanat yayıb və bəyanatda bu məqama da diqqət çəkilib.

"Unikal" qəzeti xəbər verir ki, Milli Cəbhə Partiyası (MCP) bəyan edir ki, XX əsrin ən dəhşətli faciələrindən biri olan Xocalı soyqırımı hələ də tam hüquqi qiymət almamışdır. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Rusiya hərbi birləşmələrinin birbaşa iştirakı ilə Ermənistan silahlı qüvvələri Azərbaycanın Xocalı şəhərini işğal etmiş, azərbaycanlılara qarşı dəhşətli soyqırım törətmişdir.

Həmin gün Ermənistan silahlı qüvvələri SSRİ dövründən Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayın zirehli texnikası və hərbi heyətinin köməkliyi ilə Xocalı şəhərini işğal edib. 2500 Xocalı sakinindən 613-ü düşmən gülləsinə tuş gəlib qətliamın qurbanı olub. Bu soyqırım nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla - 613 nəfər Xocalı sakini qətlə yetirilib, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. Düşmən gülləsinə tuş gəlib yaralanan 487 nəfərdən 76-sı uşaq olub. 1275 xocalılı əsir, 150 xocalılı itkin düşüb.

2020-ci ilin sentyabrın 27-dən başlayan və 44 gün davam edən Vətən müharibəsində Azərbaycan ordusu Qarabağı Ermənistanın işğalından azad edərək Dağlıq-Qarabağ münaqişəsinə son qoyub. 30 il işğal altında qalan ərazilərimizin hansı durumda olduğunu bilmir, Ermənistan rəhbərliyinin ən qatı cinayətinin Xocalı qətliamı olduğunu düşünürdük. Bu gün də Xocalı qətliamı 20-ci əsrin ən dəhşətli cinayətlərindən biri olaraq qalır.

Bununla bərabər, işğal altında olan torpaqların azad edilməsindən sonra Ermənistan rəhbərliyinin digər ağır cinayətləri ilə üzləşdik. İşğal etdikləri rayon, şəhər və kəndlərimizi xarabazara çevirmiş, daşı daş üstündə qoymamışlar. Artıq xarici mətbuat azad edilən Azərbaycan şəhərlərini "ruh şəhər", "Qafqazın Xirosiması" və "Stalinqrad" adlandırıb.

Bu dəhşətli cinayətlər Ermənistan rəhbərliyinin Xocalı qətliamı ilə bağlı dünya ictimaiyyətinə yanlış məlumat verdiyinin əyani sübutudur. Ermənistan hərbi-siyasi xuntası Xocalı soyqırımını bilərəkdən törədib və bəşəri cinayətlərə yol verib.

Bu faktları nəzərə alaraq Azərbaycan Parlamentində təmsil olunan Milli Cəbhə Partiyası (MCP) dünya ictimaiyyətini, hökumətləri və beynəlxalq təşkilatları Xocalı Soyqırım faktını tanımağa və Ermənistanın hərbi-siyasi rejiminin törətdiyi bəşəri cinayətlərə hüquqi qiymət verilməsinə çağırış edir.

Azərbaycan Sosial Rifah Partiyası Xocalı soyqırımının 29-cu ildönümü ilə əlaqədar bəyanat yayıb. Partiyadan "Unikal"a verilən açıqlamada bildirilib ki, 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yerləşən Xocalı şəhərində Ermənistan silahlı qüvvələrinin bölmələri, Dağlıq Qarabağdakı erməni terrorçu dəstələri və keçmiş sovet ordusunun Azərbaycanın Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının şəxsi heyəti tərəfindən XX əsrin ən böyük bəşəri cinayətlərindən sayılan Xocalı soyqırımı törədilib.

"29 il əvvəl törədilmiş Xocalı soyqırımı zamanı mühasirədə olan şəhərin dinc əhalisi üzərinə ağır hərbi texnika yeridilərək yerli əhali xüsusi qəddarlıqla qətlə yetirilib. Yandırılan şəhərdən xilas olmaq istəyən insanlara aman verilməyib, dinc sakinlər yollarda, meşələrdə pusqu quraraq xüsusi amansızlıqla qətlə yetirilib-lər. İnsanlığa qarşı törədilmiş ən dəhşətli cinayətlərdən olan Xocalı Soyqırımı insan hüquq və azadlıqları konvensiyalarının, beynəlxalq hüququn kobudcasına pozulmasıdır. Bu dəhşətli cinayət əməli nəticəsində 613 nəfər dinc azərbaycanlı qətlə yetirilib, onlardan 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olub. Eyni zamanda, 487 nəfər dinc sakin ağır yaralanıb, 1275 nəfər girov götürülüb. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi hələ də məlum deyil. Soyqırımı zamanı 56 nəfər xüsusi qəddarlıqla öldürülüb, insanların başlarının dərisi soyulub, müxtəlif əzaları kəsilib, gözləri çıxarılıb, hamilə qadınların qarnı süngü ilə deşik-deşik edilib. Nəticədə 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideyni, 130 uşaq valideynlərindən birini itirib. İnsanlıq adına qanlı bir ləkə olan bu cür qətliamların təkrarlanmaması üçün beynəlxalq ictimaiyyət, BMT Təhlükəsizlik Şurası, ATƏT və İslam Əməkdaşlıq Təşkilatının qərarları çərçivəsində Xocalı soyqırımına layiq olduğu diqqəti verməsi və lazımi reaksiya göstərməsinin vacib olduğunu bir daha vurğulayırıq. Bu haqlı davada həmrəyliyimizi ifadə edirərək, Xocalı soyqırımına görə məsuliyyət daşıyan şəxslərin beynəlxalq məhkəmə qarşısına çıxarılmasına çağırırıq.

Vurğulamaq istəyirik ki, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən Xocalıda baş verən qətliamın dünya miqyasında soyqırımı kimi tanıdılması istiqamətində mühüm işlər görülür.Bu uğurlu fəaliyyət nəticəsidir ki, dünyanın bir çox dövlətləri, o cümlədən ABŞ-ın bir sıra ştatları bu soyqırımını tanıyıb və ya onunla bağlı qətnamə qəbul edib. Eləcə də Heydər Əliyev Fondu və Fondun prezidenti Mehriban xanım Əliyevanın bu yöndə fəaliyyəti xüsusi vurğulanmalıdır. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə reallaşdırılan "Xocalıya ədalət!" kampaniyası çərçivəsində hər il dünyanın bir çox dövlətlərində anım tədbirləri keçirilir, insanlığa qarşı olan bu qətliam beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılır".

Bəyanatda bildirilir ki, Ermənistan tərəfindən insanlıq əleyhinə törədilmiş bu dəhşətli cinayət 1949-cu il Cenevrə Konvensiyasının müddəalarının kobud şəkildə pozulmasıdır və dünya birliyi bu ədalətsizliyə göz yummamalıdır. Hər bir beynəlxalq təşkilat Xocalı soyqırımını Xolokost, Lidiçe, Srebrenitsa qətliamları kimi tanımalı və onun günahkarlarının ədalət mühakiməsi qarşısında məsuliyyət daşımasını təmin etməlidir. Xüsusi qeyd etmək lazımdır ki, 2020-ci ilin sentyabrın 27-dən noyabrın 10-na qədər davam edən 44 günlük Vətən müharibəsində əldə etdiyimiz möhtəşəm zəfər ölkəmizin ərazi bütövlüyünü təmin edib. Bununla belə, Azərbaycan ictimaiyyəti heç bir zaman Xocalı faciəsini unutmayacaq, bu soyqırımının dünyada tanınması üçün səfərbər olacaq. Cinayəti törətmiş şəxslərin beynəlxalq ədalət mühakiməsinə çağırılmaması isə bu məsələyə beynəlxalq aləmin ikildi standartlardan yanaşmasının göstəricisidir. Dünya ictimaiyyəti anlamalıdır ki, Xocalı soyqırımına adekvat reaksiya verməməklə, yeni soyqrımlara imza atmış olacaqlar.

Partiyanın verdiyi məlumata görə, bəyanat 15 dən çox beynəlxalq təşkilatalara ünvanlanmışdır.

***Z.Məmmədli***




# Kiyevdə Xocalı soyqırımından bəhs edən sənədli film təqdim edilib

***Ukrayna Azərbaycanlıları Radasının (UAR) təşəbbüsü və təşkilatçılığı ilə Xocalının 29-cu ildonümü ərəfəsində Kiyevin "Jovten" kinoteatrında Xocalı soyqırımından bəhs edən "Sonsiz dəhliz" sənədli filmi təqdim edilib.***

Unikal.org xəbər verir ki, tədbirdə filmin rejissor və prodüseri Aleksandr Brokas, Azərbaycanın Ukraynadakı səfiri Elmira Axundova, Ukrayna Radasının deputatları Lyudmila Marçenko, Vladimir Kreydenko, Maryan Zablotski, Alyona Şkrum, Ukrayna Dövlət Kosmos Agentliyinin sədr əvəzi Mixail Lev, Ukrayna müsəlmanları dini idarəsinin sədri Şeyx Səid İsmayılov, Ukrayna Prezidentinin Krım Muxtar Respublikasındakı daimi nümayəndəsi Anton Korineviç, "Ukrpoçt" Aksioner Cəmiyyətinin Müşahidə Şurasının sədr müavini Fərid Səfərov, UAR-ın həmsədrləri Oleq Krapivin, Hikmət Cavadov, UAR-ın baş katibi Cəlal Hüseynov və başqa şəxslər iştirak ediblər.

Ümumilikdə 100 nəfərə yaxın tamaşaçının iştirak etdiyi film təqdimatı Xocalı qurbanlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsilə başlanıb. Tədbirdə UAR-ın baş katibi Cəlal Hüseynov və filmin rejissoru Aleksandr Brokas çıxış ediblər. Natiqlər bildiriblər ki, 29 il öncə Azərbaycanın Qarabağ bölgəsində Xocalı şəhərini zəbt edən erməni silahlı birləşmələri etnik azərbaycanlılara qarşı insanlığa sığmayan dəhşətli soyqırımı törədiblər. "Sonsuz dəhliz" filmində də 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı birləşmələrinin 366-cı motoatıcı alayın hərbçiləri ilə birlikdə Xocalı şəhərinə hücum etməsindən və dinc sakinləri kütləvi şəkildə qətlə yetirməsindən bəhs olunur. Film süjetlərdən və litvalı jurnalist Riçard Lapaitisin Xocalı faciəsinin şahidlərindən aldığı müsahibələrdən ibarətdir.

A.Brokas əlavə edib ki, sənədli ekran əsəri üzərində iş 2009-cu ildə başlayıb. Filmin ərsəyə gəlməsinə 5 il sərf olunub və həmin müddət ərzində təxminən 150 saatlıq hərbi xronika işlənib. "Filmi çəkərkən bizə elə gəlirdi ki, Xocalı faciəsi artıq üzərindən keçilməsi mümkün olmayan həddir. Lakin son 10 ilin tarixi göstərdi ki, təəssüf ki, bəşəriyyət bu xətti dəfələrlə keçib" - deyə rejissor vurğulayıb.

# İlham Əliyevdən Ermənistana növbəti xəbərdarlıq

## Prezident: “Əgər kimsə revanşist fikirlərlə yaşayırsa, bax, bu yumruğu görəcək, bu, yerindədir və bizim səbrimizi sınamasınlar”



***“Biz ədaləti bərpa etdik, otuz il ərzində işğal altında olan torpaqları qaytardıq və dövlətimizin, xalqımızın gücünü göstərdik. Müharibənin ilk günündən üstünlük bizim tərəfimizdə idi. Düşmən demək olar ki, panikaya, isterikaya qapılmışdı. Ermənistan ordusunda onların özlərinin etirafına görə 10 mindən çox fərari olmuşdur. İndi Ermənistan dövləti bilmir ki, bu fərariləri necə mühakimə etsin. Çünki bu da böyük problemlərə gətirib çıxara bilər. Azərbaycan Ordusunda bir nəfər də fərari olmamışdır. Halbuki Birinci Qarabağ müharibəsində fərarilər olub”.***

Bu fikirləri şəhid ailələri və qazilərlə görüşündə Prezident İlham Əliyev deyib. O bildirib ki, Ermənistan rəhbərliyinin davranışı, təxribat xarakterli çıxışları, addımları bizi və deyə bilərəm ki, beynəlxalq ictimaiyyəti əmin etmişdir ki, bu müharibənin sülh yolu ilə həlli mümkün deyil: “Halbuki bu məsələ ilə məşğul olan Minsk qrupuna həmsədrlik edən ölkələrin yüksəkvəzifəli rəsmi nümayəndələri daim təkrarlayırdılar ki, münaqişənin hərbi həlli yoxdur. Amma biz görürdük ki, münaqişənin sülh yolu ilə həlli yoxdur. Çünki əkstəqdirdə 30 il ərzində bu məsələ həll olunardı. Deməli, buna maraq yoxdur, yaxud da ki, belə nə hərb, nə sülh vəziyyəti kimisə qane edirdi. Kimisə qane edirdi ki, Azərbaycan xalqı 30 il ərzində belə vəziyyətdə yaşasın. Kimisə qane edirdi ki, bizim torpaqlarımız işğal altındadır və sanki Azərbaycana bu, müəyyən təzyiq mexanizmi kimi qəbul edilirdi. Bizi inandırmağa çalışırdılar ki, indi reallıq yaranıb, 30 il ərzində bu reallıq mövcuddur və Azərbaycan bu reallıqla barışmalıdır. Mən isə deyirdim ki, heç vaxt biz bu vəziyyətlə barışmayacağıq. Mən deyirdim, heç vaxt imkan verməyəcəyik ki, bizim torpağımızda ikinci qondarma erməni dövləti yaradılsın və imkan vermədik. Bütün gücümüzü səfərbər etdik, bir çox illər ərzində ardıcıl siyasət apardıq, həm beynəlxalq müstəvidə, həm iqtisadi sahədə, həm qonşu ölkələrlə münasibətlərdə, regional layihələrin icrasında və əlbəttə ki, ordu quruculuğunun təkmilləşdirilməsi üçün böyük işlər gördük. Eyni zamanda, gənc, vətənpərvər, Vətəni hər şeydən çox sevən nəsil yetişdi. Bax, bu nəsil torpaqlarımızı azad etdi. Şuşada Cıdır düzündə Azərbaycan xalqına müraciət edərkən demişdim ki, mən 2003-cü ildə hakimiyyətə gələndə bu gün 25-30 yaşında olan insanlar uşaq idi. Biz onları vətənpərvərlik ruhunda, dövlətə sədaqət ruhunda yetişdirdik və onlar bizim torpaqlarımızı işğalçılardan azad etdilər. O cümlədən işğal edilmiş torpaqlarda heç vaxt olmayan, amma əslən o torpaqlardan olan gənclər torpaqları uğrunda aslan kimi vuruşurdular. Bütün Azərbaycan xalqı, Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri bir yumruq kimi birləşərək düşməni məğlub edib və torpaqlarımızı işğaldan azad ediblər. Bu, tarixi hadisədir. Azərbaycan tarixində buna oxşar parlaq qələbə olmamışdır. Azərbaycan bütün dünyaya öz gücünü göstərdi, xalqımızın iradəsini göstərdi. Bir daha bütün dünya gördü ki, əgər iradə varsa, güc varsa, xalq-iqtidar birliyi, əzmkarlıq və cəsarət varsa, haqq-ədalət öz yerini tapır. Biz bunu nümayiş etdirdik.

Onsuz da biz bütün torpaqları azad edəcəkdik. Ancaq itkilər çox ola bilərdi, xüsusilə Kəlbəcər, Laçın istiqamətində. Artıq qış gəlmişdi, qar yağmağa başlamışdı, orada bizim itkilərimiz çox ola bilərdi. Ona görə düşməni hərbi yolla məğlub etdik, torpağımızdan qovduq, Şuşa şəhərini və digər şəhərləri işğalçılardan azad etdik. Ondan sonra Laçın, Kəlbəcər rayonlarını və Ağdam rayonunun bir hissəsini siyasi yollarla qaytardıq və artıq bizim nəzarətimizdədir.

Amma bir neçə gün əvvəl eşitmişəm ki, indi onların müttəfiqləri Ermənistan ordusunu yenə də canlandırmaq istəyirlər, onları modernləşdirmək istəyirlər. Nəyə görə? Kimə qarşı? Müharibə başa çatıb. Əgər kimsə revanşist fikirlərlə yaşayırsa, bax, bu yumruğu görəcək, bu, yerindədir və bizim səbrimizi sınamasınlar. Ermənistan ordusu bitdi, yoxdur və olmamalıdır. Belə bir faşist dövlətdə ordu olmamalıdır. Biz heç vaxt imkan verməzik ki, bizim üçün hər hansı bir təhlükə yenidən yaransın, yaxud da ki, azad edilmiş torpaqlara qayıdacaq vətəndaşlarımız hər hansı bir risk hiss etsinlər.

Biz bütün işlərə nəzarət edirik. Biz ordumuzu bundan sonra da gücləndirəcəyik. Yeni kontraktlar imzalanıb, ən müasir silahlar alınır, artıq onlar gətirilir. Dünyada hansı müasir silah varsa, onlar da artıq kontraktlanıb və Azərbaycana gətiriləcək. Müharibə, eyni zamanda, ordunun gələcək təkmilləşdirilməsi məsələlərini də üzə çıxarıb. Aparılacaq islahatlar daha da çevik, daha da döyüşkən və döyüş qabiliyyəti yüksək olan ordunun yaranmasına gətirib çıxaracaqdır”.

Baş redaktor:
**Zaur Əhməd**

“Turanbank” ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NAB01350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və “Futbol+” servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# Prezident Pərviz Şahbazova yeni vəzifə verdi

***Prezident İlham Əliyev “Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində “Dostluq” yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənməsi və mənimsənilməsi haqqında” Anlaşma Memorandumuna əsasən “Dostluq” yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənməsi və mənimsənilməsi üzrə tərəflər arasında əməkdaşlığı tənzimləyəcək hökumətlərarası Sazişin layihəsinin hazırlanması və razılaşdırılması məqsədilə Azərbaycan Respublikası tərəfindən İşçi Qrupun yaradılması barədə sərəncam imzalayıb.***

Unikal.org xəbər verir ki, sərəncamda deyilir: ”1. Azərbaycan Respublikasının 2021-ci il 23 fevral tarixli 263-VIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində “Dostluq” yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənməsi və mənimsənilməsi haqqında” Anlaşma Memorandumunun 3-cü maddəsindən irəli gələrək, “Dostluq” yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənməsi və mənimsənilməsi üzrə tərəflər arasında əməkdaşlığı tənzimləyəcək hökumətlərarası Sazişin layihəsinin hazırlanması və razılaşdırılması məqsədilə Azərbaycan Respublikası tərəfindən aşağıdakı tərkibdə İşçi Qrup yaradılsın:

**İşçi Qrupun rəhbəri**

Azərbaycan Respublikasının energetika naziri

**İşçi Qrupun üzvləri**

Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Azərbaycan Respublikası ədliyyə nazirinin müavini

Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin sərmayələr və marketinq üzrə vitse-prezidenti

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin geologiya və geofizika üzrə vitse-prezidenti.

2. Azərbaycan Respublikasının Energetika Nazirliyi və Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər”.

# Türkmənistanla vacib sənədi təsdiqləndi



***Prezident İlham Əliyev “Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində “Dostluq” yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənməsi və mənimsənilməsi haqqında” Anlaşma Memorandumunun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanununu imzalayıb.***

Unikal.org xəbər verir ki, memorandum 2021-ci il yanvarın 21-də Aşqabad şəhərində imzalanıb.

# Yoluxanlarla bağlı son statistika

***Azərbaycanda bu gün koronavirus infeksiyasına 126 yeni yoluxma faktı qeydə alınıb, 142 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.***

“Unikal” xəbər verir ki, bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargah məlumat yayıb.

Son sutkada 3 nəfər “COVID-19”dan vəfat edib.

**ELAN**

Gədəbəy rayon Miskinli kənd sakini Bağırov Rahib Həşim oğlunun adına olan 50524018100070 və 50524018100073 nömrəli Torpaq sahəsinin planı və ölçüsü sənədi itdiyi üçün etibarsız sayılır.

**ELAN**

Saatlı rayonu, Mirzə Fətəli Axundov adına kənd sakini İsayev Şamo Qərib oğlunun torpaq mülkiyyətinə dair dövlət aktı (J № 168, KOD 90800078) itdiyi üçün etibarsız sayılır.

# Prezident İlham Əliyev şəhid ailələri və əlillərlə görüşüb



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 25-də Bakının Ramana qəsəbəsindəki yaşayış kompleksində şəhid ailələri və müharibə əlillərinə mənzillərin təqdim olunması mərasimində iştirak edib.***

"Unikal" xəbər verir ki, dövlətimizin başçısı kompleksdə yaradılan şəraitlə tanış oldu.

Məlumat verildi ki, bu kompleksdə doqquzmərtəbəli 30 bina tikilib. Ümumilikdə 1512 mənzildən ibarət kompleks bütün zəruri sosial infrastrukturla təchiz edilib. Ərazidə məktəb, uşaq bağçası, klub-icma mərkəzi inşa olunub. Dövlətimizin başçısının bu ilin yanvarında imzaladığı Sərəncamla təsdiq olunmuş proqramlara əsasən, 2021-2025-ci illərdə ev şəraitinin yaxşılaşdırılmasına ehtiyacı olan 11 mindən çox şəhid ailəsi və müharibə əlili mənzil, fərdi evlə təmin ediləcək.

Komplekslə tanışlıqdan sonra Prezident İlham Əliyev şəhid ailələrinin üzvləri və müharibə əlilləri ilə görüşdü.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

Prezident İlham Əliyevin çıxışı zamanı bildirdi ki, bu gün Bakının Ramana qəsəbəsində şəhid ailələri və müharibə əlilləri üçün yeni yaşayış kompleksi istifadəyə verilir:

"Burada otuz bina inşa edilibdir. Binaların hamısı müasir səviyyədə, yüksək keyfiyyətlə tikilib, mənzillər də çox genişdir, işıqlıdır. Uşaq bağçası, 1200 şagird yerlik məktəb inşa edilir. Yəni, yaşayış üçün bütün imkanlar var və bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Müharibədən cəmi üç ay yarım keçib, ancaq şəhid ailələri və müharibə əlilləri üçün artıq belə gözəl yaşayış kompleksi, şəhərcik inşa olunub, təqdim edilib.

Dövlət şəhid ailələri, müharibə əlilləri üçün əlindən gələni edir. Mənim bu sahədəki siyasətim birmənalıdır. Son 17 il ərzində şəhid ailələri ilə müxtəlif tədbirlərdə dəfələrlə görüşmüşəm. Bu günə qədər 9200-ə yaxın şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillərlə təmin edilib. Təkcə keçən il 1572 mənzil verilibdir. Bu il isə 3 minə yaxın mənzil veriləcək. Beləliklə, həm Birinci, həm İkinci Qarabağ müharibəsində şəhid olmuş övladlarımızın Bakıda, Sumqayıtda, Abşeron rayonunda yaşayan ailələrinə bu ilin sonuna qədər mənzillər veriləcək. Yəni, bu proqramı biz Bakı, Sumqayıt və Abşeron rayonunda bu ilin sonuna qədər tam icra edəcəyik. Digər şəhər və rayonlarımızda yaşayan şəhid ailələri üçün binaların, fərdi evlərin tikintisi davam etdirilir. Əminəm ki, yaxın gələcəkdə bu proqram tam icra olunacaqdır. Onu da bildirməliyəm ki, müharibə əlillərinə 7200-ə yaxın minik avtomaşını verilib.

Mən bu rəqəmləri sadalamaqla dövlətin bu kateqoriyadan olan insanlara qayğısını bir daha dilə gətirmək istəyirəm. Bildirmək istəyirəm ki, Azərbaycan bu sahədə də dünya miqyasında ən qabaqcıl yerlərdədir. Dünyada müharibələr çox olub, itkilər çox olub. O qədər də uzaq olmayan tarixə nəzər salsaq, görərik ki, müxtəlif ölkələrdə müharibələrdə həlak olmuş insanların yaxınlarına heç vaxt bizdəki qədər qayğı, diqqət göstərilməyib. Onu da bildirməliyəm ki, Ermənistan ordusunda da itkilər olub və İkinci Qarabağ müharibəsində müxtəlif rəqəmlər səslənir. Bizdə olan məlumata görə, təqribən 6-7 min işğalçı məhv edilibdir. Onların birinin də ailəsinə Ermənistan dövləti heç bir yardım etməyib. Ümumiyyətlə, Ermənistanda bizdə olan proqram mövcud deyil. Müharibədə həlak olmuş insanların yaxınlarına nəinki ev, bir daxma da verilmir. Hər şey müqayisədə ölçülür. Bizim bu sahədəki siyasətimiz birmənalıdır. Bu siyasət mənəvi normalara əsaslanır və Vətən uğrunda canından keçmiş insanların yaxınları dövlət tərəfindən bundan sonra da qayğı ilə, diqqətlə əhatə olunacaqlar. Son illər müavinətlərin, pensiyaların məbləğinin artırılması göz qabağındadır. Azərbaycan dövləti bu siyasəti bundan sonra da davam etdirəcək.

İkinci Qarabağ müharibəsində 3 minə yaxın şəhidimiz olub. Mən, o cümlədən bunların arasında mülki vətəndaşları da nəzərdə tuturam. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Allah sizə, onların yaxınlarına səbir versin. Şəhidlərimizin ruhu qarşısında baş əyirik. Bildirməliyəm ki, şəhidlərimizin qanı yerdə qalmayıb. Biz Birinci Qarabağ müharibəsinin şəhidlərinin, İkinci Qarabağ müharibəsinin şəhidlərinin qanını aldıq. Düşməndən intiqamımızı aldıq, ərazi bütövlüyümüzü bərpa etdik və şəhidlərimizin əziz xatirəsini qəlbimizdə əbədi yaşadacağıq.

Birinci Qarabağ müharibəsində 12 mindən çox şəhidimiz olmuşdur və 4 minə yaxın hərbçimiz itkin düşmüşdür, təqribən 16 min itkimiz olmuşdur və torpaqlarımız işğal altına düşmüşdür. İkinci Qarabağ müharibəsində şəhidlərimizin sayı müharibənin miqyasına görə həddindən artıq azdır. Əlbəttə, hər bir şəhidimizin xatirəsi bizim üçün əzizdir. Hər bir insanın həyatı qiymətsizdir. Ancaq nəzərə alsaq ki, genişmiqyaslı müharibə aparılıb və ilk günlərdən əks-hücum əməliyyatı, əslində, hücum əməliyyatına çevrilmişdir. Ermənilərin otuz il ərzində qurduqları istehkamları, 5-6 xətt müdafiə istehkamlarını və o bölgənin relyefini nəzərə alsaq, tam qətiyyətlə deyə bilərik ki, biz istədiyimizə az itkilərlə nail olduq. Hətta dünyanın aparıcı ölkələrinin hərbi ekspertləri təəccüb edirlər ki, biz torpaqlarımızı işğalçılardan belə az itkilərlə azad etdik. Nəyə görə? Çünki bütün əməliyyatlar planlaşdırılanda ən vacib amillərdən biri itkilərin az olması idi. Hər gün əməliyyat planını təsdiq edərkən o amil ön planda idi.

Müharibə itkisiz olmur. Bizim müharibəmiz azadlıq müharibəsi idi, ədalətli müharibə idi. Ermənistan işğalçılıq müharibəsi aparırdı. Haqq-ədalət bizim tərəfimizdədir. Ona görə bizim hərbçilərimiz şəhidlik zirvəsinə ucalaraq Vətən qarşısında öz vətəndaşlıq borcunu şərəflə yerinə yetirmişlər. Minlərlə hərbçimiz yüksək dövlət orden və medalları ilə təltif edilmişdir. Onların qəhrəmanlığı, şücaəti, fədakarlığı hər bir azərbaycanlı üçün örnək olmalıdır, gənc nəsil üçün örnək olmalıdır və olacaq.

Müharibədən sonra bu gün dünyada yeni reallıq yaranıb. Bu reallığı biz yaratmışıq, Azərbaycan xalqı yaradıb. Biz iradə göstərmişik, güc göstərmişik. Bəli, biz gözləmişik. Həyat göstərdi ki, ən düzgün an seçilmişdir. İyul ayında bizə qarşı sərhəddə təxribat törədiləndə də biz əks-hücuma keçə bilərdik. Ancaq o vaxt mən əks-hücum əməliyyatını dayandırmışdım. Biz erməniləri öz torpağımızdan qovub, düz sərhədə gəlib, sərhədin o tərəfinə keçmədik. Bizi buna təhrik etmək istəyirdilər. Bizi təxribata çəkmək istəyirdilər. Əgər biz o vaxt - iyul ayında Ermənistan ərazisinə keçsəydik, əgər mən o vaxt ordumuzu dayandırmasaydım, vəziyyət başqa cür ola bilərdi. Bizi, əslində, buna təhrik edirdilər, təxribata təhrik edirdilər. Ermənistandan atılan raketlər Gəncənin, Bərdə, Tərtər, Goranboy, Naftalan, Ağdam, Füzuli rayonlarımızın dağılmasına gətirib çıxarmışdır. Onların atdığı raketlərin biri Xızıya gəlib çatmışdır. Görün, Xızını döyüş bölgəsindən neçə kilometr məsafə ayırır. Ona görə, bu təxribat planları var idi və düzgün an, düzgün məqam seçildi və düzgün addımlar atıldı. Ermənistan ordusunu 44 günə məhv etdik, onların əsrlərboyu yaratdıqları mifləri darmadağın etdik. Göstərdik ki, müzəffər xalq Azərbaycan xalqıdır. Göstərdik ki, döyüşkən xalq Azərbaycan xalqıdır. Onlar bizim qabağımızda diz çökdülər. Onlar heç vaxt belə rəzil vəziyyətdə olmamışdılar. Kimsə onları cəzalandırmalı idi, yoxsa yox? Bütün dünyaya meydan oxuyurlar. Bütün dünyaya əsassız tələblər irəli sürürlər. Sanki hər kəs bunlara kömək etməlidir, bunları müftə yedizdirməlidir, içizdirməlidir, silahla təmin etməlidir. Bir zəli kimi yapışıblar dünya ölkələrinin vücuduna. Bizim torpağımızı işğal edib, insanları evsiz-eşiksiz qoyub, tarixi abidələrimizi, məscidlərimizi dağıdıb. Ondan sonra da deyib ki, bu, erməni torpağıdır. Kimsə bunları cəzalandırmalı idi, yoxsa yox? Kimsə onları çökdürməli idi, yoxsa yox? Biz bunu etdik. Tarixi qələbədir, tarixi nailiyyətdir. Bir daha demək istəyirəm ki, bu qələbəni biz şəhidlərimizin qanı hesabına qazanmışıq. Şəhidlər bizim qəlbimizdə əbədi yaşayır, yaşayacaq. Allah sizə səbir versin. Siz analar, atalar xalqımız üçün, dövlətimiz üçün gözəl insanlar yetişdirmisiniz. O insanların ömrü uzun olmadı, amma onlar əbədiyyətə qovuşdu və onlar öz adlarını Azərbaycan xalqının şanlı tarixinə əbədi yazdırdı.

Mən sizə öz hörmətimi bildirmək istəyirəm. Bildirmək istəyirəm ki, Azərbaycan dövləti və mən Prezident kimi hər zaman sizin yanınızda olacağam".

Daha sonra şəhid ailələrinin üzvləri cənab Prezidentə təşəkkürlərini bildiriblər.

Sonda xatirə şəkli çəkdirildi.

***İnformasiya şöbəsi***

# "Azərbaycan suverenliyini tam bərpa etməyincə müharibəni bitmiş saymaq olmaz"

## Həsrət Rüstəmov: "Rusiya hərbi qüvvələrinin Azərbaycan ərazisinə, Qarabağa hansı adla gəlməsinin xüsusi əhəmiyyəti yoxdur"

***COVİD-19 virusuna qarşı mübarizə davam etsə də, hələ də onu nəzarət altına almaq mümkün olmayıb. Ölkədə vaksinasiya prosesinə start verilsə də, cəmiyyətdə narahatlıq tamamilə aradan qalxmayıb. ADP sədrinin müavini, hakim Həsrət Rüstəmov "Unikal" qəzetinə müsahibəsində bu barədə fikirlərini bölüşüb.***

***-Həsrət bəy, artıq "COVİD-19"a qarşı vaksinin vurulmasına başlanılıb. Vaksinasiya prosesinin pandemiyanın taleyi ilə bağlı hansı rolu olacaq?***

-Vaksinasiyaya başlanması COVİD-19 pandemiyasının aradan qalxması üçün atılan ən mühüm tədbirdir. Bütün yoluxucu xəstəliklərin yayılmasının qarşısını almaq üçün bir neçə mühüm tədbir var. Bunlara infeksiya mənbələrinin təcrid edilməsi, yoluxma mexanizmlərinin qırılmasına yönələn addımlar və insanların yoluxmaya müqavimət gücünün artırılması aidddir. Vaksinasiya dünyada əhəmiyyətli sayda insanları əhatə etdikdən sonra artıq digər məhdudlaşdırıcı və qoruyucu tədbirlərin yumşaldılması mümkün olacaq. Məhz bundan sonra COVİD-19 infeksiyasının tam nəzarət altına alınmasından danışmaq mümkün olacaqdır.

***-Cəmiyyətdə hələ də bir etimadsızlıq var. TƏBİB-ə də, Səhiyyə Nazirliyinə də, bu qurumların çağırışlarına da inam azdır. Sizcə, nəyə görə belədir?***

-Bizim ictimai fikirdə səhiyyəyə məsul qurumlara etimadsızlığın səbəbi əsasən səhiyyə islahatlarının gecikdirilməsi və olduqca ləng həyata keçirilməsi ilə əlaqədardır. Bu səbəbdən müstəqillikdən sonrakı 30 il müddətində insanlarımız demək olar ki, dövlət hesabına tibbi xidmətdən yararlana bilməyiblər, öz tibbi məsrəflərini təkbaşına qarşılamaq məcburiyyətində qalıblar. Amma konkret COVİD-19 pandemiyasına münasibətdə fikir müxtəlifliyinin və rəsmi qurumlara etimadsızlığın çoxsaylı digər səbəbləri də var. Xüsusilə də təkcə bizdə deyil, bütün dünyada bilərəkdən ya bilməyərəkdən yayılan yanlış təbliğat, elmi- tibbi nəticələrə anlaşılmaz müqavimət formalaşdırmaq cəhdlərini qeyd etmək istəyirəm. Çox təəssüf ki, bəzən həmkarlarımızdan da vaksinasiya və yoluxma hallarının azaldılmasına yönələn digər əsaslandırılmış elmi qorunma tədbirlərinə münasibətdə yaxşı düşünülməmiş, cahil bəyanatlar, açıqlamalar da səsləndirilir. Bu cür hallar isə insanların daha çox çaş-baş qalmasına səbəb olur.

***-Məhdudlaşdırma tədbirləri, qapadılmalar bir sıra problemlərə yol açıb. Artıq bəzi deputatlar, siyasilər yumşaldılmalara gedilməsini istəyirlər. Bu barədə Siz nə düşünürsünüz?***

- Əlbəttə ki, məhdudlaşdırıcı tədbirlər məcburiyyətdən doğmuşdu və bəzi ifratçı meylləri nəzərə almasaq, bu tədbirlərin praktikada effektli olduğunu artıq hamı təsdiqləyə bilər. Amma bu tədbirlərin iqtisadiyyata, insanların sosial və şəxsi həyatlarına çox ciddi mənfi təsirlərini də nəzərə almaq lazımdır. Ona görə yoluxma ilə bağlı vəziyyət yaxşılaşdıqca normallaşma tədbirləri də paralel aparılmalıdır. Vaksinasiya proqramının sürətliliyindən də çox şey asılıdır. İnsanlarımızın bu ilin sonunadək əksər dünya ölkələrində olduğu kimi peyvəndlənməsi fikrimcə, artıq növbəti ildən tam sosial normallaşmaya imkan verə biləcək.

***-Həsrət bəy, söhbətin istiqamətini dəyişmək istərdim. Uzun illər hər kəsin əsas problemi olan Qarabağ məsələsi həllini tapdı. Təbii ki, müəyyən narazılıqlarımız da var, amma ortada həll edilən bir məslə var. Vətən Müharibəsindən sonrakı dönəmi dəyərləndirməyinizi istərdim...***



- Vətən müharibəsi şəhidlərinin əziz ruhlarına sonsuz ehtiramla onu demək istəyirəm ki, bəli Azərbaycan xalqı bu müharibədə siyasi yetkin toplum olduğunu, dövlət qurmaq və onu yaşatmaq gücündə olduğunu, işğalçını yerində oturda bildiyini nümayiş etdirdi. Bu 44 günlük müharibə Rusiyanın fəal dəstəyi ilə Ermənsitanın işğal etdiyi ərazilərimizin böyük hissəsini mənfur düşməndən təmizləməyə və bütün cəmiyyətimizə hakim kəsilmiş natamamlıq kompleksindən xilas olmağımıza gətirib çıxartdı. Amma müharibənin tam və şəksiz qələbə ilə başa çatmasına təəssüf ki, nail ola bilmədik. Rusiya bölgədəki hegemoniyasını davam etdirərək faktiki olaraq erməni işğalının tam aradan qaldırılmasına mane oldu və şanlı ordumuzun düşməni sonadək darmadağın edəcəyinə heç bir şübhə olmayanda xaincəsinə prosesə müdaxilə etdi. Hazırda Qarabağın dağlıq hissəsinin əksər hissəsini sülhməramlı adı altında faktiki olraq Rusiya işğal edib. Həqiqətin üzünə açıq baxmağa məcburuq. Dünyada hüquq və ədalət yalnız güclü və böyük dövlətlər üçündür. Bizim kimi yeni meydana çıxan dövlətlər özünü qorumaq və dünyaya var olduğunu göstərmək üçün beynəlxalq və regional siyasi hadisələrdən məharətlə istifadə etmək və dost və düşmənləri dəqiq ayırd etmək olduqca mühümdür. Bu mənada Vətən müharibəsində olduğu kimi qardaş Türkiyə və Pakistanla strateji müttəfiqliyi daha da möhkəmləndirməli, regionda tək dövlətin hegemoniyasına son qoyacaq siyasətə üstünlük verməli və bu istiqamətdə müttəfiqləri artırmağa səy etməliyik. Xüsusilə də Rusiyanın dövlət rəsmilərinin də etriaf etməyə məcbur olduğu Türkiyənin Qafqazda hərbi-siyasi mövcudluğunun ən yüksək səviyyəyə çatmasına nail olmalıyıq.

***-Rusiya sülhməramlılarının bölgəyə gəlməsini süngü ilə qarşılayanlar da var, amma hər bir müharibədə tərəflərin arasına hansısa üçüncü qüvvə girməli deyildimi?***

-Rusiya hərbi qüvvələrinin Azərbaycan ərazisinə, Qarabağa hansı adla gəlməsinin xüsusi əhəmiyyəti yoxdur. Ötən zaman da göstərdi ki, bu hadisəni süngü ilə qarşılayanların əksəri haqlıdırlar. Ona görə də deyirəm ki, onların içində Rusiyanın bu addımını bu yolla hakimiyyətə qarşı təzyiq alətinə çevirən öz gizli qüvvələri də yer alır. Həmin qoşunun özünü Qarabağda necə aparması bir daha göstərir ki, Rusiyanın niyyəti sülh yaratmaq deyil, bölgəni öz nəzarətində saxlamağa yönəlmiş hərbi cəhddir. Əlbəttə ki, yuxarıda dediyim kimi dünyadakı siyasi reallıqları nəzərə almağa məcburuq, amma bu o demək deyil ki, xalqımızın və dövlətimizin strateji hədəflərinə qarşı yönələn hadisələrlə barışmalıyıq. Əksinə bu cür hadisələrin əsil mahiyyətini açaraq xalqa deməli və bu reallıqların dəyişdirilməsi üçün ağıllı və tədbirli siyasət həyata keçirməyə hazır olmalıyıq. Müharibənin gedişi zamanı siyasi proseslərdə gördüyümüz Türkiyənin fəal rolunun Rusiyanın bölgəyə təkbaşına soxulmasından sonra zəifləməsi olduqca narahatedicidir. Bu prosesdə ölkəiçi siyasi palitradakı rus "təbliğatçıları"nın da mühüm rol oynadığını nəzərdən qaçırmamalıyıq. Xalqımız bilməlidir ki, Azərbaycanı iki əsr əsarətində saxlayan, Rusiya imperiyası özünə bu dövr ərzində xalqın içində böyük satqın ordusu yarada bilmişdir və onların əksəriyyəti hakimiyyətin daxilində, mühüm məqamlardadırlar. Xalqın həqiqətlərdən bixəbər durumda, bəzən düşmən təbliğatına uyaraq davranması olduqca qorxuludur. Fikrimcə hakimiyyətin başında duranlar da, siyasi partiyalar da, bütün ictimai institutlar da bu məqamı daim diqqətdə saxlamalıdırlar.

***-Necə düşünürdünüz, bu savaş hansı formada, hansı həddə qədər davam edib bitməli idi ki, cəmiyyətdə fikir ayrılıqları yaranmasın?***

- Bu suala qismən cavab verdim. Bir şeyi əlavə edim ki, əlbəttə ki, Azərbaycan Respublikasının müstəqillik elan etdiyi vaxtda, BMT-nin tanıdığı sərhədlər daxilində suverenliyinin tam bərpasına nail olunmaq əsas hədəfimiz idi. Biz bu hədəfə çata bilmədik və demək olar ki, azadlıq müharibəsi başa çatmadı, sadəcə müəyyən mərhələdə dayanmağa məcbur olduq. Azərbaycan öz sərhədləri daxilində suverenliyini tam bərpa etməyincə müharibəni bitmiş saymaq olmaz.

***-Ən pisi odur ki, siyasi qüvvələr də müharibədən sonra bölündü. Bir qisim hakimiyyəti müəyyən məsələlərdə ittiham etdi, bir qism hakimiyyətin yanında oldu, bir qism də reallığı qəbul elədi...***

- Fikir müxtəlifliyi, qarşılıqlı siyasi ittihamlar demokratik prosesin elementləridir. Bir şərtlə ki, əsas niyyət xalqın daha yaxşı, təhlükəsiz yaşamına, siyasi inkişafına dəstək verməyə yönəlmiş olsun. Obyektiv siyasi reallıqları özündə ehtiva etsin. Və ən başlıcası demoqoqiya xarakterli olmasın. Müharibənin gedişində bütün siyasi qurumlar eyni nöqtəyə vururdu. Bu olduqca əhəmiyyətli idi. Bu onu göstərdi ki, xalqımız və onun siyasi avanqardı olan siyasi partiyalar kifayət qədər yetkindir. Sadəcə olaraq siyasi rəqabəti normal məcraya salmaq, impulsiv və düşünülməmiş addımlardan çəkinmək lazımdır. Hakimiyyətin üzərinə mühüm məsuliyyət düşür və cəmiyyətdəki siyasi münasibətləri tənzimləmək üçün xalqa yönəlik ardıcıl addımlar atılmalıdır. Hakimiyyət korrupsiya və dövlət səviyyəsində biabırçı həddə olan oğurluğu durdurmağı bacarmalıdır. Dövlət bayrağını pəncərədən asıb, içəridə xalqın sərvətini acgözlüklə sovuran islaholunmaz məmurlardan yaxa qurtarmaq lazımdır. Siyasi azadlıqlara geniş meydan verməkdən hakimiyyət qorxmamalıdır. Bütün siyasi qüvvələr də yalançı vətənpərvərlikdən əl çəkib, real siyasi addımlar atmağa çalışmalıdırlar. Xalqın da proseslərdə daim fəal olması mühüm əhəmiyyət daşıyır. Ona görə də vətəndaşlarımız da siyasi proseslərə əvvəlki dövrlərdən daha fəal qoşulmalıdırlar.

***Z.Məmmədli***

# Cavanşir Feyziyevin yeni biznes “metod”u ciddi narazılıqlar yaradıb

## Siqaret bazarındakı bahalaşma sabotajının ilginc pərdəarxası...



***Bu günlərdə məlum olub ki, Azərbaycanda siqaret biznesinin böyük hissəsi Milli Məclisin üzvü Cavanşir Feyziyevin tam nəzarətinə keçib. Ölkənin dərman bazarında da inhisarçı mövqelərə sahib olan Feyziyevə məxsus şirkətlərin - “İMEKS”, “Krokus LTD” və “AMD Trade”-nin Azərbaycana siqaret idxalında mütləq payı var. Feyziyevin şirkətlərinin 100-dən çox çeşiddə tütün məmulatını ölkəyə gətirdiyi vurğulanır.***

Onu da deyək ki, adı çəkilən şirkətlər “B.A.T” tobacco, “İT tobacco”, “CTİ “ tobacco kimi beynəlxalq nümayəndəliklərin Azərbaycanda rəsmi distribyütorlarıdır. Azərbaycan bazarını idarə edən bu üç distribyütorun qeydiyyat ünvanları da eynidir.

Daha bir maraqlı detal: 2014-cü ildə Kənd Təsərrüfat Nazirliyinin açıqladığı məlumata görə, “Krokus ltd” Bakıda tütün məmulatı istehsal etmək üçün “European Tobacco-Baku” ASC-nin ərazisində yer icarəyə götürüb. Hətta o ildən sonra “European Tobacco-Baku” nın idarəçiliyinin “Crocus International”a keçdiyi haqqında məlumatlar da yayılıb.

Son zamanlar C.Feyziyevin ölkənin siqaret bazarını tam nəzarətə aldığına dair də iddialar səslənir. İstənilən halda mətbuata müxtəlif vaxtlarda verdiyi açıqlama və müsahibələrdə bizneslə məşğul olduğunu inadla, israrla təkzib etməsinə, yalanlamasına baxmayaraq, adıçəkilən deputatın yuxarıdakı şirkətləri qardaşı, eləcə də digər yaxınları vasitəsilə idarə etdiyini bilməyən yoxdur. Yerli medianın iddialarına görə hətta ölkədə siqaret məhsullarının topdansatışını həyata keçirmək üçün tələb olunan lisenziyanın verilməsinə nəzarət də C.Feyziyevə məxsusdur.

Nəticədə isə anormal situasiya ortaya çıxıb: belə ki, sözügedən lisenziyanın dövlət rüsumu 300 manat olsa da, o qeyri- rəsmi şəkildə 50 min dollara satılır! Üstəlik, belə bir lisenziya əldə etmək üçün 50 min dollar da yetərli sayılmır; bundan ötrü Feyziyevin yaxınlarının icazəsinə ehtiyac var. Maraqlıdır ki, sözügedən iddia bir müddətdir ortada dolaşsa da, nə Cavanşir müəllim, nə də onun adı hallanan yaxınları bu barədə danışmağa, açıqlama verməyə hər hansı ehtiyac hiss etməyiblər... Son zamanlarda isə C.Feyziyevin şirkətləri tütün bazarında sözün həqiqi mənasında sabotajla məşğuldurlar.

Bu barədə qəzetimizə daxil olan məlumatlarda bildirilir ki, pərakəndə satış obyektlərinə verilən siqaretlərin həcmi azaldılıb. Daha doğrusu, həmin obyektlərə məhsul limitlə verilir. Bununla da bazarda faktiki olaraq qıtlıq yaradılır, nəticədə siqaretlər həm də süni şəkildə bahalşır. Milli Məclis üzvünün bu yeni “iş metodu” isə iki tərəfli narazılıqlara gətirib çıxarır: bir yandan marketlər, dükanlar giley-güzara başlayır, o biri tərəfdən isə müştərilər gileylənir. “Süni qıtlıq yolu ilə süni bahalaşma” - Feyziyevin siqaret biznesinin bu özünəməxsus “gedişi” əslində ölkə qanunları ilə daban-dabana ziddir. Qanunverici orqan üzvü qanunlara belə münasibət sərgiləyirsə, onda başqalarından nə gözləmək olar?

Əslində Cavanşir müəllim oxşar “iş metodunu” dərman bazarında da tətbiq edir. Elə bunun məntiqi nəticəsidir ki, ölkədə satılan dərmanların mütləq əksəriyyətinin qiyməti son zamanlarda kəskin bahalaşıb. Bundan başqa, dərman bazarındakı daha bir anormallığın - eyni dərmanların çox fərqli qiymətlərə satılmasının başlıca səbəbi də deputatın həmin “iş metodu”dur. Bu metodun dərman bazarında uğurla sınaqdan keçirilməsi, belə görünür, C.Feyziyevi indi də ondan siqaret bazarında yararlanmaq həvəsinə salıb.

***Orxan Həsənli***

# Xarici jurnalistlər Diasporla İş üzrə Dövlət Komitəsində olub

***Azərbaycanda səfərdə olan Qlobal Junalistlər Şurasının üzvləri Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovla görüşüblər.***

“Unikal”ın məlumatına görə, görüşdə Türkiyə, ABŞ, Yaponiya, İspaniya, İran, Böyük Britaniya, Səudiyyə Ərəbistanı Krallığı və Livanın müxtəlif media orqanlarının təmsilçiləri iştirak ediblər.

Komitə sədri jurnalistlərə ötən əsrin ən dəhşətli soyqırımlarından biri kimi tarixə düşən Xocalı qətliamı, Ermənistanın 30 ilə yaxın işğal altında saxladığı Azərbaycan torpaqlarında törədilən vandalizm aktları, eləcə də münaqişə zonasından uzaqda yerləşən yaşayış məntəqələrimizdə mülki əhalinin, azyaşlı



uşaqların qətlə yetirilməsi barədə ətraflı məlumat verib. F.Muradov baş verən hadisələrlə bağlı beynəlxalq ictimaiyyətin məlumatlandırılmasında, erməni yalanlarının ifşa olunmasında Azərbaycan diasporunun rolundan danışıb, xaricdə yaşayan azərbaycanlılara, hətta vəzifə borcunu yerinə yetirən diaspor jurnalistlərinə qarşı ermənilərin törətdiyi təxribatlarla bağlı ətraflı məlumat verib.

Rəhbəri olduğu Qlobal Qəzetəçilər Şurasının xətti ilə xarici jurnalistlərin dəfələrlə Azərbaycana gəldiklərini, Qarabağa səfər etdiklərini diqqətə çatdıran Mehmet Ali Dim Azərbaycanın Türkiyə üçün xüsusi yerini qeyd edib və həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün əllərindən gələni edəcəklərini ifadə edib.

Görüşdə bu gün doğum günü olan Mehmet Ali Dimə Diasporla İş üzrə Dövlət Komitəsi adından təbrik təşəkkürnamə təqdim edilib.

***Zaurə***

# “Şuşaya səfər etməyi arzulayırıq” - Şentop

***“Mümkün olacağı təqdirdə işğaldan azad olunmuş ərazilərə səfər etməyi hər zaman istəyirik”.***



“Unikal”ın xəbərinə görə, bunu Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Mustafa Şentop jurnalistlərin Azərbaycanın erməni işğalından azad olunmuş ərazilərinə mümkün səfərlə bağlı sualını cavablandırarkən deyib.

O, Azərbaycanın Baş naziri ilə görüşdə də bu istəyini ifadə etdiyini vurğulayıb. “İnşallah, bu ilin sentyabr-oktyabr aylarında Beynəlxalq Sosial Elmlər Konqresinin Gəncədə Türkiyə, Azərbaycan, ABŞ və digər ölkələrdən 400-ə yaxın elm adamının iştirakı ilə simpoziumunu keçirməyi arzu edirik. Simpoziumla əlaqədar olaraq başda Şuşa olmaqla, digər işğaldan azad olunmuş ərazilərə səfər etməyi arzulayırıq”, - deyə Türkiyə parlamentinin sədri qeyd edib.

Sonda xarici jurnalistlərin sualları cavablandırılıb və fikir mübadiləsi aparılıb.

# Cəbrayılda mülki şəxs minaya düşdü

***Fevralın 25-də saat 14 radələrində Cəbrayıl rayon sakini 1964-cü il təvəllüdlü Mirzəliyev Güloğlan İmran oğlunun işğaldan azad edilmiş Cəbrayıl rayonun Mehdili kəndi ərazisində minaya düşərək xəsarətlər alması barədə Cəbrayıl rayon prokurorluğuna məlumat daxil olmuşdur.***

Cəbrayıl Rayon Prokurorluğundan Unikal.org-a verilən məlumata görə, araşdırmalarla Güloğlan Mirzəliyevin kənd-təsərrüfat fəaliyyəti ilə məşğul olarkən qeyd edilən ərazidə piyada əleyhinə minaya düşməsi nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri alması müəyyən edilmşdir.

Faktla bağlı Cəbrayıl rayon prokurorluğu tərəfindən araşdırma aparılır.

# Lavrov Ayvazyanla Ermənistandakı vəziyyəti müzakirə etdi

***Rusiya və Ermənistan xarici işlər nazirləri Sergey Lavrov və Ara Ayvazyan arasında telefon danışığı olub.***

Unuikal.org-un verdiyi məlumata görə, nazirlər Ermənistandakı vəziyyəti müzakirə ediblər.

Lavrov ölkəsinin Ermənistandakı vəziyyətin dinc müstəvidə həll olunacağına ümid etdiyini söyləyib.

“Rusiya Ermənistandakı vəziyyətə bu ölkənin daxili işi kimi baxır”, - deyə o bildirib.

Qeyd edək ki, Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargahı fevralın 25-də Baş nazir N. Paşinyanın istefasını tələb edən bəyanatla çıxış edib.

N. Paşinyan Baş Qərargahın bəyanatını hərbi çevrilişə cəhd adlandırıb. O, Baş Qərargah rəisi Onik Qasparyanı vəzifəsindən azad etdiyini açıqlayıb.

# Bu ölkədə saxta adla profil açanlar cəzalandırılacaq

***İngiltərə hökuməti sosial media istifadəçiləri üçün yeni qərar qəbul edib.***

Unikal.org xəbər verir ki, hökumət rəsmisi Vera Baird sosial şəbəkələrdə baş qaldıran saxta adlı profillərin bağlanması üçün yeni tədbirlər həyata keçirməyi təklif edib. Onun bu təklifi müsbət qarşılanıb.

Veranın sözlərinə görə, dövlət əleyhinə istənilən şəxs saxta adla sosial mediadan fikir bildirib, təsir altına salma qabiliyyətinə malik olduğunu bildirib. Digər tərəfdən o, anonim hesablardan rəsmi saytlara mesaj göndərilməsinə icazə verilməməsi lazım olduğunu söyləyib.

Bu məsələdə, ”Twitter” və ”Facebook” kimi platformaları günahlandıran Vera, istifadəçiləri tanımaq üçün məlumat vermədən qeydiyyatdan keçmələrinə icazə verməməsini bildirib.

Qərarlaşan qanuna görə, saxta profil açmaq istəyən şəxslər pulla cəzalandırılacaq.

# Qərib Məmmədov müəmması...

## Vəzifədə olarkən haqqında çoxsaylı korrupsiya ittihamları dolaşan sabiqlər hansı məntiqlə AMEA-da yüksək posta gətirilir?

***Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyevin Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti seçilməsindən sonra bu qurumda sabiq iri məmurların müxtəlif yüksək vəzifələrə gətirilməsi adi hal alıb. Həmin eks məmurların cəmiyyətdəki imici də hər kəsə məlum olduğu halda onların Akademiyada görəvləndirilməsi təəccüb doğurur.***



Çünki bu, elmi uğursuzluqlarına görə onsuz da ciddi tənqid hədəfi olan AMEA-nın nüfuzunu daha da sarsıda biləcək amil kimi qiymətləndirilir. İstənilən halda vəzifədə olarkən barələrində saysız-hesabsız neqativ fikirlərin səsləndirildiyi, ittihamların dilə gətirildiyi bu sabiqlərin Akademiyada müxtəlif aparıcı postlara gətirilməsinə hər hansı anlam vermək mümkün deyil.

Məsələn, götürək ləğv edilmiş Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sədri olmuş Qərib Məmmədovu... AMEA prezidenti onu Torpaqşünaslıq və Aqrokimya İnstitutunun direktoru vəzifəsinə təyin edib. Halbuki cəmiyyətdə Qərib müəllimi alim kimi yox, məhz keçmiş vəzifəsinə - 1997-2001- ci illərdə Azərbaycan Respublikası Dövlət Torpaq Komitəsinin, 2001-2015-ci illərdə Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sədri postuna görə tanıyırlar. Həmin postu tutduğu uzun illər ərzində isə cənab Məmmədovun adı müstəqil mediada yalnız tənqid hədəfi olub. O, torpaq islahatları zamanı çoxsaylı nöqsanlardan tutmuş torpaqların qeyri-qanuni satışınadək bir çox səbəblərlə bağlı qınaqlara tuş gəlib. Barəsində ortaya atılan korrupsiya ittihamlarının nə sayı, nə hesabı var.

Məhz bu ciddi nöqsanlara və korrupsiya əməllərinə görə o vəzifəsindən çıxarılıb, komitə isə yerli-dibli ləğv olunub. Belədə Qərib Məmmədovun AMEA-da bir institutun başına gətirilməsi hansı məntiqlə izah oluna bilər?! Vaxtilə ölkədə həyata keçirilən torpaq islahatını az qala sabotaj etmiş, bu islahatların uğursuz şəkildə aparılmasına səbəb olmuş Qərib müəllimin həmin səbatsızlığının sədası hələ də sengiməyib. Bu günün özündə belə torpaq islahatı zamanı haqsızlığa uğrayan insanların şikayətləri eşidilir, yol verilən yanlışlıqların fəsadları üzə çıxır. Vəzifəsini itirməsinin üzərindən altı il keçsə də, sabiq komitə sədrinin fəaliyyətindəki qanunsuzluqların araşdırılması, həmin qanunsuzluqlar barədə hüquqi ölçü götürülməsi lazım ikən, onu AMEA-da yüksək postla mükafatlandırmağın səbəbi həqiqətən maraqlıdır. Həm də təkcə onun yox, elə imic baxımından Q.Məmmədovdan qətiyyən fərqlənməyən digər sabiqlərin də Akademiyada aparıcı vəzifələr tutmasına hər hansı anlam vermək mümkün deyil.

Üstəlik, bu adamların nə hər hansı elmi uğuru var, nə də yaşları bundan sonra effektiv çalışmağa imkan verir. Bu yaxınlarda Akademiyanın vitse- prezidentlərindən biri gənc alimlərin bu qurumu tərk edib getməsindən şikayətlənmişdi.

Sual yaranır: cənablar, bu nə pəhrizdir, o nə alça turşusu? Cəmiyyətdə mənfi imici, oliqarxik keyfiyyətləri ilə tanınan sabiq məmurları AMEA-ya dolduranda, üstəlik, əksəriyyətinin yaşı 65-70-in üzərində olan bu adamları yüksək postlara gətirəndə gənc alimlər nə etməlidirlər? Onların Akademiyadan hansı gözləntiləri qala bilər? Yeri gəlmişkən bir önəmli detalın üzərindən də səssiz şəkildə keçmək olmaz. Ramiz müəllimin korrupsioner imicli eks məmurları Akademiyaya toplamasına ad vermək çox çətindir. Yaşananları müşahidə etdikcə istər-istəməz cəmiyyətdəki “5-ci kolon” narahatlıqlarını daha yaxşı anlayırsan. Sanki sirli bir əl uzun illər boyunca korrupsiya və digər ağır cinayət əməlləri ilə dövlətin dayaqlarının sarsıdılmasına xidmət etmiş adamları Elmlər Akademiyasına toplayır. Bu “sirli əl”in məqsədini təxmin etmək çətin deyil.

Unutmayaq ki, AMEA yaradıldıqdan bir müddət sonra Azərbaycanın başlıca siyasi və ictimai intriqa mərkəzlərindən birinə çevrilib, elmi uğurlarından çox ideoloji hədəflərinə görə diqqəti cəlb edib. Son 40-50 illik tariximizin ictimai-siyasi baxımdan müxtəlif həlledici məqamlarında Akademiya dəhlizləri “qaynar qazan”ı xatırladıb. Məhz bu təcrübədən çıxış etdikdə keçmiş siyasi komandanın “vurulmuş” aparıcı üzvlərinin AMEA “çətiri” altına cəmləşməsi (yaxud cəmləşdirilməsi!) kifayət qədər ciddi suallara, şübhələrə, müəmmalara yol açır. Nəticə etibarilə isə mütəmadi şəkildə gündəmə gələn “5-ci kolon” narahatlıqlarının boş yerə ortaya çıxmadığını göstərir...

***Sənan Mirzə***

# İşə düzəltmək vədi ilə 15 min manat mənimsəyən "vəzifəli şəxs" həbs edildi

***Vəzifəli şəxsin səlahiyyətlərini mənimsəməklə vətəndaşların hüquqlarını pozan şəxslərin ifşa edilərək məsuliyyətə cəlb edilmələri istiqamətində prokurorluq orqanları tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlər davam etdirilir.***

Bu barədə Unikal.org-a Baş Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib.

Belə tədbirlərdən biri kimi, Cəfərov Süleyman Xanlar oğlunun qanunsuz hərəkətləri barədə daxil olmuş məlumat əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində aparılan araşdırma nəticəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanmışdır.



Aparılmış istintaq-əməliyyat tədbirləri ilə Süleyman Cəfərovun 2020-ci ilin avqust ayında özünü dövlət orqanın rəhbər vəzifəli şəxsi kimi təqdim edərək həmin orqana qulluğa qəbul olunmaq üçün müraciət edən şəxsə müsabiqədə iştirak etmədən işə qəbul edilməsinə köməklik göstərilməsinə dair yalan vəd verərək guya səlahiyyətli rəhbər vəzifəli şəxsə verilməsi adı ilə vətəndaşdan 15 min manat məbləğində pul vəsaitini dələduzluq yolu ilə ələ keçirməsinə, eləcə də vətəndaşı vəzifəli şəxs tərəfindən biləbilə qanunsuz hərəkətlər etməyə görə rüşvət verməyə təhrik etməsinə əsaslı şübhələr yaranmışdır.

24 fevral 2021-ci il tarixdə Süleyman Cəfərova Cinayət Məcəlləsinin 178.2.4 (dələduzluq xeyli miqdarda ziyan vurmaqla törədildikdə), 310 (vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə) və 32.4, 312.2-ci (vəzifəli şəxs tərəfindən bilə-bilə qanunsuz hərəkətlər etməyə görə ona rüşvət verməyə təhrik etmə) maddələri ilə ittiham elan edilmiş, məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilmişdir.

Hazırda cinayət işi üzrə əhəmiyyət kəsb edən halların, cinayətlərin törədilməsində hər hansı formada iştirak etmiş digər şəxslərin müəyyənləşdirilməsi istiqamətində istintaq-əməliyyat tədbirləri davam etdirilir.

***Famil***



# Ermənistanda Paşinyanı ələ salan general işindən qovuldu

***Ermənistan prezidenti Armen Sarkisyan ölkənin Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin birinci müavini, general-leytenant Tiran Xaçatryanın vəzifəsindən azad olunması haqqında fərman imzalayıb.***

Bu barədə Unikal.org Ermənistan mətbuatına istinadən xəbər verir.

Buna səbəb general-leytenantın Nikol Paşinyanın sözlərini ələ salması olub. Xatırladaq ki, daha əvvəl “Yerevan.today” portalı Tiran Xaçatryanın Ermənistanın baş naziri Nikol Paşinyanın “İskəndər” raketləri ilə bağlı bəyanatı haqqında şərhini yayıb. Nikol Paşinyan iddia edib ki, Qarabağ müharibəsi zamanı “İskəndər” raketlərinin cəmi 10 faizi partlayıb. Silahlı Qüvvələrin Baş Qərargah rəisinin birinci müavini Tiran Xaçatryan jurnalistin “Paşinyanın iddia etdiyi kimi ”İskəndər” raketlərinin 10%-nin partlaması mümkündürmü?” sualına əvvəlcə xeyli gülüb, sonra isə deyib: ”Əlbəttə, mümkün deyil. Necə? ”İskəndər”? Bir atəş? ... 10%?.. Bağışlayın, amma bu qeyri-ciddidir”.

Ermənistanın Müdafiə Nazirliyi bundan bir neçə sonra geniş bəyanatla çıxış edib. Nazirlik iddia edib ki, Xaçatryanın sözləri guya “təhrif olunub”.

# Laçın SES-in bəndi Azərbaycanın nəzarətinə keçdi

***Noyabrın 10-da imzalanan üçtərəfli bəyanatın icrası çərçivəsində Rusiya sülhməramlıları Dağlıq Qarabağda dinc həyatın bərpasına köməklərini davam etdirirlər.***

Unikal.org xəbər verir ki, bu barədə Rusiya Müdafiə Nazirliyi məlumat yayıb.

Bildirilib ki, noyabrda əldə olunmuş razılaşma nəticəsində Laçın Su Elektrik Stansiyasının maşın salonu Rusiya sülhməramlılarının məsuliyyət zonasının nəzarətinə, ərazidəki su elektrik stansiyasının bəndi isə Azərbaycanın nəzarətinə keçib.

Məlumata görə, Rusiya sülhməramlı kontingentinin komandanlığının dəstəyi ilə hidroelektrik stansiyanın istismarı bərpa edilib. Hazırda Rusiya sülhməramlıları qovşaqlar və elektrik stansiyanın fəaliyyətində işlər görmək üçün mühəndislərin təhlükəsizlik və manesiz girişini təmin edir.

Qeyd olunub ki, bu, Xankəndi şəhərinin, həmçinin onun yaxınlığında yerləşən yaşayış məntəqələrinin elektrik enerjisi ilə təmin olunmasına imkan verir.

# Məmur biabırçılığının yeni-köhnə üzü...

## Bakıya qar, yoxsa bəzi vəzifəlilər öz kreslolarına yaraşmır?

***Hər fəslin öz özəlliyi və gözəlliyi var. Qış fəslinin isə özəlliyi və onu maraqlı edən təbii ki, qarın yağması, hər tərəfin ağ örpəyə bürünməsidirg Xarici ölkələrə baxsaq insanlar qışın gəlişini, qarın yağmasını sanki bir bayram kimi qeyd edirlər.Bizdə isə qarın sevinci uzun çəkmir.***



Uzağa getməyək, elə yola salmaq üzrə olduğumuz həftə biz bunu bir daha, yaxından müşahidə etdik. Bəli, uzun illərdən sonra ilk dəfə Bakıya normal şəkildə qar yağdı. Yağdı, ancaq yağması ilə birlikdə çoxlarından eyni fikir eşidildi: "Bakıya qar yaraşmır". Səbəb aydındır: qarın yağması ilə Bakı və Abşerondan şikayətlər gəlməyə başladı: yollar iflic oldu, kimi qazın olmamasından, kimi su xətlərinin donmasından, kimi işığın kəsilməsindən giley-güzar etdi. Halbuki ötən ilin payızında az qala bütün aidiyyatı dövlət qurumları təntənəli şəkildə bəyan edirdi ki, onlar qış mövsümünə tam hazırlıqlıdırlar. Fevralın 23-ü axşam saatlarından başlayaraq yağan qar isə vəziyyətin heç də belə olmadığını ortaya qoydu. Əgər müvafiq qurumlar qışa həqiqətən də hazır olsaydılar, paytaxt və paytaxt ətrafından bu qədər yüksək səslə şikayətlər eşidilərdimi? Ən maraqlısı isə odur ki, bütün qış boyunca cəmi bir dəfə qar yağdığı halda çoxsaylı problemlər yaranıbsa, onda görəsən, bir neçə dəfə qar yağsa idi hansı mənzərə yaranardı?! Düzdür, cəmi bir dəfə yağan qarın Bakıda, Abşeronda həyatı iflic etməsinin həm obyektiv, həm də subyektiv səbəbləri var.

İqtisadçı Natiq Cəfərlinin dediyi kimi, Azərbaycan paytaxtı infrastruktur olaraq əhalinin sayına uyğun deyil. Sovetlər dönəminin sonunda Bakının Baş planında belə bir bənd vardı ki, 2020-ci ilə kimi Bakı əhalisi maksimum 2 milyon olmalıdır. Bu infrastruktur da həmin 2 milyon əhali üçün nəzərdə tutulub. Bundan sonra həmin rəqəm ikiqat artıb. Lakin infrastruktur ona uyğunlaşdırılmayıb. İkinci səbəb 1990-cı illərdən başlayaraq Bakıda xaotik şəkildə tikinti bumu yaşandı, bu zaman yol infrastrukturuna ziyan dəydi. Yollar daraldı, alternativ yolların çəkilməsinə imkanlar məhdudlaşdırıldı.

Son zamanlar bununla bağlı müsbət dəyişikliklər müşahidə edilir, şəhərdaxili yolların təsnifatı az da olsa dəyişib. Amma hər halda xaotik tikinti bumu zamanı tikilən yüzlərlə bina var ki, indi onu sökmək və paytaxtın yol infrastrukturunu köklü şəkildə yeniləmək mümkün olmayıb. Eyni zamanda Bakı Böyük Şəhər Bələdiyyəsinin olmaması da əsas səbəblərdən biridir. Paytaxtın öz merinin olmaması əhalini maraqlandıran suallara və məsələlərə operativ reaksiya verilməsini gecikdirir. Yəni, seçilmiş mer olsaydı, düşünərdi ki, növbəti seçkilərdə səs qazanmaq üçün böyük iş görmək, səhərdən axşama kimi işləmək lazımdır.

Necə ki bunu biz, məsələn, Türkiyənin timsalında görə bilirik. Ən əsas məsələlərdən biri də odur ki, Azərbaycanda iqtisadi fürsətlər Bakı və Abşeronda cəmləşib. Ümumdaxili məhsul, büdcə də əsasən burada formalaşır. İndi fürsət yaranıb ki, işğaldan azad olunan torpaqlarda məskunlaşdırmanı ağılla və planlı şəkildə həyata keçirərək Bakının yükünü azaldaq. Nəticədə paytaxtın infrastrukturunu da əhalinin sayına uyğunlaşdıraq. Bütün sadalananlar öz yerində... Lakin heç bir obyektiv və subyektiv səbəb hər hansı aidiyyatı dövlət qurumunu bir günlük qarın Bakıda həyatı iflic etməsini önləmək məsuliyyətindən azad eləmir. Bu qurumlar kifayət qədər böyük büdcəyə malikdirlər. Həmin büdcələr onlara imkan verir ki, vaxtlı-vaxtında ilin soyuq fəslinə tam hazırlaşa bilsinlər. Üstəlik, bu hazırlıq sadəcə kağız üzərində olmamalıdır.

İnsanlar konkret situasiyada bunu əməli şəkildə görməli, həyatlarında hiss etməlidirlər. Bir sözlə, illər uzunudur hər dəfə Bakıya qar yağan kimi onun Azərbaycan paytaxtına yaraşıb- yaraşmadığını müzakirə etmək yerinə sadə bir həqiqəti dilə gətirmək daha vacibdir: əslində bəzi məmurlar öz kreslolarına yaraşmırlar. Bəlkə bu fikrimizdə yanılırıq, müəyyən vəzifəlilərə haqsızlıq etmiş oluruq. Elə isə qoy buna da hörmətli oxucularımızın özləri cavab versinlər...

***Toğrul Əliyev***

# Milli Məclis Xocalı soyqırımı ilə bağlı xarici ölkə parlamentlərinə çağırış etdi

***Milli Məclisin deputatları xarici ölkələrə səfərləri zamanı, o cümlədən beynəlxalq təşkilatların tədbirlərində, o cümlədən, pandemiya ilə əlaqədar olaraq videokonfrans formatında keçirilən görüşlərdə iştirak edərkən Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, o cümlədən Xocalı soyqırımı haqqında faktların geniş yayılması istiqamətində məqsədyönlü iş görürlər. Bu məqsədlə Milli Məclisin xarici ölkələrin parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının imkanlarından dolğun və səmərəli istifadə olunur.***



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən "Unikal"a bildirilib ki, faciənin 29-cu ildönümü ərəfəsində xarici ölkələrin parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının rəhbərləri və üzvləri Xocalı soyqırımı haqqında həmkarlarına geniş məlumat verir, onları bu soyqırıma ədalətli münasibət bildirməyə çağırırlar.

"Son günlərdə bu məqsədlə müxtəlif ölkələrin parlamentlərarası dostluq qrupları ilə keçirilən onlayn görüşlərdə Xocalı soyqırımı ilə bağlı məsələ ön plana çəkilib. Məqsəd bu soyqırımı haqqında həqiqətlərin daha çox ölkələrin ictimaiyyətinə çatdırılması və milli parlamentlər tərəfindən faciəyə ədalətli hüquqi-siyasi münasibətin bildirilməsidir. İnanırıq ki, faciəni törədən, dinc insanları qətlə yetirən cinayətkarlar tezliklə ədalət məhkəməsi qarşısında cavab verəcəklər", - parlamentdən bildirilib.

***Hüseyn***



# "Şəhid və qazi ailələrinə diqqət və qayğı davam edəcək" - Deputat

***"Ötən ilin 27 sentyabrında başlayan və 44 gün davam edən Vətən müharibəsində Azərbaycan parlaq qələbə qazandı. Bu tarixi nailiyyətdən sonra cənab prezidentimiz, müzəffər ali baş komandan ilk görüşlərindən birini müharibədə yaralanmış qazilərimizlə keçirdi. Daha sonra çıxışında qeyd etdi ki, bütün şəhid və qazi ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılacaq. Onlara digər zəruri köməkliklər göstəriləcəkdir".***

Bu fikirləri Unikal.org-a açıqlamasında Milli Məclisin deputatı, YAP Ağdaş rayon təşkilatının sədri Cavid Osmanov səsləndirib.

Millət vəkili qeyd edib ki. bu ilin yanvar ayında cənab prezident sərəncamla xüsusi proqram təsdiqləyib: "2021-2025-ci illər ərzində 11 mindən çox şəhid və qazi ailəsinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması proqramda öz təsdiqini tapdı. 25 fevralda cənab prezidentin iştirakı ilə Ramanı qəsəbəsində 30 binadan təşkil olunmuş 1 512 mənzil şəhid və qazi ailələrinə təqdim olundu. Burada bütün infrastruktur da qurulmuşdur. Məktəb, uşaq bağçası, klub və digər zəruri infrastruktur yaradılmışdır. Bununla yanaşı, cənab prezidentimiz bu gün Şağanda reabilitasiya mərkəzinin açılışında da iştirak etdi. Hansı ki, 250 çarpayıya malik mərkəzdir. 1 il ərzində 5 000 nəfər qəbul etmək imkanı var. 2003-cü ildə dahi şəxsiyyət, ulu öndərimiz Heydər Əliyevin göstərişi ilə tikilmişdir. Təmir və bərpadan sonra yenidən istifadəyə verildi. Ümumiyyətlə, cənab prezidentimizin rəhbərliyi ilə hər zaman şəhid və qazi ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onların müalicəsi, müavinətlərin verilməsi, nəqliyyat vasitələri ilə təmin olunması və digər məsələlər Azərbaycan dövləti qarşısında prioritet təşkil etmişdir. Bu istiqamətdə xeyli işlər görülmüşdür. Bununla bağlı cənab prezidentimizin qərarı ilə YAŞAT Fondu yaradılmışdır. Şəhid və qazi ailələrinin problemlərinin həllində, ehtiyaclarının qarşılanmasında bu fondun xüsusi rolu və payı vardır".

Cavid Osmanov həmçinin Heydər Əliyev Fondunun gördüyü işlərə də toxunub: "Bununla yanaşı, hörmətli birinci vitse-prezidentimiz Mehriban xanımın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da hər zaman bu təbəqədən olan insanlara diqqət və qayğı ilə yanaşmış, onları narahat edən məsələlərin həlli istiqamətində xeyli işlər görmüşdür. Xaricdə onların müalicəsi və sair məsələlər həyata keçirilir. Utanmadan şəhid və qazi ailələri bağlı manipulyasiyalar edərək öz çirkin siyasətlərini gerçəkləşdirmək istəyənlərin, 90-cı illərin əvvəllərində Azərbaycan torpaqlarının işğalında böyük rol oynamış insanların, xüsusən AXCP sədri Əli Kərimlinin cavabı bu tədbirlərlə verilmiş olur. Məkrli siyasətə, Ermənistandan aldıqları tezislər üzərindən Azərbaycan dövlətçiliyinə qarşı apardığı siyasətə cavab oldu. Cənab prezidentimizin başçılığı ilə bu təbəqədən olan insanlara diqqət və qayğı davam edəcəkdir. Bu istiqamətdə zəruri tədbirlərin görülməsi heç kimdə şübhə doğurmur. Bir daha qeyd etmək istəyirəm ki, görülən işlər AXCP, Antimilli Şura kimi qurumlara cavab oldu".

***Gülayə Mecid***

# Paşinyana qarşı çevriliş cəhdi

## Baş nazirin "İsgəndər" açıqlaması Ermənistanda siyasi gərginliyi pik həddə çatıdırıb

***25 fevral Ermənistan üçün olduqca gərgin gün oldu. Hər şey baş nazir Nikol Paşinyanın "İsgəndər" raketləri bağlı fikirlərini məsxərəyə qoyan baş qərargah rəisinin müavin Tiran Xaçatryanın işdən çıxarılması ilə başladı.***



Bununla yanaşı, İrəvan sakinləri şəhəri müxalifətin etiraz aksiyaları ilə açdılar. Daha sonra Ermənistan ordusunun baş qərargah rəisi Onik Qasparyan və 40-dan çox generalın imzaladığı bəyanat yayıldı. Bəyanatda Paşinyanın dərhal istefa verməsi tələbi yer almışdı. Nikol Paşinyan bunu çevriliş cəhdi kimi qiymətləndirərək xalqı qanuni hakimiyyəti müdafiə etmək üçün meydanlara səslədi.

Həmçinin, O.Qasparyanın işdən azad olunması barədə qərarı ölkə prezidentinə yolladı. Prezident Armen Sarkisyan qərarı imzalamağa tələsmədi. Paşinyan tərəfdarları qarşısında çıxışında A.Sarkisyanla telefon danışığı zamanı ondan qərarı imzalamasını istədiyini, imzalamazsa, deməli prezidentin də çevrilişdə iştirak etdiyini ona bildirdiyini açıqladı. Paşinyan həmçinin tərəfdarları ilə böyük yürüş keçirərək müxalifətə əzələ nümayiş etdirdi. Baş nazir çevrilişin qarşısının alındığını desə də, baş qərargah bəyanatını təzələdi və generalların öz mövqeyində qaldığını açıqladı.

Müxalifət də paralel olaraq aksiyalar və yürüş keçirdi, yolları bağladı. Oliqarx Qaqik Tsarukyanın Çiçəklənən Ermənistan Partiyası, Edmon Marukyanın İşıqlı Ermənistan Partiyası, Daşnaksütun Partiyası, birləşmiş müxalifətin baş nazirliyə vahid namizədi Vazgen Manukyan, eks-prezident Robert Koçaryan ordunu dəstəklədiklərini və Paşinyanın istefaya getməli olduğunu bəyan etdilər. Nikol Paşinyan müxalifəti aksiyaları dayandırmağa və erkən seçkilərin tarixi ilə bağlı məsləhətləşmələrə çağırsa da, V.Manukyanın simasında Paşinyanın təklifi müxalifət tərəfindən rədd olundu. Milli Təhlükəsizlik Xidməti, Baş Prokurorluq və polis hakimiyyəti dəstəklədiyini elan etdi. Müdafiə Nazirliyi əvvəlcə səssizliyini qorusa da, günün sonunda ordunun siyasətə qarışmasının yolverilməz olduğunu bəyan etməsi ilə baş qərargahı dəstəkləmədiyini açıqlamış oldu. Baş verənlərə ölkə xaricindən münasibət bildirilməsi özünü çox gözlətmədi.

Kreml açıqlama yayaraq hadisələri həssaslıqla izlədiklərini və Rusiyanın tərəfləri təmkinli olmağa çağırdığını, baş verənlərin konstitusion məcradan çıxmamalı olduğunu bəyan etdi. Türkiyə XİN başçısı Mövlud Çavuşoğlu da ölkəsinin Ermənistandakı olaylara münasibətini açıqlayaraq hər cür çevriliş və çevrilişə cəhdi pislədiklərini bildirdi. Hazırda proseslər davam edir. Nikol Paşinyan hakimiyyətini qorumağa çalışır. Müxalifət isə tərəfdarlarına gecəni meydanlarda keçirməyə hazır olmaq barədə çağırış edib. Aksiyalar davam edir. Parlament və hökumət binası önündə barrikadalar və çadırlar qurulub. Hadisələrin hansı məcrada inkişaf edəcəyini, Paşinyanın hakimiyyətin qoruya biləcəyini və ya istefaya gedəcəyini zaman göstərəcək.

Qeyd etmək lazımdır ki, baş verənlər təkcə Ermənistan daxilindəki gərginlik kimi dəyərləndirilməməlidir. Əslində, bu, ikinci Qarabağ savaşında məğlum olan Ermənistan, eləcə də onu müxtəlif üsullarla dəstəkləyən Rusiya ilə bağlı məsələdir. Çünki Qarabağ savaşında Ermənistan Rusiya hərbi texnikası ilə müharibəni aparırdı. Bu məğlubiyyətdə Rusiyanın da payı olmamış deyil. Paşinyanın böyük gərginliyə səbəb olan "İsgəndər" raketləri bağlı açıqlaması da buna işarədir.

Politoloq Qabil Hüseynli isə bildirib ki, Paşinyanın açıqlaması ciddi etirazlara səbəb olub:

"Xüsusilə bu, Rusiyanın silah satışına kölgə saldı. Görünür, Ermənistandakı ruspərəstlər Rusiyanın müəyyən dairələrindən göstərişlər alaraq artıq Paşinyanı devirmək qərarına gəliblər. Bunu da orduya həvalə ediblər. Çünki 20-yə yaxın partiyanı birləşdirən müxalifətin demək olar ki, Paşinyana gücü çatmır, əhali müxalifəti müdafiə etmir. Dünən axşamüstü ordunun baş qərargah rəisi, müavinləri, ordunun idarə rəisləri, eləcə də bir sıra korpusun komandirləri - təxminən 40-a qədər yüksək rütbəli zabit Paşinyanın hakimiyyətdən getməsini tələb etdilər. Paşinyan da baş qərargah rəisinin müavinini dərhal işdən azad etdi, xalqa müraciət edərək onları Respublika meydanında mitinqə çağırdı. Yəni, vəziyyət çox gərgindir, qarşıdurma elementləri mövcuddur. Müxalifət tərəfdarları ilə Paşinyan tərəfdarları arasında toqquşma ehtimalı var. Amma bütövlükdə belə görünür ki, Rusiya da artıq Paşinyanla vidalaşmağı düşünür. Bu baxımdan onun hakimiyyətdə qalması üçün xalqın böyük dəstəyi tələb olunur".

***Z.Məmmədli***

# Ənvər Seyidəliyevlə bağlı ilginc iddia

## Keçmiş icra başçısı həm də bacısı oğlu olan həbsdəki sabiq nazirə görə istintaqa çəkilə bilər?

***Xəbər verildiyi kimi, bu günlərdə Azərbaycanın keçmiş əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov saxlanılıb.***



Onun həmin vəzifədə işlədiyi müddətdə nazirliyin fəaliyyət istiqamətləri üzrə əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsinin təşkil edilməsi, işəgötürənlərin əmək, məşğulluq və sosial müdafiə məsələləri ilə bağlı fəaliyyətlərinə dövlət nəzarətinin həyata keçirilməsi və digər səlahiyyətlərin yerinə yetirilməsi zamanı çoxsaylı sui-istifadə hallarına yol verməsinə dair faktlar Dövlət Təhlükəsizliyi Xidmətində araşdırılıb.

Toplanılmış materiallar əsasında başlanılmış cinayət işi üzrə Səlim Müslümov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308.2-ci (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui- istifadə), 311.3.2-ci və 311.3.3-cü maddələri (təkrar külli miqdarda rüşvət alma) ilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb olunaraq barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

ardınca keçmiş nazirin yaxın adamlarından biri - onun zamanında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) aparat rəhbəri olmuş Əjdər Cəbiyev də istintaqa cəlb olunub. Nəticədə Cəbiyev barəsində də həbs qətimkan tədbiri seçilib. İndi isə S.Müslümovun dayısı, uzun illər Ağsu Rayon İcra Hakimiyyətinə rəhbərlik etmiş Ənvər Seyidəliyevin də istintaqa cəlb ediləcəyi barədə iddialar dolaşır. Bildirilir ki, icra başçısı postunu tutduğu müddətdə çoxsaylı korrupsiya əməllərinə yol verən Seyidəliyev vətəndaşların Ağsuda sosial müavinət alması ilə bağlı da xeyli qanunsuzluğa şərait yaradıb. Hətta bununla bağlı şikayətlər mərkəzi mətbuatadək gedib çıxıb.

"Bu vaxta qədər sosial müavinət almaq üçün müraciət edən şəxs mərkəzin rəhbərliyi ilə danışıqlar aparıb alacağı məbləğin 4 ayını hissə-hissə mərkəz rəhbərinə ödəyirdisə, indi "rüşvət yığışdı" adı ilə daha biabırçı hal yaradıblar. İndi sosial yardım almaq istəyən şəxs alacağı məbləğin 4 ayını əvvəlcədən nağd halda mərkəz rəhbərliyinə və ya onun əlaltılarına verməlidir. Əks halda həmin şəxs müəyyən bəhanələrlə yardımdan məhrum edilir. Hazırda rayon ərazisində sosial yardım alanların əksəriyyəti imkanlılardır. Çünki alınacaq məbləğin 4 ayını nağd halda mərkəzə verməyə yalnız imkanlı şəxslərin gücü çatır. Kasıb, imkanı olmayan şəxslər isə həmin pulu verə bilmədiyi üçün yardımdan məhrum edilir" - Səlim Müslümovun ƏƏSMN rəhbərliyinə gəlişindən qısa müddət sonra yerli KİV-də yayımlanan şikayətlərin birində deyilirdi.

"Hazırda Ağsu rayonu büsbütün icra başçısına məxsusdur. Rayonda bütün iri ticarət obyektləri Ənvər Seyidəliyev tərəfindən zəbt edilib. Ənvər Seyidəliyev bu işdə müavinləri və köməkçilərinin adından yararlanır. Rayonda hazırda 50-dən artıq obyekt icra başçısının müavinlərinin adı ilə tikilərək özəlləşdirilib. İcra başçısının rayon ərazisində 100 hektarlarla həyətyanı torpaq sahəsi, onlarla balıqartırma gölü və 100-dən artıq iri ticarət cərgəsi var.

Bütün bu ərazi və obyektlər icra başçısı tərəfindən özəlləşdirilib" - bu da Ə.Seyidəliyev barədə Ağsu sakinlərindən bir qrupunun mətbuata ünvanladığı şikayətdəndir. Maraqlıdır ki, Seyidəliyevin icra başçısı təyinatının ardından adıçəkilən rayonda əksər vəzifələrə həm onun özünün, həm də bacısıoğlu Müslümovun yaxın qohumları gətirilib. Uzun illər boyunca keçmiş nazir və sabiq icra başçısı Ağsuda sözün həqiqi mənasında tayfa-klan hakimiyyəti yaratmaqda günahlandırılıblar. Bütün bu deyilənləri nəzərə aldıqda Ağsunun eks rəhbərinin də cinayət məsuliyyətinə cəlb ediləbiləcəyi barədə ortaya atılan iddialar təəccüblü deyil. Həmin iddiaların nə qədər doğru olub- olmadığını, gerçəkləşib-gerçəkləşməyəcəyini isə zaman göstərəcək.

Sonda onu da xatırladaq ki, 2007-ci ilədək "Azəryolservis" ASC-də idarə rəisi vəzifəsində işləyən Ə.Seyidəliyev həmin vaxt gözlənilməz şəkildə Ağsuya icra başçısı təyinatı alıb. Həmin vaxt bu təyinatda o zaman Dövlət Sosial Müdafiə Fondunun sədri vəzifəsini daşıyan S.Müslümovun ciddi rol oynadığı vurğulanırdı. Təsadüfi deyil ki, Müslümov 2018-ci ilin aprelində nazir postunu itirdikdən cəmi bir il sonra onun dayısı da işsiz qaldı - icra başçısı görəvindən kənarlaşdırıldı...

***Orxan Həsənli***

# Azərbaycanda peyvəndləmə ilə bağlı tərəddüdlərin SƏBƏBİ - Mütəxəssislər DANIŞIR



***Digər ölkələr kimi Azərbaycanda son bil ildir gözə görünməyən düşmən olan koronovirusla mübarizə aparır. Baxmayaraq ki, karantin və təcrid tədbirləri görülür, yerli xəstələrdən, ölkəyə gələn hər bir xarici vətəndaşdan test nümunələri götürülür ötən il martından iyulun ortalarına təsadüf edən xəstəliyin ilk dalğasında aktiv COVİD xəstələrin pik sayı 8650 adam təşkil etmişdir. Səhiyyə sistemimiz çökmə riski ilə üz-üzə idi. Təcili sürətdə paytaxt Bakıda yeni klinika istifadəyə verildi, 1500-2000 çarpayılı modul tipli xəstəxanalar quruldu. Oktyabrdan başlayan xəstəliyin ikinci dalğasının pik nöqtəsində yoluxanların sayı 62420 nəfəri ötmüşdü.***

Hazırda xəstəliklə bağlı vəziyyət nəzarət altında olsa da, virusa tam qalib gəlmək üçün növbəti mərhələdə peyvəndləməyə qarşı tərəddüd hissini boğmaq və kollektiv immunitet qazanmaq üçün vaksinasiya olunmaqdır.

Lakin cəmiyyətimiz istər mövcud virusa, istərsədə digər xəstəliklərə qarşı peyvəndləməyə münasibəti birmənalı deyil. Bəziləri vaksinin keyfiyyətindən şübhəlidir, digərləri səhiyyə sistemimizə etibar etmir. Xəstəliklər üzərində vaksinsiz qələbə qazanmağa inananlar da var. Yerli xüsusiyyətlərimizə unutmayaq. Orqanizmini dinləyə bilməyən insanımız ən son anda həkimə müraciət edir və bəzi hallarda artıq gec olur.

"Bunu bir az tez gətirə bilməzdirlər? Anamın ölümünü gözləyirdilər?",- deyir 60 yaşlı paytaxt sakini Elman Əhədov. Onun 20 gün reanimasiya şöbəsində süni nəfəs aparatına qoşulan anası yanvarın 18-də dünyasını dəyişib. Bu hadisə Azərbaycanda koronavirusa qarşı vaksinasiyaya başlayan günə təsadüf edib.

Elman deyir ki, xəstəxanaya yerləşdirildikdən əvvəl 83-yaşlı anasının bir neçə xroniki xəstəliyi olub. Lakin koronovirusa yoxulandan sonra vəziyyəti kəskin pisləşib. Ailələrinin başına gələn bu hadisəyədək müsahibimin xəstəliyə olan münasibəti fərqli idi.

"Interneti, sosial şəbəkələri yaxından izləyirəm. Orda xəstəlik və vaksinlə bağlı müxtəlif fikiləri görürdüm. Anam yoluxmayanadək bu virusa aid məsələlərə ciddi yanaşmırdım".

Elman Əhədəvun anası virusun səbəb olduğu ötən ildən indiyədək ölən 3 206 nəfərdən biridir. Bu günə kimi Azərbaycanda 233 644 insan bu virusa yoluxub, onlardan 228 157-si sağalıb, digər 2 281 COVİD xəstəsi müalicəsini davam etdirir. Hər yerdə olduğu kimi, Azərbaycanda da tibb sahəsində çalışanlar və yaşlı nəsl nümayəndələri risk qrupuna aiddir və peyvənd olunacaqlar arasında ilk sıralardadır.

**Yeni reallıq yeni çağırışlarla yol açır**

Azərbaycan vaksin seçimində böyük ehtimalla mart ayının əvvəlində ÜST-nın son təsdiqini alacaq və Çin istehsalı olan üç peyvənddən biri, "Koronavac" peyvəndini seçib. BƏƏ, İndoneziya, Bəhreyn, Türkiyə, Braziliya, Çili də bu peyvəndə üstünlük verib.

Azərbaycan hököməti dörd milyon doza peyvənd alıb. Bir nəfərin iki doza istifadə etdiyini nəzərə alsaq, mövcud ehtiyatlar iki milyon insanı və ya əhalinin 20 faizini əhatə edəcək. Səhiyyə rəsmiləri bunun hələlik yetərli olduğunu söyləyirlər. Əhalinin 40 %-na peyvənd vurulacağını planlaşdırılır. Vaksinin qalan hissəsi "COVAX" çoxtərəfli platforması vasitəsi ilə satın alınacaqdır.

Üstəlik, Çin peyvəndi inaktivləşmiş, yəni təsirsiz, ölü vəziyyətə gətirilmiş virus əsasında hazırlanıb. Bu isə uzun müddət ərzində təsdiqini tapmış bir texnologiyadır və

Azərbaycan əhasili məhz bu kimi peyvəndlərdən istifadə edir. Bu pevəndlərin əks-təsirləri də bəllidir - baş ağrısı, hərarət və lokal reaksiyalardır.

Tibbi işçiləri, 65 yaşdan yuxarı yaşlı insanlar və epidemiya əleyhinə tədbirlərdə iştirak edən hüquq-mühafizə orqanlarının işçiləri peyvənd edildikdən sonra, vaksin təhsil, sosial təminat və digər sahələrdə çalışan və əhali ilə birbaşa təmasda olan insanlara pulsuz təklif ediləcək. Həmçinin xroniki xəstəliklərdən əziyyət çəkənlər də bu mərhələdə bu vaksindən yararlana bilcək. Sonda isə digərləri peyvənddən bəhrələnə biləcək.

Qeyd etmək lazımdır ki, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən vaksinasiyaya aid yeni elektron xidmət istifadəyə verilib. Həmin xidmət vasitəsilə əvvəlcə 65 yaşdan yuxarı olan şəxslər, sonra isə digərləri onlayn növbəyə yazıla bilər. Xidmət tibb müəssisələrinə insan axınının səmərəli idarə olunması və vaxta qənaət etmək məqsədi daşıyır.

Azərbaycanda peyvəndləmə ilə bağlı tərəddüdlər haradan qaynaqlanır?

Lakin vaksinin kömək edəcəyinə inanmayan xeyli sayda insan da var. Çipləşmə və virusun suni təbiətə malik olması kimi müxtəlif konspirasiya nəzəriyyələri peyvənd vurmağa tərəddüd edənləri sayının artmasına gətirib çıxarır.

Hazırda vacib məsələ ondan ibarətdir ki virus ölümcüldür. 37 yaşlı paytaxt sakini Ülviyyə Bayramova da (şərti ad) belə düşünür. Genetik, kimyaçı və həkim ailəsindən olan müsahibim Azərbaycanın vaksin seçimini dəstəkləyir. Lakin ixtisasca auditor olan Ülviyyə eyni zamanda əmindir ki, hər bir vaksin keyfiyyət stadartlarına cavab verməli, yoxlamalardan keçməli və müəyyən olunmuş vaxtda işlənilib hazırlanmalıdır.

"Söhbət peyvəndən sonra dərhal ortaya çıxa biləcək fəsaddan getmir, vaksinin bir-iki ildən sonra orqanizmə necə təsir etməsindən gedir. Hər şey plana əsasən gedəcək, immunitet yaranacaq? Bunu heç kəs indi deyə bilməz. Ancaq zaman göstərəcək, " deyir Ülviyyə.

Sosial şəbəkələr xəstəlik və peyvəndlə bağlı elmi cəhətdən əsassız fikirlərlə doludur və istifadəçilər istədiklərinə inanmağa meyllidirlər. Xoşbəxtlikdən onların arasında fərqli düşünənlər də var.

47 yaşlı Bakı sakini Şama Ağamuradovanın qənaətinə görə, insan koronavirus da daxil olmaqla istənilən yolxucu xəstəlikdən, həmçinin zərərli vərdişlərədən, sağlam olmayan pəhriz və ya xroniki xəstəliklərdən vəfat edə bilər. İxtisasca psixoterapevt olan Şama əmindir ki, hamının peyvənd prosesində iştirak etməsi virusu məğlub etmək məqsədi daşıyır.

"Özlərini və yaxınlarını düşünən hər kəs bu prosesdə iştirak etməlidir. Peyvəndləmə hökumətin qrafikinə uyğun gedərsə, heç bir əks təsir və ya başqa problem olmazsa, ailəmlə mən vaksinasiya olunacayıq. Bu, normal həyata qayıtmaq üçün düşünülmüş addımlardan biridir".

**Əsassız inanclar və inamsızlıq**

Son bir ildə əhalinin normal həyatının pozulduğu heç kimə sirr deyil. Virus fenomeni cəmiyyəti ikiyə bölüb. İyul ayında xəstələrin sayındakı ilk pik nöqtədən sonra əhali virusa daha ciddi yanaşmağa başlayıb. Lakin sosial şəbəkə istifadəçiləri arasında yanvar ayının ortalarında "vaksinasiya olunacaqsınız, ya yox ?" sorğusu maraqlı nəticələr ortaya çıxartdı. Belə ki, sorğuda iştirak edən 1858 nəfərdən 1127 peyvəndləmənin əleyhinə, 402 iştirakçının leyhinə olduğunu, 329 nəfərin isə qərar vermədiklərini söyləyib.

Vaksinlərin yeni olması, uzunmüddətli təsirləri və effektivliyi barədə məlumatların nisbi çatışmazlığı səbəbindən hələ də Azərbaycan cəmiyyətində vaksinasiyadan keçməklə bağlı yekdil razılığ yoxdur. Təəccüblüdür ki, hətta virus və peyvənddən əmin olmayan həkimlər də var.

Həkimlər də daxil olmaqla heç kim yalnış mühakimələrdən və səhvlərdən sığortalanmayıb. Lakin iddia edilən həkim tərəfindən bir səhv baş verdikdə, bu bütövlükdə səhiyyə sisteminin nüfuzuna təsir göstərir.

Bu cür hadisələr barədə məlumat məsələnin əsl səbəblərinə varmadan cəmiyyət üzvləri arasında sürətlə yayılır.

Azərbaycanda vaksinasiya ilə bağlı tərəddüdləri artıran digər şübhələr peyvəndin mənşə ölkəsi, hazırlandığı texnologiya və təhlükəsizliklə əlaqədardır. Bu amillərin nəzərə alınması səhiyyə sahəsində çalışan işçilərin qərarından aslıdır.

Avropa nevrologiya akademiyasının həqiqi üzvü Qalib Əsədov müharibə və aclıqla yanaşı, tarixboyu insanları öldürən infeksyon xəstəliklərə qarşı peyvəndin yaradılmasını inqlabi hadisə hesab edir. Həkim-nevroloqun qənaətinə görə, insanlarla işləyən tibb mütəxəssisləri bilməlidir ki, bu və ya digər peyvəndi hər kəsə vurmaq olmaz, çünki peyvəndin vurulması üçün göstərişlər və əks göstərişlər var.

"Bir haldakı onu vurandan sonra bu xəstəliyə qalib gələcəyik niyə onu vurdurmasınlar? Buna əsas səbəb ölkə səhiyyəsinə inamsızlıqdır. Xəstənin həkimə əgər inamı yoxdursa, o həkim xəstəyə kömək edə bilməz. Bu gün vaksinasiya keçirəndə birinci növbədə vaksinasiyanı keçirən qurum həmin inamı bərpa etməlidir. Etməsə, xeyri olmayacaq", - əmindir Qalib Əsədov.

**Peyvənd keyfiyyətinə nəzarət və düzgün istifadə uğura aparan yoldur**

Vaksinasiyanın effektivliyi və yekun uğur iki əsas amillə birbaşa əlaqədardır: keyfiyyətə nəzarət və peyvəndləmənin düzgün idarə olunması. Vaksinlərin təhlükəsiz qalması üçün soyuq zəncir sistemi təmin edilməlidir. Yəni, peyvəndlər müvafiq şərtlərə uyğun olaraq bütün müəssisələrə lazımlı şəkildə daşınmalı, paylanmalı və saxlanılmalıdır.

Etibarlılıq, peyvəndin ölkəyə gətirilməsi və effektivik meyarları ilə yanaşı, Çin peyvəndi Azərbaycanda mövcud infrastruktura çox uyğundur. Yeri gəlmişkən, bu peyvəndi alan digər ölkələrdə keçirilən testlər vaksinin 50-90 % effektiv olmasını göstərib. Çatdırılma və saxlama şərtləri onu istənilən yerə çatdırmağa imkan verir. Bu məqsədlə Azərbaycanın tibb müəssisələrinə müvafiq soyuducular tədarük edilmişdir. Bəs peyvəndin vurulmasına necə nəzarət olunur?

Belə ki, Azərbaycanda bəzi insanlar düzgün vurulmamış peyvəndin onlara zərər verəcəyindən narahatdır. Onlar əmin olmaq istəyirlər ki peyvəndlərin saxlanılması, vaksinatorların səriştəsi, vaksinlərin vurulduğu otaqlar və müvafiq şərait kimi əsas şərtlərə riayət olunur.

Səhiyyə Nazirliyi yanında İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM) səhiyyə işçiləri üçün baza və tematik kurslar keçirir. İSİM-in layihələrin əlaqələndirilməsi söbəsinin müdiri Səbinə Babazadə deyir ki, birinici kurslar hər beş ildən bir keçirilir və məqsəd tibb işçilərinin baza bilikləri yeniləməkdir. İkinci kurslar isə 40 saat davam edir və vaksinatorlara yeni peyvəndlərlə aid praktiki bilikləri aşılayır - onu hansı lazımi hərarətdə saxlamaq və vurmaq, vaksin hansı mümkün reaksiyaya səbəb ola bilər və s.

"Tibb işçiləri o vaksin otağında işləmək üçün hər il yanvar ayında imtaham verir, sübut eləsin ki, bir tibb işçisi kimi, bir vaksinator kimi hər şeyi düzgün edir, bütün qaydalara riayət edir. Çünki əsas iş vaksinatora düşür",- deyir Səbinə Babazadə.

Səbinə Babazadə deyir ki, Səhiyyə nazirliyi peyvənlərin təhlükəsiz olmasına, soyuq zəncir sisteminə ciddi riayət edir və ÜST-ün təstiq etdiyi tədqiqatlar, kliniki test, protokol və məqalələr olmadan peyvədləməyə aid heç bir qərar verilmir.

**Vaksinlərin təhlükəsiz olması prioritet məsələdir**

Təhlükəsizlik və effektivlik ilə əlaqədar ÜST standartları və müvafiq sertifikatlar peyvənd seçimi üçün həlledicidir. Bu həm milli peyvənd təqvimi və immunizasiya proqramları çərçivəsində, həm də koronavirusa qarşı vurulan vaksinlərə aiddir.

Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktor müavini Afaq Əliyeva təkidlə söyləyir ki, istənilən virusa qarşı peyvəndləmə zəruridir və bu peyvəndlər bir çox xəstəliklərin azalması və ya ümumiyyətlə yox olmasına gətirib çıxarıb. Əks təqdirdə, ağırlaşma və hətta ölüm riski yüksəkdir.

"Hamiləlik dövründə həmin xəstəliyə yoluxan ananın doğulan uşağında anadangəlmə məxmərə sindromu ola bilər. Uşaqda görmə, əqli,eşitmədə ağrlaşmalar olur", - deyir infeksionist.

Mövcud pandemiyaya gəlincə, epidemioloq karantin tədbirlərinin KOVİD-ə yoluxma sayının azaltdığına əmindir, lakin qalan yolu yalnız insanları vaksinasiyaya inandırmaqdan keçdiyi qənaətindədir.

"COVID-dən ölənlərin sayı yüksəkdir. Bu xəstəlik sözün hərfi mənasında hər bir ailəyə, təşkilata və idarəyə təsir etdi", - o deyir.

Həkimlər əmindir ki, vaksinasiya effektiv olacaq və kollektiv immunitetinin yaranmasına gətirib çıxaracaq. Milli Oftalmoloji Mərkəzinin anestezioloqu və reanimasiya mütəxəssisi Şahin Məmmədov peyvəndləmənin karantin və təcrid zamanı daha təsirli bir tədbir olduğunu düşünür. O, deyir ki, kafe və digər ictimai yerlərin lazımi peyvəndləmə edilmədən açılması mövcud təcrid müddətinin uzadmasına gətirib çıxaracaq.

Onun qənaətinə görə, Azərbaycan dünyanın bir parçası olduğu üçün məhdudiyyətlərin qaldırılması başqa yerlərdə də yoluxma saylarının azalmasından asılı olacaq. Lakin burada əksəriyyət peyvənd olunan kimi karantin rejimi ləğv ediləcək.

"Ağır xəstələrin və ölümlərin sayı azalacaq, yüngül və orta dərəcədə xəstələrin sayı qrip xəstəliyindəki kimi bir müddət qalacaq. Baxmayaraq k, bu, bir az zaman alacaq, ölkə tədricən KOVİD-dən əvvəlki dönəminə qayıdacaq. Dərhal deyil. Ancaq qayıdacaq",- deyə Şahin Məmmədov bildirib.

***Müəllif: İsmayıl Fətəliyev***




# Şərqi Avropa Azərbaycanlıları dünya birliyinə çağırış edib

***Şərqi Avropa Azərbaycanlıları Koordinasiya Şurasının əlaqələndiriciləri Xocalı soyqırımının 29-cu ilində beynəlxalq qurumlara bəyanatla müraciət ediblər.***

Koordinasiya Şurasının əlaqələndiriciləri Eldar Vəliyev (Çexiya), Zərifə Əlizadə (Serbiya), Renad Yüzbəyov (Xorvatiya), Ramiz Əmirli (Macarıstan), Rəşad Mehbalıyev (Macarıstan), Seyran Mirzəzadə (Monteneqro), Xəlil Həsənov (Polşa), Lalə Zeynalova (Polşa), Entela Muço (Albaniya), Vaqif Həsənov (Rumıniya) və Rüstəm Rüstəmovun (Slovakiya) imzaları ilə BMT-nin katibliyinə, İnsan hüquqları üzrə Ali komissarlığına, Avropa Birliyinə, Avropa Parlamentinə, NATO-nun Parlament Assambleyasına, Beynəlxalq Sülh Bürosuna ünvanlanan bəyanatda 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələrinin 366-cı motoatıcı alayın hərbçiləri ilə birlikdə törətdiyi Xocalı soyqırımı, Ermənistanın xalqımıza qarşı həyata keçirdiyi təcavüzkar və etnik təmizləmə siyasəti barədə ətraflı məlumat verilib.

Bəyanat müəllifləri təəssüflə qeyd ediblər ki, beynəlxalq hüquq normaları və prinsiplərinin, insan hüquqları və azadlıqlarının cinayətkarcasına və kobudcasına tapdandığı bu soyqırımı planlaşdıranlar, təşkil edənlər və icraçılar indiyədək məhkəmə istintaqına cəlb olunmayıblar və layiqli cəzalarını almayıblar. ”Biz dünya ictimaiyyətini və beynəlxalq təşkilatları ədalət və gələcək naminə Xocalı soyqırımını qətiyyətlə pisləməyə, bu kütləvi qırğına obyektiv hüquqi və siyasi qiymət verməyə çağırırıq”.

# Türk respublikalarının müstəqilliyinin 30 illiyi qeyd olunur

***Beynəlxalq Türk Akademiyası və Türkiyə Cümhuriyyəti Xarici İşlər Nazirliyinin Strateji Araşdırmalar Mərkəzinin təşkilatçılığı ilə ”Türk respublikalarının müstəqilliyinin 30-cu ildönümü: Dünən, bu gün və sabah” mövzusunda beynəlxalq onlayn seminar keçirilib.***

Seminarda Beynəlxalq Türk Akademiyasının prezidenti Darxan Kıdırəli, Türkiyə Xarici İşlər Nazirinin müavini Yavuz Selim Kıran, Türk Şurası ilk Baş katibi Halil Akıncı, TÜRKSOY-un Baş katibi Düsen Kaseinov, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, Türk Şurası Baş katibinin müavini Sultan Rayev, TÜRKPA Baş katibinin müavini Ali Yıldız, Türkiyə XİN-nin Strateji Araşdırmalar Mərkəzinin rəhbəri Ufuk Ulutaş, Türkiyə Prezident Administrasiyasının Təhlükəsizlik və Xarici Siyasət Komissiyasının üzvü Aygün Attar, UNESCO Türkiyə Milli Komitəsinin sədri Öcal Oğuz və digərləri Türk respublikalarının keşməkeşli müstəqillik yolu, 30 ildə əldə olunan uğurlar barədə məruzələrlə çıxış ediblər.

Tədbirdə Türk dövlətlərinin daha da yaxınlaşmasına xidmət edən ortaq beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın daha geniş perspektivdə inkişaf etdirilməsinin əsas hədəf olduğu bildirilib.

Beynəlxalq seminarda həmçinin, qardaş ölkələr arasında daha sıx bir inteqrasiyanın təmin edilməsi istiqamətində müzakirələr aparılıb və əhəmiyyətli təkliflər irəli sürülüb.

# Vətən müharibəsinin Zəfəri - Polkovnikin HƏYAT HEKAYƏSİ

***Onun uğur hekayəsi Vətən müharibəsində yazıldı. Düşmən gülləsinə tuş gəlsə də son nəfəsində belə yıxıldığı torpağı boyu qədər qoruyan oğullardan biridir o. Həmsöhbət olarkən hərbçi ömrünün bir qu nəğməsi olduğunu anladım. Vətən çağıranda səndən, məndən bir addım öndə olmaq isə özünün dediyi kimi alın yazısıdır.***

27 sentyabr arzularının çin olduğu gündür. Polkovnik Zəfər Yusibov babalarının doğulduğu Göyçə mahalına Kəlbəcər dağlarından baxmaq üçün o günü çox gözləmişdi.

DİN Daxili Qoşunlarının I Qarabağ savaşında yarımçıq qalmış qəhrəmanlıq salnaməsinin davamını yazmağa quşlardan qanad, şimşəklərdən inad alıb tələsmişdi. Atılan hər bir güllənin canavar ağzına yem olmaqdan qorxmadan düşmən üstə şığıyanda hiss etmişdi ki, yanındakı əsgərləri qədər göy üzündəki şəhid ruhları da intiqam hissi ilə alışıb yanır. Ölümün belə ağ bayraq qaldırıb onlara təslim olması Vətən savaşının möcüzələrindən biriydi.



Onları tanıyaq, tanıdaq, sevək və adlarını ömürlük yaddaşımıza həkk eləyək. Yeri gəlmişkən, DİN Daxili Qoşunlarının dörd əməkdaşı-polkovnik Zəfər Yusibov, polkovnik-leytenant Füzuli İmrəliyev, mayor Şıxamir Qaflanov (ölümündən sonra) və kapitan Nicad Bədəlov Silahlı Qüvvələrin Ali Baş Komandanı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüblər.

Deyir ki, Vətən savaşından bir ay öncə öncə Daxili Qoşunların xüsusi təyinatlı bölmələrindən 300 nəfər Azərbaycan Respublikası Müdafiə Nazirliyinin xüsusi təyinatlı bölmələrinə ezam olundu. Məqsəd çevik aparılan döyüş taktikasını mənimsəmək, şəxsi heyətin biri-birini tanıması, həm də taktiki vəziyyətlərdə mühitə uyğunlaşma, döyüşün aparılmasında və birliklər arasında idarəetməyə nail olmaq idi. “Keçirilən təlimlərdən anlayırdıq ki, gözlədiyimiz an üçün hazırlıq gedir. Otuz ildə düşmənin qurduğu istehkamları yarmağın asan olmayacağını bilirdik. Ancaq o torpaqlar bizi gözləyirdi. Həm də bizə diş qıcayanlara gücümüzü göstərməliydik. Ali Baş Komandanın kimlər üçünsə gözlənilməz, bizim üçün isə hər an gözləyəcəyimiz qərar qəbul etməsi ordumuza-xalqımıza fürsət vermişdi. Döyüş intizamı, təminatı, təchizatı və mənəvi-psixoloji hazırlığı ilə Azərbaycan əsgəri düşməndən qat-qat güclü idi. Komandir olaraq qarşımızda həm verilən tapşırıqları yerinə yetirməli, həm də tabeliyimizdəki şəxsi heyətin həyatını qorumaq üçün əlimizdən gələni etməliydik. Ancaq müharibə itkisiz olmur, qələbə qurbansız qazanılmır”...

Bəlli bir istiqamətdən düşmənin mövqelərinə doğru qarlı, dumanlı, gözgözü görməyən havada irəliləmək çətin olsa da Koroğlu yüksəliyi istiqamətində aviasiyanın hücumu və ondan bir qədər sonra artilleriyanın sərrast atışları nəticəsində pərən-pərən olan düşməni görmək ötən illər ərzində ölkə Prezidenti cənab İlham Əliyevin ordu quruculuğuna göstərdiyi diqqətin bariz nümunəsi idi.

Bu gün adı igid oğullarımızın yaddaşına yazılan “Canavar”, “Elşən” və “Camış” postlarının alınmasında Daxili Qoşunların hərbi qulluqçuları unudulmayacaq fədakarlıqlara imza atıblar. Çünki düşmən mövqe tutduğu və möhkəmləndiyi strateji yüksəklikləri ağır silahlara qoruyurdu. Həmin yüksəkliklərə qalxmaq, oranı geri almaq üçün Azərbaycan əsgəri yüngül atıcı silahlarla tanka, topa qarşı döyüşürdü, içindəki inam hissi onu irəli aparırdı.

Ordumuz Füzuli-Cəbrayıl istiqamətində düşmənin qurduğu güclü istehkamları məhv etməklə onun belini qırdı və digər işğalda olan rayonların azad edilməsi üçün şərait yarandı. Bununla bağlı Qəhrəmanımızın maraqlı açıqlamaları da diqqətimizdən yayınmadı. Sən demə, düşməndən ələ keçirilmiş xəritələrdə Füzuli və Cəbrayıl rayonları xarabalıq deyə qeyd olunurmuş.

Düşmənin həmin istiqamətlərdə müqavimətini qırmaq üçün ordu rəhbərliyinin çox mühüm bir taktikası işə yarayır: Xüsusi təyinatlı qüvvələrimiz üç istiqamətdə düşmən üzərinə hücuma keçir...

Vətən müharibəsində ən qanlı döyüşlər Hadrut istiqamətində getsə də ordumuz düşmənlərimizdən fərqli olaraq günahsız insanların ölməməsi üçün dəhliz yaratmışdı.

“Hadrutda Azərbaycan bayrağını ilk dəfə dalğalandıran oğulların sırasında olmaq dünyanın ən böyük xoşbəxtliyi idi. Qanımız və canımız bahasına o doğma yurd yerini düşməndən azad etmişdik. Biz dinc əhali ilə deyil, ərazi bütövlüyümüzə göz dikənlərlə, o cümlədən muzdlularla döyüşürdük. Ancaq hadrutda maraqlı bir mənzərənin şahidi olduq. Küçələrdə yüngül atıcı silahlar, zirehli gödəkçələr müəyyən məsafələrdə yerə tökülmüşdü. Bunu etməklə düşmənin məqsədi mülki vətəndaşları da bizə qarşı döyüşməyə məcbur etmək idi”,-deyir polkovnik Zəfər Yusibov...

Tuğ qəsəbəsində Naxçıvandan gələn əsgərlərimizə kömək üçün hərəkətə keçirlər. Duyuq düşən düşmən onları pusquya salır. Komandir qətiyyəti, çevik qərar qəbul etmə və döyüş şəraitini qiymətləndirmə bacarığı sayəsində bütün şəxsi heyət pusqudan sağ-salamt çıxır, toparlanıb düşmənə ağır zərbə vururlar.

Vətən savaşı qəhrəmanımız, polkovnik Zəfər Yusibov snayper gülləsindən ağır yaralandığını heç kimə deməyib. Üç gün yaralı vəziyyətdə döyüşdükdən sonra rəhbərliyin təkidi ilə müalicə olunması üçün DİN Daxili Qoşunlarının hospitalına göndərilir.

Həmin ərəfədə Şuşa uğrunda gedən döyüşlərdə iştirak edə bilmədiyinə heyfslənir. Yarası qaysaq bağlamamış yenidən cəbhəyə qayıdır, Kəlbəcər istiqamətində gedən döyüşlərə qatılır.

Vətən Müharibəsi Qəhrəmanı, polkovnik Zəfər Yusibov 1982-ci ildə Şəki rayonunun Çayqaraqoyunlu kəndində doğulub. Orta məktəbi bitirdikdən sonra 1999-cu ildə Bakı Ali Birləşmiş Komandirlər Məktəbinə daxil olub. Hərbi Ali Məktəbi bitirdikdən sonra 2003-cü ildə DİN Daxili Qoşunlarında xidmətə başlayıb. Daxili Quşunların Orta İxtisas Məktəbini “İkinci fərqlənmə dərəcəsi”ilə bitirib. Xidmət ərzində Türkiyədə Komando, komando ixtisas, snayper, su altı axtarma və zərərsizləşdirmə və ingilis dili kurslarını bitirib. Müxtəlif vaxtlarda iki dəfə qardaş ölkədə keçirilən girovların təyyarədə, qatarda, avtobusda,yaşayış məntəqəsində azad olunması üzrə kurslarda iştirak edib. Orada Quru qoşunlarının akademiyasını əla qiymətlərlə başa vurub.

DİN rəhbərliyi tərəfindən dəfələrlə mükafatlandırılıb. 2019-cu ilin avqustunda Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov ona növbədənkənar mükafat qaydasında polkovnik rütbəsini təqdim edib.

Vətən Müharibəsi Qəhramanımız DİN Daxili Qoşunlarının Biləcəridə yerləşən N saylı hərbi hissəsinin “Şahin” Xüsusi Təyinatlı Dəstəsinin komandiridir.

Vətən savaşımızın dünyanın gündəmində olması, döyüş taktikalarımızın böyük gücləri heyrətləndirməsi başadüşüləndir. Çünki XXI əsrin müharibəsinin necə aparılmasını ordumuz bütün dünyaya nümayiş etdirdi.

Son olaraq onu demək istəyirik ki, əgər komandirin, əsgərin şücaəti, qorxmazlığı olmasa ən güclü texnikalar belə işə yaramaz.

***Hafiz Təmirov,***
***polis polkovnik-leytenantı***

# VƏTƏN DAŞI

***İnsan doğulur böyümək üçün. Doğulanda isə insanın nələr yaşayacağı, nələr yaşadacağı tək Allaha aşkar olur. Kiminə cismən böyümək qismət olur, kiminə ruhən. Nəcməddinin doğulduğu gün məğrurluğu, əsaləti yansımışdı gözlərinə. Həm də gözlərinin dərinliyində ümid işığı parıldayırdı. Sən demə o işıq illər sonra vətəni nura qərq edəcəkmiş.***

Savalanov Nəcməddin Akif oğlu 1985-ci il fevralın 26 - da İmişli rayonunun Göbəktala kəndində anadan olub. Ailədə 3 qardaş olan uşaqlar elə körpə yaşlarında atalarını itiriblər. Gənc yaşda dayaqsız qalan analarına qolqanad gələn oğullar körpə yaşlarında həyatın yoxluq adında sınaq dərsi ilə imtahan olunublar. Nəcməddin düşüncələri ilə digər yaşıdlarından fərqlənib. O, 1992-ci ildə şəhid Azər Atayev adına Göbəktala kənd orta məktəbində təhsil almağa başlayıb. Hər il doğum günündə bütün uşaqlar kimi sevinən Nəcməddin 7 yaşında doğulduğu gün Xocalıda özü kimi körpələrin ermənilər tərəfindən xüsusi amansızlıqla qətlə yetirildiyini duydu. Həmin günün sevinci elə 1992-ci ildə donub qaldı. Ondan sonra Nəcməddin 26 fevralı doğum günü kimi yox Xocalı soyqırımının ildönümü kimi qeyd etdi. Ürəyində tək bir arzusu var idi. Qarabağ işğaldan azad olunsun. O arzunun çin olmağı üçün Nəcməddin hər vəchlə çalışırdı. Bu minvalla da IX sinfi bitirdikdən sonra hərbi məktəbdə oxumaq qərarına gəldi. N. Savalanov 2000-ci ildə Naxçıvanski adına hərbi liseyə daxil olub. 2003-cü ildə bitirib və elə həmin il Heydər Əliyev adına AAHM - də təhsil alıb, istehkamçı mühəndis ixtisasına yiyələnib. 2007-2008-ci illərdə TTM - nin təkmilləşdirmə kursunu keçib. Təyinatla Sənqəçalda N sayılı hərbi hissədə işə başlayıb. Öz istəyi ilə 2012-ci ildə Bərdə,Ağdam,Tərtər istiqamətində ön xətdə xidmət edib. 27 sentyabr 2012-ci ildə mina axtaran zaman Nəcməddin ağır yaralanıb. Son nəfəsini vətən üçün vermək arzusu ilə yaşayan qəhrəman yenidən xidmətə dönməyi üçün qurban deyib. Bir müddət sonra qurbanı qəbul olan Nəcməddin işinə dönüb. Nizam-intizamı, çevikliyi, biliyi ilə Nəcməddin əsil hərbçinin bütün müsbət xüsusiyyətlərini özündə cəmləməyi bacarıb. 2014-cü ildə kapitan hərbi rütbəsi alıb.

Bütün arzuların önündə gələn azadlıq arzusunun üzünə qapı açanlardan biridir Nəcməddin Savalanov. 2016-cı il aprelin 1-dən 5-nə qədər davam edən döyüşlərdə illərdən sonra Azərbaycan ordusunun ilk azad etdiyi torpaqlarda şücaətinin izi olan qəhrəmandı. Nəcməddinin vətənə sipər etdiyi cismi düşmənin açdığı atəş nəticəsində yaralansa da illərdən sonra körpəlikdən bu günə qədər ürəyində böyütdüyü qisasını aldığı üçün ürəyinin yarası sağalmışdı. Cisminin yaralarını isə Silahlı Qüvvələrin Baş Klinik Hospitalının həkimləri sağaltmağa çalışırdılar. Xəstəxanada yatdığı zaman ölkə başçısı İlham Əliyevin sərəncamı ilə "İgidliyə görə" medalı ilə təltif edilən Nəcməddinin ən böyük arzusu bu medalı sağaldıqdan sonra təhvil almaq idi. Ancaq o bu arzusuna çata bilmədi. Xocalının işğalı günü dünyaya gələn qəhrəman Şuşanın işğalı günü sonuncu nəfəsini verdi. O son nəfəslə bərabər neçə ümid də can tapşırdı. Mayın 8-i şəhadətə qovuşan qəhrəmanın nəşi mayın 9-u İmişli rayonu Şahverdili kənd qəbirsanlığında izdihamla dəfn olundu. Nəcməddinin dəfni zamanı hər kəsin ürəyi yanır, gözləri ağlayırdı. Ancaq bir nəfər vardı ki, onun fəryadı görənlərin ruhunu sızladırdı. Bu Nəcməddinin dostu, sirdaşı, qardaşı Məmmədov Toğrul Səyyad oğlu idi. Toğrul bu itkini qəbullana bilmirdi. Hələ Şuşaya birlikdə bayraq sancacaqlarını arzu etdiyi dostunu Şuşanın işğalı günü itirmək onun üçün çox ağır idi. Bir zaman əllərini çiyinlərinə qoyduğu dostunun tabutunu çiyinlərində aparan Toğrul dostunun dəfnində onun qisasını alacağını söz verdi. Toğrul verdiyi sözü tutdu. Qısa zaman sonra 14 iyul 2016-cı ildə Toğrul ermənilərin yenidən atəşkəsi pozma cəhdlərinin qarşısını alarkən qəhrəmancasına şəhid oldu. Hər iki dostun ruhu cənnətdə qovuşdu.




Bu gün Nəcməddin və Toğrulun ruhu Qarabağın hər qarışında dolanır. Onlar cismən olmasa da ruhən "44 günlük müharibə" adı ilə tarixdə həkk olunan qalibiyyətimiz zamanı vuruşan əsgərlərlə birgə vuruşublar. Həmin döyüşlər zamanı hər iki qəhrəmanın qisasını alan qəhrəmanlardan biri də Nəcməddinin həmyerlisi, dostu Həsənov Əsəd Fərhad oğlu idi. Əsəd də Nəcməddinin dəfni zamanı onun qisasını alacağına söz vermişdi. Əsəd sözünü tutdu. O, Nəcməddin və Toğrulun arzusunda olduğu torpaqları azad edənlərdən biri oldu. Əsəd də son nəfəsinə qədər vətənin azadlığı naminə vuruşdu və qəhrəmancasına şəhid oldu. Əsəd və Nəcməddin İmişli rayonu Şahverdili kənd qəbirsanlığında dəfn olunublar. Cənnətdə ruhları qovuşan üç dostdan biri olan Toğrul Məmmədov isə Naxçıvan MR Babək rayonunun Şıxmahmud kəndində dəfn olunub. Vətən daşı olan hər üç qəhrəmanın cismi torpağa tapşırılsa da adları ürəklərə həkk olunub.

Bütün tökülən nahaq qanların, bitən nakam ömürlərin qisası alınıb. İllərdi uğrunda neçə-neçə vətəndaşlarımızın daş olduğu Qarabağımız azad olunub. Daha 8 may Şuşanın işğal günü 8 noyabr Zəfər günü ilə yer dəyişib. Qalibiyyətimizin işığı bütün həsrətli ürəkləri nurlandırır. Hər şəhid doğması şəhidinin qanının axdığı torpaqların mənfur düşmənlərin tapdağı altında olmadığı üçün şükür edir.

Nəcməddinin də üç əmanət övladı atalarının can verdiyi torpağın azadlıq sevincini yaşayırlar. Onlar atalarının hər zaman dediyi "Bir gün biz hərbçilər azad Qarabağda övladlarımızı səsləyəcəyik" sözlərini unutmurlar. Onlar Qarabağa getdikləri zaman atalarının ruhunun "Nuray, Leyla, Adəm" deyə səslənişini hiss edəcəklər.

### ÜÇ DOST

Sən gedən gün başladı,
Qəlbin qisas savaşı.
Yaddaşlara həkk oldu,
Əsədin və Toğrulun,
Qisas dolu baxışı.

Toğrul çırpınıb qaldı,
Yaralı bir quş kimi.
Dost itkisi elə bil,
Lap çarmıxa çəkirdi,
O an onun qəlbini.

Əsəd basdı bağrına,
Övladını sənin tək.
O dərdə tab etmirdi,
Parça-parça olmuşdu,
Dərdini çəkən ürək.

O gün hər iki dostun,
Qisas andını içdi.
Nəcməddin, dostların da,
Sənintək bu vətənin,
Uğrunda candan keçdi.

İndi üç dostun adı,
Dillərə dastan olub.
Nəcməddin,Toğrul bir də,
Əsəd vətən uğrunda
Qərənfil kimi solub.

*MANYA SƏXAVƏTQIZI*




# Türk respublikalarının müstəqilliyinin 30 illiyi qeyd olunur

***Beynəlxalq Türk Akademiyası və Türkiyə Cümhuriyyəti Xarici İşlər Nazirliyinin Strateji Araşdırmalar Mərkəzinin təşkilatçılığı ilə "Türk respublikalarının müstəqilliyinin 30-cu ildönümü: Dünən, bu gün və sabah" mövzusunda beynəlxalq onlayn seminar keçirilib.***

Seminarda Beynəlxalq Türk Akademiyasının prezidenti Darxan Kıdırəli, Türkiyə Xarici İşlər Nazirinin müavini Yavuz Selim Kıran, Türk Şurası ilk Baş katibi Halil Akıncı, TÜRKSOY-un Baş katibi Düsen Kaseinov, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, Türk Şurası Baş katibinin müavini Sultan Rayev, TÜRKPA Baş katibinin müavini Ali Yıldız, Türkiyə XİN-nin Strateji Araşdırmalar Mərkəzinin rəhbəri Ufuk Ulutaş, Türkiyə Prezident Administrasiyasının Təhlükəsizlik və Xarici Siyasət Komissiyasının üzvü Aygün Attar, UNESCO Türkiyə Milli Komitəsinin sədri Öcal Oğuz və digərləri Türk respublikalarının keşməkeşli müstəqillik yolu, 30 ildə əldə olunan uğurlar barədə məruzələrlə çıxış ediblər.

Tədbirdə Türk dövlətlərinin daha da yaxınlaşmasına xidmət edən ortaq beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın daha geniş perspektivdə inkişaf etdirilməsinin əsas hədəf olduğu bildirilib.

Beynəlxalq seminarda həmçinin, qardaş ölkələr arasında daha sıx bir inteqrasiyanın təmin edilməsi istiqamətində müzakirələr aparılıb və əhəmiyyətli təkliflər irəli sürülüb.

# Türkiyəli həkimlər 3 günə 150-dən çox qazini müayinə ediblər

***"YAŞAT" Fondunun dəstəyi ilə ölkəmizə gətirilən türkiyəli həkimlər 3 gün ərzində 150-dən çox qazimizi müayinə ediblər.***

Bu barədə "ASAN xidmət"dən verilən məlumatda bildirilib.

Rəsmi məlumata görə, ağır yaralı olan qazilərimizin bundan sonra da müalicə və əməliyyatları türkiyəli və yerli həkimlərin birgə rəyi əsasında davam etdiriləcək.

Xatırladaq ki, "YAŞAT" Fondunun dəstəyi, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə Türkiyə Respublikasından həkim heyəti ölkəmizə gətirilib.

Həkim heyətinin tərkibində ortoped, beyin cərrahı, ümumi cərrah və digər ixtisaslı həkimlər olublar.



## Putin-Jirinovski dialoquna Moskvadan şərh

***Rusiya prezidenti Vladimir Putin parlament fraksiyalarının liderləri ilə videokonfrans keçirib. Müzakirə zamanı o, Jirinovskinin çıxışına, yumşaq desək, düzəliş verib. Bu düzəlişlər içtimaiyyətin geniş müzakirəsinə səbəb olub.***

Bunlardan biri, Jirinovskinin tarixi ortodoksluq mərkəzi, yəni Konstantinopoldan danışanda dediyi "türklər 1453-cü ildə Konstantinopolu, hər şeyi ələ keçirdilər, hər şey dağıldı və biz tək qaldıq" fikrinə cavab olaraq Putinin 1453-dən təxminən 250 il əvvəl "XaçYürüşü" adı altında Qərbdən gələn səlibçilərin ortodoks imperatorluğuna əsas zərbəni vurmasını xatırlatması, digəri isə, partiya sədrinin bolqarların, ukraynalıların, belorusların, serblərin immiqrant olaraq ölkəyə buraxılması, Mərkəzi Asiyadan olanların isə buraxılmaması təklifinə münasibət bildirərkən Rusiya rəhbərinin "Rusiya yalnız ruslar üçündür" şüarını "mağara millətçiliyi" adlandırmasıdır.

Putin-Jirinovski dialoquna şərh verən jurnalist-politoloq Anar Həsənov Xeberlent.az-a bildirdi ki, Vladimir Jirnovskinin tarixlə bağlı ritorikası ilk növbədə onun öz seçicisinə ünvanlanıb: "Çünki o, Rusiyadakı post-sovet düşüncə tərzi daşıyıcılarının siyasi partiya rəhbəridir, yəni sovet dövründə beynəlmiləlçilik, ateizim əsas ideoloji xətt idisə, post-sovet dəyərləri özündə dini və etnik mərkəzçiliyi ehtiva edir. Vladimir Jirnovski slavyan və provaslav qardaşlığı kimi şüarları ilə həmişə gündəmdədir. Başqa sözlə, o, Sovet dövrü ideallarının əksinə gedən, amma imperiya dövrünün ideallarını bərpa etmək istəyən bir siyasətçidir.

Vladimir Putin isə dövlət başçısıdır və bu cür çıxışlar onun üçün yolverilməzdir. Çoxmillətli dövlətin rəhbəri, əlbəttə ki, bu kimi etnik millətçilyə əsaslanan çıxışların əksinə getməlidir. Bir də ki, Vladimir Jirnovski adəti üzrə həmişə pis polis rolunu oynayır.

İslam dünyasının və son zamanlar Türkiyənin ünvanına səsləndirilən xoş fikirlərə gəldikdə isə, bu ilk növbədə Rusiyanın Qərb dövlətlərinə olan ismarıcıdır. Rusiyanın ən çox zərbə aldığı, ona sanksiyalar tətbiq edən Qərbdir. Rusiyanın gerçək tərəfdaşı, iqtisadi, siyasi bloklarda onunla birgə olan dövlətlərsə Şərq dövlətləridir. Deməli, ölkənin etnik və dini tərkibini nəzərə alan Vladimir Putindən bu cür çıxış gözlənilən idi. Vladimir Putin söhbət analogiyadan gedəndə Şərqə və İslam dünyasına üstünlük verir. Bundan başqa, Rusiya Avrasiya dövlətidir və onun böyük hissəsi Asya qitəsində yerləşir. Siyasi rejim baxımından da Rusiyadakına bənzər rejim tipləri Şərqdədir. Rusiyada Qərbə meyillilik hələlik sistemdənkənar müxalifətin mövqeyidir".

# İsrailin nüvə obyektində yeni tikinti

## ATOM SİLAHINA SAHİB OLDUĞUNU ETİRAF ETMƏYƏN ÖLKƏYƏ ŞÜBHƏLƏR ARTI

***"Associated Press"-in təhlil etdiyi peyk fotoları elan olunmamış atom silahları proqramının mərkəzində olan gizli İsrail nüvə təsisinin inşasına işarə edir.***

Bir futbol meydanı böyüklüyündə və ehtimal ki, bir neçə mərtəbə dərinlikdə qazıntı yeri Dimona şəhəri yaxınlığında, Şimon Peres adına Negev Nüvə Tədqiqat Mərkəzindəki köhnə reaktordan bir neçə metr aralıdadır. Müəssisə onsuz da İsrailin nüvə bombası proqramı üçün silah səviyyəli plutonium əldə etmək üçün reaktorun xərclənmiş çubuqları olan yeraltı laboratoriyalara ev sahibliyi edir.

İnşaatın təyinatı naməlumdur. İsrail hökuməti işlər barədə suallara cavab verməyib. O, mücərrəd nüvə siyasətinə əsaslanır, atom silahına sahib olduğunu nə təsdiqləyir, nə də inkar edir. Nüvə silahlarının yayılmasını dayandırmaq üçün mühüm beynəlxalq razılaşma olan Yaymama Müqaviləsinə heç vaxt qoşulmayan 4 dörd ölkə arasındadır.



İnşaat İsrail baş naziri Binyamin Netanyahunun rəhbərliyi altında İranın nüvə proqramına qarşı sərt tənqidlərin davam etdiyi bir vaxtda baş verir və ondan fərqli olaraq, İran proqramı BMT müfəttişlərinin nəzarəti altında qalır. Buna görə də, mütəxəssislər İsraildən proqramın təfərrüatlarını açıqlamasını tələb edir.

Vaşinqtonda yerləşən Silahlara Nəzarət Assosiasiyasının icraçı direktoru Deril Kimball bildirib: "İsrail hökuməti bu gizli nüvə silahı zavodunda nə etdiyini açıqlamalıdır".

Fransızların köməyi ilə İsrail 1950-ci illərin sonunda gizli şəkildə Qüdsdən 90 kilometr (55 mil) cənubda yerləşən Dimona yaxınlığındakı səhrada nüvə obyekti inşa etməyə başlayıb. Sahənin hərbi məqsədini illərdir İsrailin baş müttəfiqi olan Amerikadan "tekstil fabriki" adı ilə gizlədib.

Dimonadakı plutoniumla İsrailin dünyanın nüvə silahlı ölkələrindən biri olduğuna inanılır. Proqramınla bağlı məxfilik nəzərə alınaraq, onun neçə silaha sahib olduğu bəlli deyil. Analitiklər İsrailin ən az 80 bomba üçün materiala sahib olduğunu təxmin edirlər. Bu silahlar, ehtimal ki, quruda yerləşən ballistik raketlər, döyüş təyyarələri və ya sualtı qayıqlara təchiz edilə bilər.

Onilliklər boyu Dimona təsisinin tərtibatı dəyişməz qalıb. Bununla birlikdə, keçən həftə Prinston Universitetindəki parçalanan materiallar üzrə beynəlxalq ekspertlər qrupu həmin ərazidə ticari olaraq satılan peyk fotoşəkilləri vasitəsi ilə yeni obyekt aşkarlayıb.

Bazar ertəsi günü AP-nin sorğusundan sonra "Planet Labs Inc."-in peyk şəkilləri ən dəqiq görüntüləri təmin edib. Reaktorun cənub-qərbində işçilər 150 metr (165 yard) uzunluqda və 60 metr (65 yard) genişlikdə bir çala qazıblar. Qazıntıdan qalan tullantılar da aydın görünür. Çalanın yaxınlığında təxminən 330 metr (360 yard) uzunluğunda bir xəndək var.

Reaktordan təxminən 2 kilometr (1,25 mil) qərbdə, beton əsasları olduğu görünən iki düzbucaqlı çuxura qutular yığılır. Bənzər beton yastıqları tez-tez nüvə tullantılarını endirmək üçün istifadə olunur.

"Planet Labs"-dan alınan digər görüntülər reaktor yaxınlığında qazıntı işlərinin 2019-cu ilin əvvəllərində başladığını və o vaxtdan bəri yavaş irəlilədiyini göstərir.

AP-ni müsahibləri olmuş analitiklər orada nələrin baş verə biləcəyi barədə bir neçə iddia irəli sürüblər.

Mərkəzin ağır su reaktoru 1960-cı illərdən bəri işləyir və bu, eyni dövrün əksər reaktorlarından xeyli uzun müddətdir. Beləliklə, həm effektivlik, həm də təhlükəsizlik sualları doğur. 2004-cü ildə İsrail əsgərlərə Dimonadakı müəssisədə radioaktiv sızıntı ehtimalına qarşı yod həbləri verməyə başlayıblar. Yod bədənin radiasiyanı mənimsəməsinə mane olur.

Təhlükəsizliyə dair bu narahatlıqlar səlahiyyətlilərin reaktoru sıradan çıxaracağını və ya başqa bir şəkildə gücləndirə biləcəyini söyləyir.

Dimona haqqında geniş yazı yazan Montereydəki Middlböri Beynəlxalq Araşdırmalar İnstitutunun nüvə silahlarının yayılmaması işləri üzrə professoru Avner Koen bildirib: "İsrail hökumətinin mövcud nüvə potensialını qorumaq üçün narahat olduğuna inanıram. Həqiqətən, Dimona reaktoru istismardan çıxarılmağa yaxınlaşırsa, İsrail reaktorun hələ də əvəzolunmaz olan müəyyən funksiyalarını tamamilə dəyişdirəcək".

Silahlara Nəzarət Assosiasiyasının icraçı direktoru Kimball güman edir ki, İsrail bəzi nüvə başlıqlarının partlayıcı məhsuldarlığını artırmaq üçün nisbətən daha sürətli çürüyən radioaktiv yan məhsul - tritium istehsal etmək istəyə bilər. Bundan əlavə, təzə plutoniumla "İsrailin nüvə arsenalında olan döyüş başlıqlarını dəyişdirməsi və ya ömrünü uzatması" da mümkündür.

İsrail öz nüvə silahını 1948-ci ildə, yaranandan bəri, Holokostdan sonra ərəb qonşuları ilə bir neçə müharibə ilə üzləşdikdə qurub. Atom silahı proqramı, hətta elan olunmamış olsa da, düşmənləri çəkindirmə üçün bir vasitədir.

Nüvə proqramına rəhbərlik etmiş, daha sonralar İsrailin baş naziri və prezidenti olmuş Peresin 1998-ci ildə dediyi kimi: "Hiroşimaya sahib olmaq üçün deyil, Osloya sahib olmaq üçün bir nüvə variantı qurduq". Bu, İkinci Dünya müharibəsində ABŞ-ın ilk nüvə bombasını atmasına və İsrailinf fələstinlilərlə barışıq sazişi əldə etməsinə işarədir.

Ancaq İsrailin qeyri-şəffaf strategiyası müxaliflərinin tənqidinə səbəb olur. İranın xarici işlər naziri Məhəmməd Cavad Zərif bu həftə Dimonadakı işlərdən söz açıb. Çünki ölkəsi MAGATEnin 2015-ci ilin nüvə anlaşması ilə əlaqədar Qərblə yaşanan gərginlik fonunda nüvə obyektlərinə girişi məhdudlaşdırmağa hazırlaşırdı.

Zərif ingilis dilində yayımlanan "Press TV"-yə deyib: "İranın nüvə proqramı ilə əlaqəli hər hansı bir söhbət tamamilə boş sözlərdir. Bu, sadəcə ikiüzlülükdür".

Dimona inşaatının vaxtı Vaşinqtonda yerləşən Viskonsin Nüvə Silahlarına Nəzarət Layihəsinin icraçı direktoru Valeri Linsini təəccübləndirib. "Məni ən çox düşündürən şey budur: peyk görüntülərini, xüsusən də, bu görüntülərdən istifadə edərək hədəflərin izlənilməsindən çox xəbərdar olan bir ölkəniz var. İsraildə monitorinq üçün bilinən bir nüvə hədəfimiz var, bu, Dimona reaktorudur. Beləliklə, onlar güman edib ki, nəyi isə gizlədə biləcəklər?!"

1960-cı illərdə İsrail düşmən Misirin raket və nüvə səyləri ilə bağlı iddialarını Dimonadakı işlərindən yayındırmaq üçün istifadə edib və indi də İranla eyni şeyi edə bilər.

Middlböridən olan professor Ceffri Luis bildirib: "Əgər siz İsrailsinizsə və Dimonada diqqəti cəlb edəcək böyük bir tikinti layihəsi həyata keçirmək məcburiyyətində qalacaqsınızsa, yəqin ki, iranlılar haqqında daha çox çığır-bağır salmalısınız".

***Con Qambrell***
***"Associated Press",***
***25.02.2021***

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Ermənistanın işğalçı simasını bütün dünya görməlidir!

***İşğalda olan torpaqlarımızın 44 gün ərzində azad olunması ilə ərazi bütövlüyümüz təmin edilsə də, bu torpaqlardan 28 ildir ki, didərgin düşən məcburi köçkünlərin öz doğma yurd-yuvalarına köçürülməsi hələ ki, mümkün deyil.***

Buna səbəb isə işğal dövründə Ermənistan tərəfinin Azərbaycan torpaqlarını yağmalayaraq xarabalığa çevirməsi, o ərazilərdə olan bütün infrastrukturu məhv etməsidir. İşğaldan azad edilmiş torpaqlarımızın yayılan görüntüləri Ermənistanın vəhşi simasının dünyaya göstərilməsi üçün sözün əsl mənasında əyani sübutdur. İşğalçı dövlətin dini, tarixi, mədəni abidələrimizi yerlə-yeksan etməsi, tarixin Azərbaycan xalqına məxsus izini bu yerlərdən silmək cəhdinin beynəlxalq aləmə nümayiş etdirilməsinin vaxtı çatıb.

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatının sədri, İkinci Dünya müharibəsi veteranı, Prezident təqaüdçüsü, 100 yaşlı Fatma Səttarova da düşmənin bu əməlinin bağışlanmaz olduğunu söyləyir.

Onun sözlərinə görə, faşist Almaniyası belə ermənilər qədər vəhşi olmayıb. Həmsöhbətimiz deyir ki, Qarabağın bərpası ilə yanaşı, bu torpaqları xarabalığa çevirənlərin əməllərinin beynəlxalq hüquqla ifşa olunması, layiqli cəza alması təmin edilməlidir: "Hərdən məndən soruşurlar ki, "inanırdınmı 44 günə biz 28 il işğalda saxlanılan torpaqlarımızı azad edə bilərdik", mən buna mübaliğəsiz hə cavabı verirəm. Mən həmişə buna inanmışam. Elə bizim zəfər qazanmağımızın da səbəbi bu inam oldu. Bizim prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyev 44 gündə əynindən əsgər geyimini çıxartmadı. O, bu döyüşlərə birbaşa başçılıq etdi. Bizim ordumuz illər idi ki, bu zəfər gününə hazırlaşırdı. Sadəcə bunun vaxtının gəlməsini gözləyirdi. O günü ki, Ali Baş Komandan elan etdi, ordumuz düşmənin üzərinə irəliləməyə başladı. Mən müharibə iştirakçısı olmuşam. O vaxt bizim üçün SSRİ vətən sayılırdı. Biz Azərbaycan xalqı olaraq İkinci Dünya Müharibəsində də öz şücaətmiz, qəhrəmanlığımızla seçildik. Tarix göstərir ki, bizim xalqımız qorxmaz, igid xalqdır. Biz bu müharibə dövründə bir dəmir yumruğa çevrilib düşmənin başını əzdik. Çox təəssüf ki, bizim torpaqlarımızda düşmən daşı-daş üstündə qoymayıb. Amma biz bunu onlara bağışlaya bilmərik. Biz bunun hesabını düşməndən tələb etməliyik. Dağlıq Qarabağda işğalçı dövlətin törətdiyi insanlığa zidd əməllərə beynəlxalq hüquqda qiymət verilməlidir. Biz prezidentimizin dediyi kimi, Qarabağı dirçəltməliyik. Amma düşmənin bizə vurduğu ziyan ödənilməlidir. Bu gün hər birimizin üzərinə düşən məsələ bu istiqamətdə aparılan işlərə dəstək verməkdir. Ermənistanla müharibə başa çatsa da, biz bu işğalçı dövlətin əsl üzünü, xalqımıza tutduğu divanı, dövlətimizə vurduğu ziyanı dünyaya bəyan etməliyik. Düşünürəm ki, bu istiqamətdə işlər sürətlə aparılmalı,dünyanın diqqətini Dağlıq Qarabağla bağlı əsl həqiqətlərə cəlb etməliyik. Lazım gələrsə, xarici ölkələrin diplomatlarını bu vəhşiliyi görməsi üçün onların səfərlərini təşkil etməli, tariximizə, dinimizə, mədəniyyətimizə işğalçı dövlətin vurduğu zərər dünyaya nümayiş etdirilməlidir".



F.Səttarova deyir ki, Respublika Veteranlar Təşkilatı prezident İlham Əliyevin veteranlara daim diqqət və qayğısını yüksək qiymətləndirir, fəaliyyətini daha da səmərəli qurmağa çalışır.

Onun sözlərinə görə, 44 günlük Vətən müharibəsi veteranlarının daim diqqət mərkəzində saxlanılması, sosial problemlərinin həlli, onların bilik və bacarıqlarından gənclərin vətənpərvərlik ruhunda tərbiyəsində istifadə Təşkilatın qarşısında duran əsas vəzifələrdəndir: "Azərbaycanın ərazi bütövlüyünün bərpası, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda aparılan müqəddəs Vətən müharibəsində əldə olunan möhtəşəm Zəfər münasibətilə ölkəmizin çoxsaylı veteranları adından Ali Baş Komandana təbrik məktubu ünvanlamışıq. Onun müdrik və qətiyyətli rəhbərliyi ilə Azərbaycan bu Qələbəyə doğru çətin və şərəfli yol keçdi. Münaqişənin davam etdiyi illərdə prezidentimizdə çox böyük uzaqgörənlik, səbr və təmkinlə həm xalqımızı, həm də rəşadətli ordumuzu haqqın və ədalətin bərpası uğrunda müqəddəs Vətən müharibəsinə hazırladı, Azərbaycan Ordusunun döyüş qabiliyyətinin yüksəldilməsi, ən müasir hərbi texnika ilə təchiz edilməsi üçün misilsiz səylər göstərdi. Onun ən yüksək beynəlxalq tribunalardan Qarabağ həqiqətlərini dünyaya bəyan etməsi, aparıcı dövlətlərin rəhbərlərini Qarabağın ölkəmizin əzəli torpaqları olduğuna və işğaldan azad edilməsinin labüdlüyünə inandırması əsl sərkərdəyə xas xüsusiyyətdir. Qardaş Türkiyə Respublikası başda olmaqla bütün türkdilli dövlətlərin, həmçinin Pakistan, İsrail kimi nüfuzlu dövlətlərin Azərbaycanın haqq işinə dəstəyinə nail oldu.

Prezidentimiz müharibənin davam etdiyi günlərdə xarici ölkələrin nüfuzlu kütləvi informasiya vasitələrinə, telekanallarına verdiyi tutarlı arqumentlərlə zəngin müsahibələriylə ölkəmizin haqq səsini dünya ictimaiyyətinə bir daha çatdırdı. Ölkə vətəndaşlarını öz ətrafına səfərbər edərək milli birlik formalaşdırdı. Azərbaycanın beynəlxalq hüququn tələblərinə uyğun olaraq öz torpaqlarında savaş apardığını sübut etməklə ermənipərəst xarici dairələrin müharibənin gedişinə müdaxilələrinin qarşısını böyük məharətlə aldı. Hərbi əməliyyatların gedişində prezidentimizin müntəzəm olaraq bəyan etdiyi Qələbə müjdələrini, işğaldan azad olunan yaşayış məntəqələri, düşmənin məhv edilən qüvvəsi və hərbi texnikası barədə məlumatları ölkəmizin hər bir vətəndaşı səbirsizliklə gözləyirdi. Bu xəbərləri böyük sevinc və qürur hissi ilə dinləyir və səfərbər olurdular. İlham Əliyevin bilavasitə rəhbərliyilə rəşadətli Azərbaycan Ordusu vasitəçi dövlətlərin 30 il ərzində həll edə bilmədiyi məsələni cəmi 44 gün ərzində həll etdi, torpaqlarımızı erməni işğalından azad edərək ölkəmizin ərazi bütövlüyünün, Konstitusiya quruluşunun və milli təhlükəsizliyinin bərpasına nail oldu. Şəhidlərimizin və Qarabağ qazilərinin qanlarının yerdə qalmasına yol vermədi. Üçrəngli bayrağımız illərdir yolumuzu gözləyən şəhər və kəndlərimizdə dalğalandı, anaların göz yaşları sevinc yaşları ilə əvəzləndi. Bu müharibə prezidentimizin müdrik və uzaqgörən siyasətçi olmaqla yanaşı, həm də mahir sərkərdəlik bacarığının nümayişi oldu. Müqəddəs Qələbə sevincini yaşamağı bizlərə nəsib etdiyinə görə Azərbaycan xalqı öz Ali Baş Komandanı ilə, onun yaratdığı Silahlı Qüvvələrlə, onların peşəkar zabitləri və rəşadətli əsgərləri ilə qürur duyur. Əminik ki, yüz illər bundan sonra gələn nəsillər də bu qəhrəmanlıq, xilaskarlıq, azadlıq missiyası ilə fəxr edəcəklər".

F.Səttarova deyir ki, Dağlıq Qarabağın yenidən Azərbaycanın dilbər guşəsinə çevrilməsi işinə hər kəs dəstək verməlidir: "İllərdir ki, insanlar öz ata yurdunun həsrətini çəkir. Nə qədər məcburi köçkün bu arzu ilə dünyadan köçdü. Biz o toraqlara qayıdıb yenidən həyat verməliyik ki, şəhidlərimizin, ata-babalarımızın ruhu şad olsun. Mən əminəm ki, məcburi köçkünlər ilk yaradılan fürsətdən o torpaqlara qayıtmağa başlayacaqlar. Biz öz tariximizə, dini, mədəni, tarixi abidələrimizə sahib çıxmalı, o torpağın üzərində olmalıyıq. Hər zaman yadımızda saxlamalıyıq ki, Dağlıq Qarabağ əbədi və əzəli torpağımız, babalarımızın bizə miras qoyduğu yurd yeridir. Ona görə də, biz o toraqları yenidən cənnətə çevirməliyik. Dünya da işğalçı dövlətlə torpağın əsl sahibi arasında fərqi görməlidir. Ermənistan işğal etdiyi torpaqları xarabalığa çevirib, demək olar ki, o torpaqlar işğal dövründə istifadəsiz qalıb. Çünki, düşmən yaxşı bilirdi ki, bir gün o torpaqların sahibi qayıdacaq, öz yurduna sahib duracaq. O gün elə bu gündür. Bizim qələbə, zəfər günümüz. Hansı ki, bizim igidlər o toraqların xilas edilməsi üçün sıldırım qayalara dırmaşdı, topsuz əlbəyaxa davaya çıxdı".

***Mələk Eyvazlı***

**Səhifə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## Şamaxıda qanunsuz ov edən şəxslər saxlanıldı

***Şamaxı Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdikləri tədbir zamanı rayonun Kələxana kəndi ərazisində qanunsuz ov edən şəxslər saxlanılıb.***

DİN-in Mətbuat Xidmətinin Şəki regional qrupundan Unikal.org-a verilən məlumata görə, araşdırma zamanı onların rayon sakinləri Kavus Şiralıyev və Hacı Məmmədov olduqları müəyyən edilib. Həmin şəxslərdən müvafiq sənədləri olmayan 2 ədəd ov tüfəngi, hər iki silaha məxsus 39 ədəd patron, eləcə də ovladıqları çöl quşları götürülüb.

Polis Şöbəsi əməkdaşlarının keçirdikləri digər bir əməliyyat tədbiri nəticəsində isə Qaleybuğurd kənd sakini Aqil Cəlilovdan qanunsuz olaraq saxladığı "Toz" markalı odlu silah aşkar olunaraq götürülüb.

Hər üç şəxs barəsində toplanmış materiallar hüquqi qiymət verilməsi üçün məhkəməyə göndərilib.

## Ağdamda qardaş qardaşı bıçaqladı

***Ağdamda qardaş qardaşı bıçaqlayıb.***

Unikal.org-un məlumatına görə, yaralı Ağdam rayon Çəmənli kənd sakini, 1971-ci il təvəllüdlü Həsənov Qalib Balış oğlu Ağdam Mərkəzi Rayon Xəstəxanasına çatdırılıb.

İlkin məlumata görə, zərərçəkmiş qardaşı Həsənov İlham Balış oğlu tərəfindən bıçaqlanıb. Hadisənin ailə münaqişəsi zəminində baş verdiyi bildirilir.

## Axtarışda olan qadın 6 il sonra saxlanıldı

***Dələduzluğa görə axtarışda olan qadın 6 il sonra saxlanılıb.***

DİN Mətbuat Xidmətinin Lənkəran regional qrupundan Unikal.org-a verilən məlumata görə, Lənkəran Şəhər Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Cinayət Məcəlləsinin 178.2.2-ci (Dələduzluq; təkrar törədildikdə) və 178.2.3-cü (Dələduzluq; şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə) maddələrinə əsasən barəsində 31.08.2015-ci il tarixdən axtarış elan edilmiş Astara rayonunun Şahağacı kənd sakini K. Şükürova Tovuz rayonu ərazisində saxlanılıb.

# "Toy gecəsi bildi on dörd yaşım var, amma..." - 15 yaşlı gəlindən şok sözlər



***Gəncədə 15 yaşlı qızla cinsi əlaqədə ittiham olunan 1993-cü il təvəllüdlü Daşkəsən rayon sakini Tural Hüseynovun məhkəməsi başa çatıb.***

Teleqraf.com-un xəbərinə görə, Tural Hüseynov 2005-ci il təvəllüdlü Səidə Əhmədova (ad və soyad şərti verilib - red.) ilə 2019-cu ildə qeyri-rəsmi formada evlənib. O, ər-arvad münasibətində olduğu Səidə ilə mütəmadi cinsi əlaqədə olub.

İstintaqın gəldiyi nəticəyə görə, Tural onunla qeyri-təbii yolla da cinsi əlaqədə olub.

**"Tanış olmaq fikrinə düşdüm"**

Tural Hüseynovun barəsində Cinayət Məcəlləsinin 152.1-ci (on altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə) maddəsi ilə ittiham elan edilib.

Cinayət işi üzrə təqsirləndirilən şəxs qismində ifadə verən Tural Hüseynov elan olunmuş ittiham üzrə özünü təqsirli bilməyib. O, ifadəsində göstərib ki, Səidə Əhmədova onun qohumudur: "Özümə məxsus avtomobillə taksi fəaliyyəti ilə məşğul oluram. 2019-cu ilin əvvəllərində Səidənin xalası Gəncə şəhər xəstəxanasında müalicə olunan vaxt onun anası mənə zəng etdi, taksi lazım olduğunu bildirdi. Mən də subay olduğumdan və evlənmək barədə düşündüyümdən Səidə ilə yaxından tanış olmaq qərarına gəldim. Səidə haqqında anama bildirdim. Anam 2019-cu il mart ayının 8-də qohumlarımla Səidəgilə elçi getdilər.

Elçilik zamanı anamgil Səidənin yaşı ilə maraqlanıb. Onun 17 yaşı olduğunu bildiriblər".

**"Sənəd istəyəndə..."**

Təqsirləndirilən şəxsin sözlərinə görə, hətta Səidənin 17 yaşını birlikdə qeyd ediblər: "Gəncə şəhərində yerləşən "Sevincim" şadlıq evinə gedərək toy üçün hazırlığa başladıq.

Toyun vaxtını təyin etdik, şadlıq evinə beh də verdik. Toydan əvvəl nikah bağlamaqüçün Səidənin şəxsiyyət vəsiqəsini istədik. Səidənin anası qızının sənədləri olmadığından gözləməyimizi xahiş etdi. Savadsızlığımdan nikahı rəsmişləşdirmək üçün gözləmədik".

**"Yaşamağa başladıq"**

Tural Hüseynov bildirib ki, Gəncə şəhərində yerləşən"Sevincim" şadlıq evində Səidə ilə toyları olub:

"Həmin toy məclisində həm Səidənin,həm də mənim qohumlarım iştirak etdilər. Qız evi tərəfdən Səidənin dayısının arvadı yengə oldu. Toy məclisi qurtardıqdan sonra ikimiz yaxın qohumlarla Gəncə şəhəri Cavadxan qəsəbəsində yerləşən fərdi yaşayış evinə getdik. İlk dəfə Səidə ilə öz razılığı əsasında təbii yolla cinsi əlaqədə oldum. Bundan sonra Səidə ilə ər-arvad münasibətlərində yaşamağa başladıq".

**"Açıq-saçıq geyinmişdi"**

Tural Hüseynov qeyd edib ki, toydan 20 gün keçdikdən sonra onlar Səidənin anasından nikah bağlamaq üçün sənədləri istəyəndə, yenə sənədləri verməyiblər: "2019-cu ilin dekabr ayının ortalarında səhər tezdən işə gedəndə gördüm ki, Səidə açıq-saçıq paltar geyinib, çölə çıxıb. Səidəni danladım və əyninə paltar geyinməsini tələb etdim. Sonra işə getdim. İşdən qayıdanda gördüm ki, Səidə mənə etiraz edərək xalatını doğrayıb. Onun bu hərəkətləri məni əsəbiləşdirdi. Bu barədə zəng edərək Səidənin valideynlərinə dedim".

Təqsirləndirilən şəxsin ifadəsinə görə, həmin günün səhəri Səidənin valideynləri gəlib, onu öz evlərinə aparıblar: "Səidə ilə qeyri-təbii yolla cinsi əlaqədə olmamışam. Odur ki, təqsirimin olmamasının nəzərə alınmasını, barəmdə bəraət hökmü çıxarılmasını istəyirəm".

**"Anam da sözlərinə inandı, razılıq verdi"**

Cinayət işi üzrə zərərçəkmiş şəxs qismində ifadə verən Səidə Əhmədova bildirib ki, Tural Hüseynov onun uzaq qohumudur: "Turalla münasibətlərimiz yarandıqdan sonra tez-tez yaşadığım binanın qarşısına gələrək mənə sevgisini bildirdi. 2019-cu ilin təxminən iyun-iyul aylarında Turalın ailəsi bizə elçi gəldi.

Valideynlərim yaşım tamam olmadığını bildirsələr də, Turalın anası anama söz verdi ki, 18 yaşı tamam olduqdan sonra toy edəcəklər. Anam da onun sözlərinə inandı, məni Turalla nişanlanmağıma razılıq verdi".

**"Yumruq-şillə ilə məni döydü"**

Səidə Əhmədovanın sözlərinə görə, 2019-cu ilin iyul ayında evdə tək olan vaxt Tural onlara gəlib, paltar almaq adı ilə şəhərə çıxmağı təklif edib: "Turalın sözlərinə inandım,birlikdə şəhərə çıxdıq.

Tural məni aldadaraq fürsətdən istifadə etdi, məni Gəncənin Avtozavod qəsəbəsində yerləşən fərdi yaşayış evinə qaçırdı. Həmin vaxt Turalın anası evdə idi. O, mənimlə söhbət etdi, Turalla evlənəcəyimizi bildirdi. Mən də anama zəng etdim, bu barədə məlumat verdim. Anamla telefonda danışanda Turalın anası telefonu məndən aldı, anama mənim 17 yaşım tamam olduqdan sonra Turalla evlənəcəyimi və həmin vaxtadək bir evdə yaşayacağımızı söylədi.

Anam Turalın evinə gələndə onu yenə inandırmağa çalışdı ki, mənim yaşı tamam olduqdan sonra evlənəcəyik. Hətta Turalın anası bildirdi ki, bizim yaşadığımız bina yataqxana tiplidir və pis yer olduğu üçün toya qədər Turalın evində yaşayım. Anam da onun sözlərinə inandı, bir söz demədi. Özüm də Turalın evində qalıb, yaşım çatdıqdan sonra evlənməyimə razı oldum.

Təxminən 2 gün sonra səhər tezdən Turalın anasını işə yola salmadım. Bunun üçün Tural mənə əsəbiləşdi. Evin içərisində yumruq-şillə ilə məni döydü. Lakin adımın pis çıxmaması üçün bu barədə anama heç nə demədim".

**"Mənə əzab verdi"**

Səidə Əhmədova qeyd edib ki, 2019-cu ilin oktyabr ayında Tural və onun anası Gəncə şəhərində yerləşən "Sevincim" şadlıq evində onların toyu olacağını deyib: "Toyumuz oldu. Toy qurtardıqdan sonra yaxın qohumlar bizi Turalın fərdi yaşayış evinə apardılar. Həmin gün ilk dəfə toy gecəsi təbii yolla cinsi əlaqədə oldum, bakirəliyim pozuldu.

Bundan sonra Tural və qaynanamla birlikdə yaşamağa başladıq. Bir müddət sonra Turalla xasiyyətlərimin uyğun gəlmədiyini dərk etdim.

Tural müxtəlif bəhanələrlə məni döyür, incidirdi. Siqareti yandıraraq közünü sağ əlimin ikinci barmağıma basaraq söndürməklə mənə əzab verirdi.

Artıq Turalın verdiyi əzablara, məni döyərək xəsarət yetirmələrinə dözə bilmədim. Tələb etdim ki, məni valideynlərimin yanına aparsın".

**"Mütəmadi olaraq cinsi əlaqədə oldu"**

Səidə Əhmədovanın sözlərinə görə, Tural Hüseynov onu öz ata evinə aparıb: "Həmin vaxtdan valideynlərimlə birlikdə yaşayıram. Tural mənimlə ailə həyatı quran zaman, yəni toy gecəsi 14 yaşım olduğunu bilib. Ər-arvad münasibətlərində yaşadığımız müddətdə mənimlə mütəmadi cinsi əlaqədə olub. Birgə yaşadığımız evdə bir neçə dəfə qeyri-təbii yolla cinsi əlaqədə olub.

Odur ki, Turalın barəsində onun ittiham edildiyi sanksiyada nəzərdə tutulmuş yuxarı həddə cəza verilməsini istəyirəm".

Bu cinayət işinə Gəncənin Nizami rayon Məhkəməsində Zaur Hünmətovun sədrliyi ilə araşdırılıb.

Tural Hüseynov 1 il müddətinə azadlıqdan məhrum edilib.

# Azərbaycanda biznesin inkişafına pandemiya necə təsir edib? - SORĞU

***Ölkə iqtisadiyyatının davamlı və tarazlı inkişafının təmin edilməsi, regionların inkişafının sürətləndirilməsi ölkəmizin sosial-iqtisadi inkişafının hazırkı mərhələsinin prioritet vəzifələrindəndir və qəbul edilmiş məqsədli dövlət proqramları çərçivəsində uğurla yerinə yetirilməkdədir.***

Hazırda bu sahədəki siyasət sahibkarlığa dövlət himayəsinin sistem şəklində həyata keçirilməsinin, sahibkarlara dövlət dəstəyi tədbirlərinin səmərəsinin yüksəldilməsinin təmin edilməsinə yönəldilib.

Bu strateji xəttin reallaşdırılması istiqamətində Azərbaycanda hansı ardıcıl tədbirlər həyata keçirilir? Biznes sahələrinin inkişaf etdirilməsi üzrə 2019-cu və 2020-ci illər üzrə hansı fərqlər və dəyişikliklər var? Yeni ildə hansı yeni sahələr üzrə şirkətlərin yaradılması gözlənilir?

BiznesMedia məsələ ilə bağlı Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə (KOBİA) sorğu göndərib:

## 2020-ci ildə daha çox iş yerləri açılan sahələr

- Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2020-ci il ərzində statistik vahidlərin (fərdi sahibkarlar istisna olmaqla) sayı 6,3% artaraq 2021-ci il yanvarın 1-i 155435-ə çatıb. Hazırda ölkə üzrə kommersiya təşkilatlarının ümumi sayının 92,1%-ni mikro sahibkarlıq subyektləri təşkil edir və onların əsas hissəsi ticarət (32,1%), digər sahələrdə xidmətlərin göstərilməsi (15,8%), tikinti (10,3%) və kənd təsərrüfatı (8,1%) sahələrində yaradılıb.

2021-ci il yanvarın 1-i vəziyyətinə ölkə üzrə kommersiya təşkilatlarının ümumi sayının 5,3%-ni kiçik sahibkarlıq subyektləri təşkil edib və onların əsas hissəsi ticarət (29,4%), tikinti (12,6%), emal sənayesi (9,3%) və peşə, elmi və texniki fəaliyyət (7,3%) sahələrində yaradılıb.

Qeyd olunan dövrdə ölkə üzrə kommersiya təşkilatlarının ümumi sayının 2,1%-ni orta sahibkarlıq subyektləri təşkil edib və onların əsas hissəsi ticarət (25,5%), tikinti (16,3%), emal sənayesi (11,9%), nəqliyyat və anbar təsərrüfatı (5,6%) sahələrində yaradılıb.

İri sahibkarlıq subyektləri ümumi sayın 0,5%-ni təşkil edib və onların əsas hissəsi ticarət (18,3%), emal sənayesi (15,3%), tikinti (15,0%), nəqliyyat və anbar təsərrüfatı (6,8%) sahələrində yaradılıb.

2021-ci il yanvarın 1-i vəziyyətinə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün qeydiyyatdan keçmiş fərdi sahibkarların sayı 1 milyonu ötüb. Hesabat dövründə hər dörd fərdi sahibkardan üçü "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq", "Ticarət; nəqliyyat vasitələrinin təmiri", "Nəqliyyat və anbar təsərrüfatı" və "Digər sahələrdə xidmətlərin göstərilməsi" sahələri üzrə qeydiyyatdan keçiblər.

Ötən il KOBİA-ya yaradılmasına dəstək göstərilməsi üçün müraciət edən yeni sahələr üzrə şirkətlər

- 2020-ci ildə pandemiya səbəbindən iqtisadiyyatın bir çox sektorlarında mövcud biznes modellər, istehlakçı davranışları əhəmiyyətli dərəcədə dəyişib. Ötən il KOBİA-ya əsasən onlayn xidmətlər, çatdırılma xidmətləri, dezinfeksiya və tibbi ləvazimatların istehsalı, qida, tikinti materialları və içki istehsalı üzrə kiçik istehsal müəssisələrinin yaradılması və s. kimi sahələrdə biznesin qurulması üçün müraciətlər daxil olub. Agentlik səlahiyyətləri çərçivəsində qeyd edilən sahələrdə yeni biznes subyektlərinin yaradılmasına lazımi dövlət dəstəyi və xidmətləri təmin edib.

## 2020-ci ilin startapları - Edilən güzəştlər

- 2020-ci ildə də mikro, kiçik və orta biznes subyektlərinə bizneslərin genişləndirilməsi üçün dəstək və xidmətlər davam etdirilməklə yanaşı, startaplara və öz biznesini qurmaq istəyənlərə də KOBİA tərəfindən ödənişsiz olaraq müvafiq məsləhət, təlim-tədris, bazarlara və maliyyə resurslarına çıxış, potensial tərəfdaşların tapılması, dövlət müəssisələri və qurumları ilə əlaqələndirmə və digər istiqamətlərdə dəstək və xidmətlər göstərilib.



Belə ki, KOBİA-nın strukturuna daxil olan və ötən il fəaliyyətə başlamış dörd KOB İnkişaf Mərkəzi (Bakı, Sumqayıt, Xaçmaz və Yevlax şəhərləri üzrə) tərəfindən bir sıra startaplara müvafiq dəstək təmin edilib, biznes ideyaları mövcud maliyyə resurslarına yönləndirilib.

Ötən il KOBİA İslam İnkişaf Bankı ilə birlikdə Beynəlxalq Startap Yarışmasının Azərbaycan turunu keçirib. Azərbaycan üzrə milli seçim mərhələsinə mobil tətbiqlər, ağıllı cihazlar, onlayn xidmətlər kimi sahələrdə fəaliyyət göstərən 15 startap tərəfindən müxtəlif layihələr təqdim edilib. Münsiflər heyətinin qərarı ilə "W-ball" layihəsi Azərbaycan üzrə milli turun qalibi olub və ölkəmizi dünyanın 80 ölkəsindən startapların iştirak etdiyi Beynəlxalq Startap Yarışmasında təmsil edib.

Həmçinin, KOBİA-nın təşəbbüsü və iştirakı ilə "Startapın müəyyən olunması meyarları" hazırlanıb və Nazirlər Kabinetinin 29 yanvar 2021-ci il tarixli qərarı ilə təsdiq edilib. Startap şəhadətnaməsi bu sənədi əldə edən hüquqi və ya fiziki şəxslərə 3 il müddətində Azərbaycan Respublikasının Vergi Məcəlləsində nəzərdə tutulan bir sıra vergi güzəştləri verir.

## 2019-cu və 2020-ci illərin biznes mühiti müqayisədə

- 2019-cu ildə sürətlə inkişaf edən turizm və ictimai iaşə sektorları 2020-ci ildə pandemiyanın neqativ təsirlərinə məruz qalıb. Dövlət dəstəyi hesabına pandemiyanın bu sektorlara mənfi təsirinin qarşısı nisbətən alınsa da, ümumilikdə bu sektorların inkişafında geriləmə müşahidə edilib. Ötən il əsasən onlayn xidmətlər, tibb, dezinfeksiya və kimyəvi təmizləmə sahələri üzrə biznes sahələrinin yaradılması, eləcə də bizneslərin onlayn və elektron xidmətlərini inkişaf etdirmələri müşahidə olunub.

## COVID-19 və Biznes

- 2020-ci ildə qlobal pandemiya bütün dünyada olduğu kimi, Azərbaycan iqtisadiyyatına da təsirsiz ötüşməyib, vətəndaşların sağlamlığının qorunması məqsədilə tətbiq olunmuş məcburi məhdudlaşdırmalar biznesin müəyyən çətinliklərlə qarşılaşmasına səbəb olub. Qiymətləndirmələrə əsasən, pandemiya daha çox ictimai iaşə, xidmət, turizm, əyləncə, nəqliyyat və s. sahələrə neqativ təsir edib.

COVİD-19 pandemiyası bir sıra sektorlara mənfi təsir göstərməklə yanaşı, sahibkarlar üçün yeni biznes imkanları da açıb. Zərər çəkən biznes sahələri ilə yanaşı, pandemiya dövründə kənd təsərrüfatı, qida, tibbi ləvazimatlar və kimyəvi təmizləmə vasitələrinin istehsalı, logistika və onlayn xidmətlər kimi sektorlar daha çox önə çıxıb.

İlk gündən dövlət müxtəlif dəstək mexanizmləri ilə pandemiyadan zərər çəkən sahibkarların, xüsusilə də mikro və kiçik sahibkarların yanında olub. Pandemiyanın neqativ təsirlərinin minimallaşdırılması üçün Azərbaycan Respublikasının Prezidenti tərəfindən dövlət qurumları qarşısında ciddi vəzifələr qoyulub, iqtisadiyyata geniş dəstək paketini nəzərdə tutan proqramlar, biznesin qısa və orta müddətdə dəstəklənməsini əhatə edən sənədlər qəbul edilib. Həmçinin Azərbaycan Respublikası Prezidenti tərəfindən 19 mart 2020-ci il tarixli "Koronavirus pandemiyasının Azərbaycan iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncam imzalanıb. Pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən mikro sahibkarlara birbaşa maliyyə dəstəyi göstərilib, muzdlu işçilərə əmək haqqının bir hissəsi dövlət tərəfindən ödənilib, vergi güzəştləri və tətilləri, həmçinin yeni güzəştli kreditləşdirmə mexanizmləri işə salınıb. Pandemiyadan zərər çəkmiş sahibkarlara dövlət maliyyə dəstəyi və digər dəstək tədbirləri hazırda da davam etdirilir. Xüsusilə qeyd olunmalıdır ki, qəbul edilmiş dəstək proqramlarında biznesin qısa və orta müddətdə dəstəklənməsini nəzərdə tutan tədbirlər öz əksini tapıb, KOB sektorunun qorunması prioritet təşkil edərək diqqət mərkəzində saxlanılıb.

KOBİA da mövcud dövlət dəstəyi mexanizmləri və Agentliyin göstərdiyi dəstək və xidmətlərlə pandemiyadan zərər çəkən KOB-lara dəstək göstərib. Belə ki, pandemiyanın ölkədə biznesin inkişafına təsirini öyrənmək üçün KOBİA sahibkarlarla davamlı şəkildə təmasda olub. Müxtəlif sektorlardan olan sahibkarlarla üzbəüz və onlayn formatlarda sahəvi görüşlər təşkil edilib, sorğular keçirilərək sahibkarların çətinlikləri, gözlənti və təklifləri öyrənilib. Sorğularda sahibkarlar pandemiya nəticəsində alıcı və müştərilərinin sayının, əlavə işçi qüvvəsinə tələbin azaldığını, icarə haqqı, kredit, kommunal və digər xərclərin ödənilməsində çətinliklərini qeyd ediblər. Toplanılan informasiyalar aidiyyəti üzrə müvafiq qurumlara təqdim edilib. Bunlarla yanaşı, fərdi müraciətlərə individual yanaşma tətbiq olunmaqla hər bir sahibkarın pandemiyadan zərərinin minimuma endirilməsinə Agentlik səlahiyyətləri çərçivəsində dəstək olub.

## 2021-ci il biznesin inkişafına DƏSTƏK

- 2021-ci ildə KOBİA dövlətin prioritetlərinə uyğun olaraq işğaldan azad olunan ərazilərin iqtisadi imkanlarının reallaşdırılması üçün bu ərazilərə özəl investisiyaların cəlb edilməsi, dövlət-özəl tərəfdaşlığının inkişaf etdirilməsi və müxtəlif dövlət dəstəyi mexanizmlərindən istifadə etməklə bölgənin iqtisadi dəyər zəncirinə qoşulması istiqamətində dövlət tərəfindən həyata keçiriləcək tədbirlərə dəstək göstərəcək.

Pandemiyanın biznesə neqativ təsirlərinin azaldılması istiqamətində həyata keçiriləcək dövlət dəstəyi tədbirlərinə KOBİA tərəfindən ötən il olduğu kimi bu il də müvafiq dəstək davam etdiriləcək.

Həmçinin, KOB subyektlərinin rəqabət qabiliyyətinin daha da artırılması, onların ÜDM-də və məşğulluqda payının artırılması istiqamətində müvafiq tədbirlər 2021-ci ildə də davam etdiriləcək. Belə ki, Agentliyin strateji hədəflərindən irəli gələrək KOB-lara göstərilən dövlət xidmətlərinin yaxşılaşdırılması və vahid məkanda həyata keçirilməsi üçün KOB evlərinin əhatə dairəsi genişləndiriləcək. Yaxın günlərdə Yevlaxda KOB evinin fəaliyyətə başlaması nəzərə tutulur. 2021-ci ildə Şəki, eləcə də digər şəhər və rayonlarda KOB-ların biznesyönümlü təlimlərə, peşəkar məsləhət və şəbəkələşmə xidmətlərinə çıxışını təmin edən, bazara və mövcud maliyyə resurslarına çıxışına dəstək göstərən KOB inkişaf mərkəzləri fəaliyyətə başlayacaq. Bundan başqa, cari ildə KOB-lara yerində zəruri dəstək və xidmətləri təmin edən, sahibkarların çətinlikləri ilə yerində tanış olan və operativ həlli üçün hərtərəfli dəstək göstərən "KOB Dostu" şəbəkəsinin əhatə dairəsi genişləndiriləcək.

Eyni zamanda KOB-ların məhsullarının satışına və tanıdılmasına, yeni bazarlara çıxışına dəstək davam etdiriləcək, bu sahədə yeni onlayn platforma istifadəyə veriləcək. KOB-ların müraciətləri əsasında yeni məhsul və xidmətlərin yaradılması, rəqabətqabiliyyətli istehsalın stimullaşdırılması üçün daxili bazar araşdırmalarının aparılmasına dəstək davam etdiriləcək.

Həmçinin, yaxın günlərdə mikro, kiçik və orta sahibkarlığın inkişafı ilə əlaqədar təhsil, elm, tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsinə başlanılacaq, eləcə də sahibkar və menecerlərin beynəlxalq təcrübəni öyrənməsinə və işgüzar əlaqələrinin genişləndirilməsinə dəstək davam etdiriləcəkdir.

## İşğaldan azad edilmiş ərazilərdə biznes MÜRACİƏTLƏRİ

- Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin qətiyyəti, şanlı ordumuzun şücaəti və xalqımızın bir yumruq kimi birləşməsi sayəsində işğaldan azad olunmuş torpaqlarımızın böyük biznes və investisiya imkanları var.

Torpaqlarımızın işğaldan azad edilməsindən sonra bu ərazilərdə biznes qurmaq istəyən sahibkarlar KOBİA-ya müraciət edirlər. İşğaldan azad edilmiş ərazilərdə sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin həlli, eləcə də bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 24 noyabr 2020-ci il tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahının, eləcə də bu istiqamətdə veriləcək digər müvafiq qərarlara uyğun olaraq, KOBİA işğaldan azad edilmiş ərazilərdə biznes qurmaq və investisiya yatırmaq istəyən sahibkarlara informasiya, əlaqələndirmə, məsləhət və digər xidmətlər göstərəcəkdir.

***Nübar Lətifli***

# Qəhrəmanlıq dastanı yazanlardan biri... - Şəhid Elxan Ramazanov



Azərbaycanımızın igid ərənlərindən ibarət olan şanlı ordusu dünyanın ən nüfuzlu təşkilatlarının 30 ilə yaxın bir müddətdə həll edə bilmədiyi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini 44 gündə döyüş meydanında həll etdi. Bu azadlıq müharibəsini digər müharibələrdən fərqləndirən müsbət uğurlu cəhətləri ilə yadda qaldı. Vətən müharibəsi əsgərlərimizin igidliyi, qorxmazlığı, şücaəti, şəhadətə can atması, millətimizin eyni zamanda yumruq kimi birləşərək, hər vətənpərvər vətəndaşın orduya misli görünməmiş dəstək verməsi yaddaşlara köçdü. Qorxmaz, mərd, halallıqla böyüyən cəsur oğullarımızın bu fədakarlıqdan, yaralı halda döyüşçü yoldaşlarını, qanlı meydanlardan çıxaran xilas edən, hətta düşmənə əsir düşməmək üçün əvvəlcə düşməni, sonra isə özünü öldürən, silah çatışmayanda azğınlarla əlbəyaxa olmasından, bıçaqla hücum edən əsgərlərdən - zəfər çalan əsgərlərin igidliklərindən dünya hələ uzun müddət danışacaq, qibtə edəcəklər, örnək götürəcəklər...

Bəli, bu əsil müharibə idi, qanlı-qadalı müharibə... Şəhidlərimizdə oldu, qazilərimizdə... Sözsüz ki, bu böyük Qələbə sevincini bizə yaşadan belə qaziləri, şəhidləri, qəhrəmanları, ölməzliyə qovuşan belə igidləri təbliğ etmək, onları tanıtmaq hər birimizin müqəddəs borcudur...

Bu yazımda Sizi - bu Qarabağ Savaşında tarixi iz qoymuş, gənc yaşlarında Vətənimizin bütövlüyü uğrunda qəhrəmanlıqla həlak olan Zaqatala rayonu Danaçı kəndindən həqiqi hərbi xidmətə çağırılmış - Elxan Ramazan oğlu Ramazanovdan söhbət açacağam. Qəhrəmanımızın dünyaya göz açdığı Danaçı kəndi Zaqatala rayonunun ən böyük və avar xalqının nümayəndələrinin kompakt yaşadığı kəndidir. Kənd obalara bölünüb, hər obanın da öz adı var. Bu bağlı-bağatlı kənddən Birinci Qarabağ Savaşında olduğu kimi bu Vətən Müharibəsində də onlarla mərd oğullar erməni faşistlərinə, xainlərinə qarşı döyüşüblər. Hətta 27 sentyabr 2020 -ci il tarixində ermənilərin təxribatlarından sonra başlanan Müharibədə Danaçı kəndinin düşmənlərə göz dağı olmuş avarların onları qəbərtməkləri ilə yanaşı, düşməndən əsir götürüblər, zirehli texnikasını, çoxlu sayda silah-sursat ələ keçiriblər və onlarla erməni mövqelərini darmadağın ediblər.

Demək olar ki, müharibənin bütöv cəbhə xəttində avar döyüşçüləri şücaət göstəriblər. Müharibədə Danaçı kəndindən 2 nəfər şəhadətə qovuşub, 10 -dan yuxarı vətənpərvər isə ağır yaralanaraq qazi olublar... Düşmən üzərində qələbədə onların zəhməti az olmayıb. Şəhidlik zirvəsinə ucalan, Danaçılıların qürurla fəxr etdikləri - Elxan Ramazan oğlu Ramazanov və Ruslan Mohuma oğlu Nəbiyev kəndin "Həsənoba" adlanan obasındandırlar. Hər iki şəhid igidlərimiz Danaçı kənd 1 saylı tam orta məktəbinin məzunlarıdırlar. Rayonun ən qabaqcıl təhsil ocağının təcrübəli kollektivi məktəbliləri vətənpərvərlik ruhunun aşılanmasında böyük zəhmət sərf edirlər. Həmin məktəbin direktoru Əsəbəli Nəbiyevlə şəhid ailələrinə baş çəkməzdən əvvəl bildirdi ki, rəhbərlik etdiyi məktəbdə tez-tez Birinci və İkinci Qarabağ Savaşları, ermənilərin törətdikləri vəhşilikləri, "Xocalı Soyqırımı", Azərbaycan torpaqlarının bədnam qonşular tərəfindən necə işğal olunmaları, onların təxribatları barədə tarixi faktlarla müzakirələr aparırlar və tədbirlər keçirirlər.

Direktor qeyd etdi ki, məktəbdə Vətən oğullarının qəhrəmanlıqları, şücaətləri, müharibədə iştirak edən kəndin gəncləri və şəhidləri barədə məktəbliləri məlumatlandıran güşələr yaradılıb. Məktəbin pedaqoji və məktəbli kollektivi şəhid ailələrini və onların qəbirlərini ziyarət edirlər. Əsəbəli müəllim bildirdi ki, Birinci Qarabağ Savaşında məktəbin iki və bu Vətən Müharibəsində də 2 nəfər şəhid olublar.

Direktorun sözlərinə görə, İkinci Vətən Müharibəsində Danaçı kəndindən olan ilk şəhid - Elxan Ramazan oğlu Ramazanov məktəbin fəxri, fəallığı ilə seçilən, nümunəvi, əlaçı şagirdi olub. Əsəbəli müəllim deyir ki, elimizin qəhrəman oğlu Elxan məktəbdə keçirilən bütün tədbirlərdə, fənn, idman yarışlarında xüsusilə seçilərdi və o, əvəz olunmaz gənc idi.

"Məktəbimizin pedaqoji kollektivi onun gələcəkdə, savadlı, güclü mütəxəssis olmağına inanırdılar... Lakin, bizim istəkli, tərbiyəli, öncül şagirdimiz Elxan Ramazanov 9 -cu sinifi əla qiymətlərlə bitirib, Azərbaycan Texniki Universitetinin Bakı Texniki Kollecinə qəbul oldu. Müharibə başlayanda isə o, artıq Azərbaycan Silahlı Qüvvələrində xidmət edirdi Elxan. Sonra isə... Taleyinə, qismətinə bir baxın?... Biz onun işıqlı gələcəyini görürdük... Amma, Elxan başqa bir yol seçdi... Bu yolda zirvəyə gedir, ancaq bu yolda təkcə cəsurlar gedirlər, Elxan kimi..." deyir, Əsəbəli müəllim... Ani məqamda bu təcrübəli, ziyalı doluxsunur: "Heyf, səndən Elxan, ar olsun, sənə qıyan namərd düşmənə, bu müharibədə sənin kimi neçə-neçə gələcəyimizin qurucusunu itirdik..." - deyə direktor, dodaq altı pıçıldadı...

...Hər dəfə şəhid ailəsinə baş çəkəndə əbədiyyətə qovuşan, sayseçmə igidlərimizin yaxınlarına, oğullarını vaxtsız itirmiş, qara libaslarını əyinlərindən çıxartmayan, ümidləri kəsilməmiş analara, oğul itkisini ürəklərinə qaysaq etmiş atalara, keçmiş xatirələri yaşadan qardaşlara, hələ də həsrətlə gözlərini yoldan çəkməyən bacılara, acı həqiqətlərə inanmayan əzizlərinə təsəlli verməyə söz tapmırıq. Hələ hər səhər şəhid məzarlarına al güllər düzən, ürəklərində sevgi və məhəbbət saxlayan o, gözəlləri demirik...

Zaqatala rayonunun Danaçı kəndi "Həsənoba"-da yaşamış, şəhid - Elxan Ramazan oğlu Ramazanovun ailəsi ilə elə məktəbin direktoru Əsəbəli Nəbiyevlə birlikdə görüşdük...

...Vətən fədaisinin atası ilə onun işi ilə əlaqədar görüşə bilməsək də, anası Nigar xanım və qardaşı Abdulla Elxanın keçdiyi qısa lakin, şərəfli ömür yolunu bizə xatırlatdılar, onun haqqında xatirələrini söylədilər... Öyrəndik ki, Elxan ailənin son beşiyi olub. Ramazanovlar ailəsinin böyük övladı olan 1993 -cü il təvəllüdlü qız övladları artıq ailə həyatı qurub. Şəhid bacısının 2 övladı, 1 qızı və 1 oğlu var. 1977 -ci il təvəllüdlü Abdulla isə subaydır və Elxan həqiqi hərbi xidmətini başa vurduqdan sonra qız nişanlanmalı imiş...

Azərbaycanımızın torpaqlarının düşmənlərdən azad edilməsi uğrunda gedən döyüşlərin birində canını fəda vermiş, o zirvəyə ucalmış və Danaçı kəndinin bu ölüm - dirim, mürəkkəb müharibədə ilk şəhidi olmuş Elxan Ramazanov isə 25 yanvar 2000 -ci il tarixində isə dünyaya göz açıb. Sağ qalsaydı 21 yaşını tamamlamışdı onun... Anası Nigar xanım deyir ki, oğlu çox sakit təbiətli, ürəyi yumşaq, dərslərə ciddi hazırlaşan, uşaqlıqdan təsərrüfat işlərində onlara kömək edən, məktəbdə əla qiymətlərlə oxuyan və hamının sevimlisi olan şəhid balası Texniki fənləri çox sevirdi. Arzusu Kompyuter Texnologiyası üzrə mütəxəssis olmaq idi...

...Onun qəlbi qurub-yaratmaq eşqi ilə döyünürdü, arzuları çox-çox idi. Yaşıdları arasında sevib-seçilərdi. Hər bir işi məsləhətli görərdi. Kiminsə xətrinə dəyməzdi. Oğlum yaşadığımız "Həsənoba"da yaşlı nəslin nümayəndələrinə daima kömək edərdi. O, 2016 -cı ildə aprel döyüşləri zamanı qardaşı Abdulladan nigaran qalmışdı. Tez-tez təkrarlayaraq deyərdi ki, "bu erməni dığalarının, daşnaklarının başları vaxtında əzilməlidir ki, sonralar yenidən başlarını yuvadan çıxaraarlar, yenidən təxribatlar, faciələr törədərlər, bu faşist xislətlilər, bədnamlar..." Şükür Allaha ki, oğlum aprel döyüşlərində fədakarlıq göstərən, neçə-neçə düşmənin başını əzərək, sağ-salamat hərbi borcunu yerinə yetirdi... Elxan isə 27 sentyabr 2020 -ci il tarixdə başlanan daha böyük döyüş əməliyyatlarında iştirak etdi... amma..." - söylədi - Danaçının fəxri, Elxanın anası - Nigar xanım...

Və bildirdi ki, oğlu Bakı Texniki Kollecini bitidrikdən sonra (o, kolleci bitirməsi haqqında diplom almamışdı. E.M.), yəni 2019 -cu il iyul ayında Azrbaycan Respublikasının Hərbi Silahlı Qüvvələrində həqiqi hərbi xidmətə başlamışdı. Ailə üzvülərinin bildirdiklərinə görə Elxan hərbi xidmətinin ilkin 3 ayını Müdafiə Nazirliyinin Goranboy rayonundakı "N" saylı hərbi hissəsində xidmət keçmişdir. And içmədən sonra Zaqatala torpağının mərd, avar oğlu cəbhənin ön təmas xəttində düşmənlə üzbə-üz mövqelərdə düşməndən torpaqlarımızı qorumuş və dəfələrlə ermənilərin təxribatının qarşısını almışdı. Hər bir xidmətdə olduğu dövrdə 3 dəfə oğlu ilə görüşdüklərini söyləyən Nigar xanım bildirdi ki, Elxan Ramazanov "Ballı Qaya"-dan sonra 3-4 ay Ağdam rayonunun ərazisində hərbi xidmətini davam etdirməklə yanaşı, hərbi təlimlərdə iştirak etmişdilər. Sonradan xəbər tutublar ki, müharibə başlayanda oğlumun atıcı taboru Tərtər rayonunun Qapanlı kəndində olublar.

Aprel döyüşlərinin fəal iştirakçısı Abdulla isə söylədi ki, atıcı minamyotçu olan qardaşı Elxan döyüşçü yoldaşları ilə birlikdə Cəbrayıl, Füzuli, Suqovuşanın azad olunmasında iştirak etdikdən sonra Ağdam və Ağdərə uğrunda gedən döyüşlərə qoşulublar. Eyni zamanda düşmənə sarsıdıcı zərbələr edirən döyüşçülərimiz yəni, Elxan Ramazanovun xidmət etdiyi həmin ərazidə bir sıra uğurlu əməliyyatlar keçiriblər. Həmin vaxtlar demək olar ki, cəbhənin bütün ərazisində qızğın döyüşlər gedirdi, hərbiçilərimiz ermənilərin həmlələri dəf etdikcə, düşmən azğınlaşırdı...

Amma Şanlı Odrumuzun hər bir əsgəri zabiti torpaqlarımızı azad etmək üçün xain qonşuları darmadağın edə-edə irəliləyirdilər. Düzdü, bu döyüşlərdə Azərbaycanımızın cəsur oğullarımızdan can verənlər, yaralananlar da az deyildi, ancaq digər döyüşçülərimiz ruhdan düşmür, düşmənə nifrət hissi və qisas hissi ilə daha düclənidrilər... günlərlə ac və susuz qalmalarına baxmayaraq döyüş meydanındalarında - igidlərimiz yeni şanlı Zəfər tariximizi yazdılar - Elxan kimi cəsur oğullarımız... Oktyabrın 4 -də Ağdərə istiqamətində qızğın döyüşlər gedirdi, erməni faşistləri hərbiçilərimizin mövqelərini mərmi yağışına tutmuşdular, minamyotçularımız düşməni susdurmağa çalışırdılar... Elxangilin taboru kəşfiyyatçılarımızın müəyyənləşdikləri mövqelərə od ələyirdilər. Həmin gün günorta saatlarında düşmən artilleriya qurğusundan atılan mərmiləri Elxanın lap yaxınlığına, yəni 10-15 metrliyinə düşərək partladı. Və, Elxan həmin döyüşdə ağır yaralandı, başından, gözümdən, ayaqlarından ağır dərəcəli qəlpə yaraları alıb. Döyüşçü yoldaşları əvvəlcə Elxanı Ağcabədidəki hərbi hospitala yola salıblar...

Nigar xanım yenə də, sakitcə, kədərlə həmin anları xatırlatdı:

"Oğlum azğınlarla müharibəyə başlayandan sonra Tərtərdə olanda 2 dəfə bizimlə telefonla danışmışdı: "Nigaran qalma Ana, ata, bacı, əzizlərim tezliklə düşmən üzərində qələbə qazanıb, xoş müjdələr eşidəcəksiniz, Vətənimizin azadlığı uğrunda döyüşmək özü böyük şərəfdir..." demişdir. Lakin, oktyabrın 12 -də...

Respublika Hərbi Mərkəzi Hərbi Hospitalının həkimi zəng vuraraq bildirdi ki, oğlum Elxanın üzərində 2 dəfə cərrahiyyə əməliyyatı aparılıb və üçüncü əməliyyata hazırlaşırlar. Bizə məlum oldu ki, oğlum Ağcabədi rayonundakı hərbi hospitalından vəziyyəti ağır olduğu üçün 1 həftədən sonra Bakı şəhərindəki Mərkəzi Hərbi Hospitala köçürülüb. Oğlumun vəziyyəti çox ağır olduğu üçün, əməliyyatlar aparmaq üçün Türkiyədən xüsusi təcrübəli həkimlər dəvət olunublar. Həkimlərin bildirdiklərinə görə Elxan 3 -cü dəfə cərrahiyyə əməliyyatı olunmalıdır və buna hazırlıqlar gedir. Türkiyəli həkimlərin rəyinə görə, oğlumun cərahiyyə əməliyyatının təxirə salınması məsləhət görülmüşdür. Çünki, Elxan çoxlu qan itirdiyindən fiziki cəhətdən xeyli zəifləmişdi... Onun yaşamasına ümidləri az idi...

Həkimlərin səylərinə baxmayaraq, Elxan Ramazan oğlu Ramazanov aldığı qəlpə yaralarından hospitalda dünyasını dəyişdi... Vətən yolunda - şəhadətə qovuşdu. 22 oktyabr 2020 -ci il tarixdə...

Qeyd edək ki, Elxanın atası Ramazan kişi, həyat yoldaşı Nigar Danaçı kəndində böyük hörmət sahibdirlər. Qardaşı Abdulla isə Rusiya Federasiyasında çalışırdı...

23 oktyabr 2020 -ci il tarixində torpaqlarımızın azadlığı uğrunda döyüş meydanında ağır yaralanaraq, hospitallarda yaşamaq eşqi ilə mübarizə apararaq, cəmi 21 yaşında ömrünün bahar çağında əbədiyətə qovuşan - Elxan Ramazanov, elliklə, böyük hörmət və izzətlə torpağa tapşırıldı. Bütöv Azərbaycanımızın doğulub, boya-başa çatdığı Danaçı kəndinin fəxri, qəhrəmanı kimi... Ruhun şad olsun el qəhrəmanı!

Prezidentin sərəncamı ilə Elxan Ramazan oğlu Ramazanov "Vətən uğrunda" medal ilə təltif olunub...

...Bu gün təkcə mən yox, bütün Azərbaycan, Nigar ana, sənin oğlunun hünərindən danışır, igidliyindən yazırlar, bitməz - tükənməz Sizlərin qəhrəmanlıqlarından. Çünki, elə bir şücaət göstərmisiniz ki, qəhrəmanlıq dastanı yaratmısınız ki, onu yazmaqla, danışmaqla bitməz, bitməyəcək də.

Sizin igidliyinizə, şanınıza yaraşan sözlər də, bu Vətənin - Odlar yurdumuzun ər, qəhrəman oğulları da...

Danaçı kənd sakinləri, Daxili Qoşunların zabiti Xalid və Sərhəd Qoşunlarının zabiti Kamal Mustafayev qardaşları Danaçı kəndində olan şəhidlər Elxan Ramazan oğlu Ramazanovun və Ruslan Mohuma oğlu Nəbiyevin əziz xatirəsinə "Həsənoba" öz hesablarına "Xatirə Bulağı" kompeksi inşa ediblər.

***Elman Maliyev***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# Üçüncü dalğanın sahibi mutant virus daha çox uşaqları yoluxduracaq- Pediatrdan AÇIQLAMA

***Bakıda bir modul xəstəxanasında uşaqlar üçün çarpayıların yerləşdirilməsi və xüsusi hazırlıq valideynlər arasında panika yaradıb və onlar qorxu içində övladlarını məktəb və bağçalar açılsa da göndərmək istəmir.***



Bəzi məsələlərə Təbib aydınlıq gətirsə də, həkimlər hələ nə olacağını tam dəqiq bilmədiyindən, istənilən vəziyyətə hazır olmağın vacibliyini vurğulayır.

Medicina.az xəbər verir ki, petiatr həkim Aytən İsmayılzadə öz araşdırmasına görə yayılmış səs yazısı ilə bağlı açıqlama verib.

” Bəli, bu doğrudur ki, bəzi modul tipli xəstəxanalarda uşaqlar uçun çarpayılar hazırlanır. Amma bu FHN modul tipli xəstəxanası (Zığ modul) üçün deyilib. Amma bu arada bir məqamı deyim ki, onsuz da bu gunə kimi uşaqlar uçun xəstəxanalarımız olub. Sadəcə məhz bu modul bir az da uşaq pasiyentlərdən qazanmaq uçun yerlər hazırlayır. Yəni bu məqam sizi təşvişə salmasın.

O da doğrudur ki, üçüncü dalğanın sahibi mutant virus uşaqları yoluxdurmaq uçun xüsusi reseptora ehtiyac duymayacaq və daha çox uşaqları yoluxduracaq. Artıq Böyuk Britaniyada bu hallar var, amma uşaqlar arsında ağırlaşma halları qeydə alınmamışdır. Ona görə hələ ki qorxu ilə özumuzu yükləməyək. Niyə hazırlıq görulur? Çunki heç nə öncədən proqnoz edilə bilinmir.

Ölkəmizdə yeni ştamm varmı? Bəlkə də var. Onu olmasını bilmək uçin gərək hər xəstə uşaq test edilsin. Amma edilmir. Çunki zatən bilsək belə edəcəyimiz nəsə yoxdur. Hələ ki uşaqlar xəstələnsə də sağalır. Həmişə olduğu kimi KRVİ diaqnozu ilə mualicə edirik, orqanizmə dəstək oluruq, ağırlaşıb ağırlaşmayacağına nəzarət edirik. Yeni ştam uşaqlardan bpyuklərə keçə biləcək deyə uşaü muəssisələri bağlanacaq. İndilik məsləhətim budur ki, böyuklər peyvənd olunsunlar. Bəlkə peyvənd yeni ştamma qarşı effektiv olar və boyuklər uşaqları yoluxdurmaz.

Uşaqlar hələ ki məktəbə getsinlər, bir az dəyişiklik olar onlar üçün. Onsuz da vəziyyət ciddiləşsə yenidən evdə qalacaqlar. Vəziyyət isə onlar məjtəbə gedəcəyinə görə ciddiləşməyəcək. Bu, virusun aqressivliyinə bağlı olacaq. Yoxsa sadə virus kimo də ötüşüb keçə bilər.

- Uşaqları indidən muxtəlif vitaminlərlə yükləməyin. Bunun heç bir mənası da yoxdur. Ola bilər ki, uşaqları yoluxduran kovid özunu Rotavirusdan ( qusma-ishal) artıq formada aparmaz. Belə olduqda təhlukə də olmayacaq.

- Məni narahat edən və valideynləri də narahat etməli olan bir məqam da uşaqların umumiyyetle peyvəndsiz qalmasıdır. Qızılca, Göyöskurək, Poliomielit kimi bildiyiniz ağır keçə bilən xəstəliklərin peyvəndini etməyi ləngitməyin. Əsas onların təhlukəsi boyukdur. Dəqiq bildiyimiz budur. Kovid isə yeni hansı sürprizlə gələcək, onu dəqiq bilmirik”.

# Dünya ölkələrinin intihar reytinqi - Azərbaycan neçənci yerdədir?

***İntiharların sayına görə statistik məlumatlara əsasən Dünya Səhiyyə Təşkilatı dünya ölkələrinin statistikasını hazırlayır. Bir neçə müddətdən bir bu siyahı yenilənir.***



Medicina.az rəsmi araşdırmalara görə ÜST-ün İntihar hadisəsi çox olan ölkələrin siyahısını təqdim edir.

Statistika il ərzində hər 100 min nəfər əhaliyə düşən intihardan ölüm sayına əsasən hesablanır.

Bununla da həmin ölkə və regionda əhalinin ümumi sosial psixoloji vəziyyəti aydın olur.

Hazırda ÜST intiharları dünya üçün qlobal problem kimi qəbul edir.

Son 50 ildə intihar sayı bütün dünyada 60% artıb. Bir çox ölkələrdə, məsələn Rusiyada özünə qəsddən ölüm 15-45 yaş arası insanlar arasında ölüm səbəbləri içərisində 3-cü yeri tutur.

2018-ci il statistikasına görə dünyada ən çox intihar hadisələri baş verən ölkələrin ilk onluğu belədir:

1. Qenlandiya - 82%
2. Qayana - Cənubi Afrikada - 30%
3. Lesoto - 28%
4. Rusiya - 26%
5. Litva - 25%
6. Surinam - 23%
7. Kot-d-İvuar - 23%
8. Qazaxıstan - 22%
9. Qvineya - 22%
10. Belarus - 21%

İnsanlar arasında yayılmış bir fikrə görə yaponlar hamıdan daha çox intihara meyillidir. Göründüyü kimi Yaponiya birinci yerdə yox, 31-ci yerdədir.

Bizə yaxın Türkiyə 118-ci yerdə, Azərbaycan 176-cı yerdədir.

Azərbaycanda ümumi əhalinin 2,5 faizi intiharlardan vəfat edir.

Nəzərə alsaq ki, bu statistika pandemiyadan əvvəl hazırlanıb.

Təəssüflə hesab edirik ki, növbəti 4 ilin hesabatında Azərbaycan irəliyəyəcək. Çünki son 2 ildə ölkədə intihar hadisələri çoxalıb.

# Soyuq qışda xəstələnməmək üçün 7 FƏRQLİ MƏSLƏHƏT

***Soyuq, qarlı havada bədən və beyin tamam fərqli iş mexanizminə keçir. Əzələlər gərginləşir, qan damarları sıxılır, orqanlar istiliyi daxildə saxlamaq istəyir. Beyində bədbin fikirlər artır, insan depressiyaya düşür. Üstəlik soyuqdan xəstəliklər.***

Medicina.az-ın verəcəyi 7 tövsiyəyə əməl edərək soyuq fəslə tab gətirə bilərsiniz:

**Yaxşıca yatın**

Yuxu rejimi və keyfiyyətli yuxu gün boyu daha enerjili olmaq üçün çox əhəmiyyətlidir. Axşam tez yuxuya gedə bilmirsinizsə, o zaman bunun səbəblərini axtarın. Məsələn: çox gec saatda qəhvə içmək sizin yuxuya getməyinizə mane ola bilər. Gec saatda yemək yemək də rahat yatmağa mane olan amillərdəndir.

**Qamətinizə diqqət edin!**

Gündəlik iş rejimi və qaçaqaç insanın qamətinə təsir edir. Araşdırmalara görə, insanın qamətinin gözəl olması, onu sağlamlığından əlavə, psixoloji vəziyyəti üçün də son dərəcə faydalıdır. Hər zaman başınızı və çiyinlərinizi dik tutun. Beləliklə də daha pozitiv və xoşbəxt bir qış keçirə bilərsiniz.

**Telefona fasilə verin**

Müasir zamanda bir çoxları hər anın fotosunu çəkərək sosial şəbəkədə paylaşmaq istəyir. Bunu edərkən təəssüf ki, yoldaşları və ya ailə üzvləri ilə keçirdiyi vaxtdan ləzzət ala bilmir. Xoşbəxt anların dadını çıxarmaq üçün telefonu bir kənara qoyun. Bir müddət telefondan uzaq olmaqla heç nə itirməzsiniz.

**Sizi bədbəxt edən münasibətləri bitirin**

Münasibətinizdəki bədbinlik özünüzə inama zərər verir. Sizi bədbəxt edən şəxslərə görə daha narahat və qeyri-müəyyən əhval-ruhiyyəyə köklənirsiniz. Sizə və fikirlərinizə dəyər verən və sizi xoşbəxt edən insanlarla birlikdə olmağa çalışın.

**Hərəkət edin və sağlam qidalanın**

Araşdırmalara görə, həftədə, ən az 3 dəfə idman etmək depressiyaya düşmək riskini azaldır. Gündəlik həyatınızdakı hərəkətliliyinizi artırın və daha aktiv olun. Sağlam və xoşbəxtlik hormonlarını artıran qidalardan istifadə edin. Bol-bol su için. Bütün bu sadalananları edərək sağlam və rahat bir qış keçirə bilərsiniz.



**Özünüzə vaxt ayırın**

Bütün gün dostlarınızla, ailənizlə vaxt keçirdiyinizdən özünüz yaddan çıxa bilərsiniz. Bir müddət tək qalın və nə etmək istədiyinizi düşünün.

**Edəcəyiniz işləri qabaqcadan planlaşdırın**

Özünüz üçün həyata keçirməli olduğunuz işlərin siyahısını hazırlayın. Planlı olmaq sizin motivasiyanızı artıracaq. Bu isə problemlərin içərisində çaş-baş qalmağınıza və ruhdan düşməyinizə imkan verməyəcək. Beləliklə də qışdan daha rahat və xoşbəxt halda çıxa biləcəksiniz.

# Peyvəndləmə üzrə lider ölkələr - SİYAHI

***Koronavirusla mübarizənin ən önəmli mərhələsi olaraq bilinən peyvəndlənməyə gəldik. Peyvənd bu “müharibə”nin ən böyük silahı olaraq bilinir. Dünya üzərinə qara bulud kimi çökən koronavirusdan qurtulmaq üçün ölkələr bir-bir vaksinasiyaya başladı. Dünyada milyonlarla insan peyvəndlə tanış olarkən ən çox vaksin edən ölkələr də bəlli oldu.***

20 ölkənin olduğu həmin siyahını təqdim edirik:

ABŞ: 50 milyon 103 min 604 nəfər
ÇİN: 40 milyon 500 min nəfər
İNGİLTƏRƏ: 18 milyon 348 min 165 nəfər
HİNDİSTAN: 11 milyon 424 min 94 nəfər
TÜRKİYƏ: 7 milyon 447 min 674 nəfər
BRAZİLİYA: 7 milyon 80 min 711 nəfər
İSRAİL: 6 milyon 758 min 861 nəfər
BƏƏ: 5 milyom 557 min 793 nəfər
ALMANİYA: 5 milyon 68 min 829 nəfər
FRANSA: 3 milyon 726 min 513 nəfər
İTALİYA: 3 milyon 537 min 975 nəfər
İSPANİYA: 3 milyon 90 min 351 nəfər
ÇİLİ: 2 milyon 924 min 279 nəfər
POLŞA: 2 milyon 715 min 159 nəfər
MƏRAKEŞ: 2 milyon 575 min 684 nəfər
BANQLADEŞ: 2 milyon 308 min 157 nəfər
RUSİYA: 2 milyon 200 min nəfər
İNDONEZİYA: 2 milyon 9 min 120 nəfər
KANADA: 1 milyon 522 min 811 nəfər
RUMINİYA: 1 milyon 409 min 87 nəfər




# Qarabağ Dirçəliş Fonduna vəsait köçürmə imkanı

***Azərbaycan Respublikası Prezidentinin 4 yanvar 2021-ci il tarixli Fərmanına uyğun olaraq, "Qarabağ Dirçəliş Fondu" dövlət qeydiyyatına alındıqdan sonra ianələrin köçürülməsi üçün Fondun xüsusi bank hesabları yaradılıb.***

Bu gündən etibarən Fondun hesabına vəsait köçürülməsi yeni bank rekvizitləri vasitəsilə həyata keçiriləcək. İanələr Azərbaycan manatı və ya xarici valyutada köçürülə bilər. Vətəndaşlar Fonda köçürmələrini Azərbaycan Beynəlxalq Bankının bütün filial və şöbələrində bu rekvizitlərlə, yaxud Bankın internet səhifəsində yaradılmış xüsusi bölmədən onlayn qaydada həyata keçirə bilərlər.

Qeyd edək ki, Fond dövlət qeydiyyatına alınanadək fiziki və hüquqi şəxslərin ianələri və qrantlar Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən yaradılmış xüsusi xəzinə və müvəqqəti bank hesablarında toplanırdı.

"Qarabağ Dirçəliş Fondu" Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və yenidən qurulması, dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyinin göstərilməsi və sərmayələrin cəlb edilməsini, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişaf etdirilməsini, habelə ölkə daxilində və ölkə xaricində zəruri təşviqat işlərini həyata keçirən publik hüquqi şəxsdir.

Müasir dövlət bankı olan Azərbaycan Beynəlxalq Bankının universal və faydalı məhsul və xidmətləri ilə bağlı ətraflı məlumatı bankın filial və şöbələrindən, www.ibar.az internet səhifəsindən, 937 nömrəli Məlumat Mərkəzindən, həmçinin rəsmi "Facebook" səhifəsindən əldə etmək olar.

# Azərbaycanda peyvənd vurulanların sayı AÇIQLANDI

***"Azərbaycanda COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Peyvəndləmə Strategiyası"na uyğun olaraq ölkə üzrə peyvəndlənmə prosesi mərhələli şəkildə davam edir. Strategiyaya əsasən hazırkı mərhələdə 50 yaş və daha yuxarı şəxslər peyvəndlənir. Fevral ayının 23-ü üçün 200 mindən artıq vətəndaş COVID-19 xəstəliyinə qarşı peyvəndedilib.***

Bu barədə "Unikal"a Səhiyyə Nazirliyindən bildirilib. Nazirlik vətəndaşları peyvəndləmə prosesində aktiv iştirak etməyə çağırıb: "Xüsusən yaşı 50-dən yuxarı olan şəkərli diabet xəstələrini COVID-19 virusuna qarşı peyvəndlənməyə dəvət edirik.

Xatırladaq ki, 50 yaş və daha yuxarı şəxslər https://randevu.its.gov.az/ saytına daxil olaraq, "COVID-19 vaksin randevu" elektron xidmətindən istifadə etməklə koronavirus xəstəliyi əleyhinə peyvənd üçün onlayn qaydada növbə götürməlidir. Elektron xidmət vasitəsilə qeydiyyatdan keçməkdə çətinlik çəkən şəxslər ərazi üzrə poliklinikaya zəng edərək qeydiyyatçıya kimliyi barədə məlumat verməlidir. Bu zaman qeydiyyatçı həmin şəxs üçün sözügedən elektron xidmət vasitəsilə onlayn növbənin götürülməsini təmin edir".

# Şəhid oğulların şərəfli ömrü

***44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun Zəfərindən sonra 3 nəfər hərbi qulluqçuya "Azərbaycanın Milli Qəhrəmanı"; 83 nəfərə "Vətən Müharibəsi Qəhrəmanı" adları verildi.***

33 nəfər hərbi qulluqçu "Zəfər"; 204 nəfər "Qarabağ"; 288 nəfər "Azərbaycan Bayrağı"; 105 nəfər 3-cü dərəcəli "Rəşadət"; 3 nəfər 1-ci dərəcəli "Vətənə xidmətə görə"; 9 nəfər 2-ci dərəcəli "Vətənə xidmətə görə"; 331 nəfər 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenləri ilə təltif olundu.

622 nəfər hərbi qulluqçu "I?gidliyə görə"; 1113 nəfər "Döyüs?də fərqlənməyə görə"; 3598 nəfər "Vətən uğrunda"; 5448 nəfər "Cəsur döyüşçü" medallarına layiq görüldü.

Onların arasında, hərbçilər yurdu adlanan, ümumən 22 şəhid verən Quba rayon Alpan kəndinin də 4 nəfər şəhidi var: kapitan Məlikov Aqil Niyaz oğlu, gizir Balayev Orxan Vidadi oğlu, əsgər Emin Ramin oğlu Səttarov "Vətən uğrunda" və MAXİ əsgər Murtuzov Mehdi Muxtar oğlu isə "İgidliyə görə" və "Vətən uğrunda" medallarına layiq görülüb. Onların - Zəfərimizdə payı olan igid şəhidlərimizdən üçünün qısa ömürnaməsi ilə tanış olun:

"Vətən uğrunda" və "Fizulinin azad olunmasına görə" medalı ilə təltif edilmiş şəhid kapitan Məlikov Aqil




Niyaz oğlu 6 aprel 1986-cı ildə Quba rayonun Alpan kəndində anadan olmuşdur. O, 2004-cü ildə Alpan kənd orta məktəbində 10 illik təhsilini başa vurmuş, bir il sonra isə Ali Hərbi Akademiyaya qəbul olunub və 2009-cu ildə oranı yüksək göstəricilərlə bitirmişdir. Bir il Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzində çalışdığdan sonra, 2010-cu ildən 1 il 8 ay müddətində Şəki rayonun Şorsu kəndindəki Hərbi Hissədə tağım komandiri vəzifəsini icra etmişdir. Bundan sonra isə onu Tərtər rayonundakı Hərbi Hissədə əvvəlcə tağım komandiri, ardınca bölük komandiri vəzifələrinə təyin edirlər. Tərtərdə 1 il 2 ay xidmət etdikdən sonra Goranboy rayonun Ağcakənd qəsəbəsində yerləşən hərbi hissədəki bölüklərdən birinə komandir təyin olunur. 2 ilə yaxın orada xidmət edən Aqil, 2015-ci ildən Gəncədə yerləşən Hərbi Hissədə bölük komandiri kimi xidmətini davam etdirir. 2016-cı ildə Ağdamda yerləşən Hərbi Hissənin RMTO bölük komandiri təyin edilən baş leytenant aprel döyüşlərinin də iştirakçısı olmuşdur. Həmin ilin sonunda Aqili Bakıda, Müşviq qəsəbəsində yerləşən Hərbi Hissəyə RMTO bölük komandiri vəzifəsinə göndərirlər. Bir müddət orada xidmət etdikdən sonra raport yazaraq öz xahişi ilə ön cəbhəyə, Ağcəbədi rayonunda yerləşən hərbi hissələrdən birinə yollanmışdır.




Daha sonra Beyləqan rayonunun Harami düzündəki hərbi hissəyə tabor komandirinin müavini təyin edilmiş və ona kapitan rütbəsi verilmişdir. Aqil xidmət etdiyi 11 il ərzində bir neçə dəfə medallarla təltif edilmişdi. O, Müdafiə Naziri Zakir Həsənov tərəfindən də şəxsən hədiyyə ilə mükafatlandırılıb. A.Məlikov 07.07.2010-cu ildə ailə həyatı qurmuşdur, onun 9 yaşlı qızı və 5 yaşlı oğlu var. Zəfərlə sona çatan 44 günlük Vətən müharibəsinin ilk günlərində Fizuli rayonunun Qaraxanbəyli kəndi uğrunda gedən döyüşdə şəhid olmuş, sentyabr ayının 30-da doğma Alpan kəndinin məzarlığında dəfn edilmişdir.

"Vətən uğrunda" və "İgidliyə görə" medalları ilə təltif edilən şəhid MAXE əsgər Murtuzov Mehdi Muxtar oğlu 1997-ci il iyul ayının 10-da Quba rayonun Alpan kəndində anadan olmuşdur. O, 2003-cü ildə Alpan kənd şəhid Elşad Bayramov adına tam orta məktəbinin 1-ci sinifinə, 2012-ci ildə Quba rayon 103 saylı Peşə Litseyinin Rabitəçi Elektrik ixtisasına qıbul olunmuş, 2015-ci ildə peşə təhsilini başa vurduğdan sonra həmin il iyul ayının 10-da, doğum günündə hərbi xidmətə çağırılmışdır. Mehdi Daşkəsən rayonunda yerləşən hərbi hissədə xidmətə başlamış, şimal cəbhəsində Aprel döyüşlərinin iştirakçısı olmuş, bir neçə dəfə qüsursuz və nümunəvi xidmətinə görə təltif edilmişdir. 2017-ci ilin yanvarında hərbi xidmətini başa vuraraq orduda tərxis olunan Mehdi, 2020-ci ilin yanvar ayında yenidən xidmət etmək istəyi ilə bağlı MN-yə müraciət edir və iki aylıq təlimdən sonra onu MAXE əsgər olaraq öncə xidmət etdiyi Daşkəsən rayonundakı hərbi hissəyə göndərirlər. 27 sentyabr 2020-ci ildə Vətən müharibəsi başlayan zaman Mehdi də yüzlərlə Azərbaycan zabit və əsgəri kimi döyüşlərin başladığı ilk günlərdə əməliyyat tapşırıqlarını yerinə yetirərkən yaralanmasına baxmayaraq, öz təkidi ilə yenidən döyüşlərə davam edir. Oktyabrın 2-də Murovdağ-Kəlbəcər istiqamətində gedən ağır döyüşlər Mehdinin son savaşı olmuşdur. 50 gün itkin sayılan Mehdinin nəşi noyabrın 24-də doğma yurduna gətirilərək dəfn edilmişdir. Qardaşı da hərbi məktəbdə təhsil alan şəhidimiz ötən ilin son günlərində "Kəlbəcərin azad olunmasına görə" medalı ilə də təltif edilmişdir.

"Vətən Uğrunda" medalı ilə təltif edilən şəhid gizir Balayev Orxan Vidadi oğlu 18.09.1998-ci il tarixdə Quba rayonun Alpan kəndində anadan olub. O, 2004/15-ci illərdə Alpan kənd orta məktəbində təhsil alıb. 2016-cı ildə hərbi xidmətə çağırılan Orxan 2018-ci ildə xidməti başa vurduğdan sonra, ailənin tək oğlu olsa da Ordu sıralarında qalıb 3 aylıq gizirlik kursunu keçərək Yevlax-Aran korpusundakı N-saylı hərbi hissənin həmlə qrupunda Vətənə xidməti davam etdirib. O, 2-ci Qarabağ müharibəsi başlayan gündən fasiləsiz olaraq döyüş əməliyyatlarında iştirak edib. Döyüş zamanı qəhrəmanlıqlar göstərən Orxan düşmənin bir neçə tankının hərbi qənimət kimi ələ keçirilməsində də iştirak etmişdir. Onun sonuncu döyüşü Suqovuşan uğrunda gedən ağır əməliyyatlar olmuşdur. Sonuncu dəfə 6 oktyabrda ailəsilə əlaqə saxlayan Orxandan bir müddət xəbər çıxmır. 55 gün itkin düşdüyü söylənən və xoş sorağı gözlənən şəhid gizirin cənazəsi 30 noyabrda doğulduğu Alpan kəndinə gətirilərək dəfn edilmişdir.

Qəhrəman şəhidlərimizin qısa həyat tarixçələri, İlkin Balayevin redaktoru olduğu Alpan.az saytında onlar haqqında dərc etdiyi tanıtım yazıları əsasında hazırlanmışdır. Allah cəmi şəhidlərimizə qəni-qəni rəhmət eləsin, Ruhları şad olsun.

***Cabir Ağaoğlu***

# “Bəyin oğurlanması”na çəkilən, xərçəngdən ölən aktrisa

***Azərbaycan tamaşaçılarının uzun illərdir sevə-sevə baxdığı bir sıra milli filmlərin bəzi yaddaqalan obrazlarını əcnəbi aktyor və aktrisalar canlandırıblar. Bəzilərimiz onları filmdəki qəhrəmanların adı ilə tanıyırıq, gerçəkdə isə kim olmalarından xəbərsizik. Hətta həmin aktyor və ya aktrisanı azərbaycanlı hesab edənlər də az deyil.***

“Unikal” xəbər verir ki, modern.az saytı “Azərbaycan kinosunun əcnəbi qəhrəmanları” adlı rubrikasında oxuculara milli filmlərimizdə əsas və epizodik rolların ifaçıları olmuş xarici aktyor və aktrisalar haqqında məlumatın təqdimatına davam edir. Bu dəfə Azərbaycan tamaşaçıları üçün baxımlı ekran əsərlərindən biri olan “Bəyin oğurlanması” filmindən bəhs edəcəyik. 1986-cı ildə ekranlara çıxan ”Bəyin oğurlanması” kinokomediyasının ssenari müəllifi Mövlud Süleymanlı, quruluşçu rejissorları Ceyhun Mirzəyev və Vaqif Mustafayevdir.





”Bəyin oğurlanması” filminin əsasını paralel inkişaf edən iki hadisə təşkil edir. Birinci süjet kəndə toy səhnəsini lentə almağa gələn kino işçilərinin fəaliyyətindən danışır. Çəkiliş zamanı rejissor (Həsənağa Turabov) görür ki, ssenari və çəkilən material real həyatdan çox uzaqdır. Beləliklə o, uydurma toy səhnəsi əvəzinə kənddə olan toyu lentə alır.

Əsl toyla bağlı əhvalatlar isə filmin ikinci süjet xəttini təşkil edir. Burada maraqlı əhvalatlar bir-birinə bağlanıb. Eyni zamanda tamaşaçı kənd həyatının maraqlı və zəngin adətənənələri ilə tanış olur. Bu əyləncəli kinokomediya hər şeydən əvvəl insan səadəti, bu səadət uğrunda aparılan mübarizə haqqındadır.

Filmdə çox maraqlı aktyor heyəti cəmləşib. Burada kimlər yoxdur... Həsənağa Turabov, Səyavuş Aslan, Hacı İsmayılov, Nəsibə Zeynalova, Yaşar Nuri, Mirzə Babayev, Arif Quliyev, Səməndər Rzayev, Ələsgər Məmmədoğlu, Lətifə Əliyeva, İlham Namiq Kamal, Eldəniz Zeynalov, Muxtar Maniyev, Ramiz Əzizbəyli, Şamil Süleymanov, Firəngiz Mütəllimova... Hamısı yaxşı mənada “əşdaha oyunçular”dı... Elə filmi tamaşaçılara sevdirən də onlar olub.

Filmin rejissorlarından biri Vaqif Mustafayev müsahibələrinin birində demişdi: “Mən bu filmi çəkdiyimi həmişə gizlədirdim və utanırdım. Lakin sonralar görəndə ki, tamaşaçı bu filmi sevdi, indi rahatlıqla deyə bilirəm ki, bəli, bu filmi mən çəkmişəm”.

Adlarını qeyd etdiyimiz məşhur azərbaycanlı aktyor və aktrisalarla yanaşı, “Bəyin oğurlanması”nda keçmiş SSRİ məkanında tanınmış bir sənətkar da çəkilib. Bu, özbəkistanlı aktrisa Tamara Şakirovadır.

Yəqin ki, çoxlarınız fikirləşdiniz ki, söhbət filmdəki hansı rolun ifaçısından gedir... Onda diqqətinizə çatdıraq ki, özbək aktrisa Tamara Şakirova “Bəyin oğurlanması”nda Nigar rolunu canlandırıb.

Bu yerdə bir haşiyə çıxaq: “Bəyin oğurlanması” filminin quruluşçu rejissor işi əvvəlcə Tofiq İsmayılova həvalə edilmişdi. T.İsmayılov hətta sınaq çəkilişlərinə də başlamışdı. Təxminən 3-4 ay sınaq çəkilişləri apararkən o, filmdə çəkəcəyi aktyor və aktrisaları belə, seçmişdi. Lakin gözlənilmədən vəziyyət dəyişdi. Tofiq İsmayılov filmdən uzaqlaşdırıldı, Vaqif Mustafayev və Ceyhun Mirzəyev filmin quruluşçu rejissorluğuna təyin edildilər. Və filmin yeni rejissorları bütün rolların ifaçılarını dəyişdirdilər, təkcə Nigarı canlandıran Tamara Şakirovadan başqa..

Görünür Tamaranın qeyri-adi istedad sahibi olması rejissorlar Vaqif Mustafayev və Ceyhun Mirzəyevi tam razı salmışdı ki, onlar özbək aktrisadan imtina etmədilər.

Yəqin ki, Tamaranın “Bəyin oğurlanması”ndakı rolunu xatırladınız: Nəsibə xalanın həyətindəki süfrə arxasında əyləşən iki gənc xanımdan biri. O xanım ki, Nəsibə Zeynalova ona “bu kinolarda oğlanla qız öpüşür ee, görəsən doğrudan öpüşürlər, yoxsa ayalndan?” deyə müraciət edir.

Tamara Şakirova təkcə aktrisa deyildi, onun gözəl musiqi duyumu və ifa qabiliyyəti də var idi - istənilən musiqi növünü pianoda çalır və həm də təkrarsız şəkildə oxuyurdu.

Tamara Şakirova 26 noyabr 1955-ci il tarixində Özbəkistanın paytaxtı Daşkənddə doğulub. O, ilk dəfə filmə 14 yaşı olanda, hələ məktəbliykən çəkilmişdi. Daha sonra bu çəkilişlərin ardı-arası kəsilmədi...

Tamara Şakirova 1973-cü ildən “Özbəkfilm” kinostudiyasının aktrisası kimi işə başlayıb. O, Daşkənd Teatr İnstitutunun aktyorluq şöbəsini qiyabi bitirmişdi.

1983-cü ildə Özbəkistanın əməkdar artisti adına layiq görülmüş istedadlı aktrisa sovet kinosunun tanınmış simalarından sayılırdı. Tamara Şakirova öz karyerası ərzində onlarca yaddaqalan obraz yaradıb. “Özbəkfilm”in çəkdiyi ”Xarəzm əfsanəsi”, ”Simurq”, ”Odlu yollar” kimi filmlər onu keçmiş SSRİ məkanında məhşurlaşdırmışdı.

Tamara Şakirova Azərbaycanda çəkilmiş 3 filmdə oynayıb: “Çətirimiz buludlardır” (1976), “Bəyin oğurlanması” (1986) və “Qırmızı qatar” (1993).

İstedadlı aktrisa 2012-ci il fevralın 22-də 57 yaşında xərçəng xəstəliyindən ölüb. Həmin ərəfədə aktrisanın qızı, Özbəkistanın tanınmış müğənnisi Rayhon Qəniyeva anasının vəfatı ilə əlaqədar əvvəlcədən elan olunmuş konsertini ləğv etmək məcburiyyətində qaldı.

Mərhum aktrisanın əri Otabek Qəniyev özbək kinorejissoru Nəbi Qəniyevin nəvəsidir. Onların iki qızı doğulub. Yuxarıda adı çəkilən Rayxon və Nəsibə.

***A.Qorxmaz***

# “Xocalı soyqırımı - 29” adlı videokonfrans təşkil olunub

***Fevralın 25-də Azərbaycan Milli Kitabxanasında Mədəniyyət Nazirliyinin tabeliyində olan kitabxanaların iştirakı ilə Xocalı soyqırımının 29-cu ildönümünə həsr olunmuş “Xocalı soyqırımı - 29” adlı videokonfrans və Əliağa Cəfərovun Türkiyədə nəşr edilmiş “Katliam” adlı kitabının onlayn təqdimatı keçirilib.***

Milli Kitabxanadan bildirilib ki, onlayn konfransa respublikanın 60-a yaxın Mərkəzləşdirilmiş Kitabxana Sistemləri və bir sıra respublika kitabxanası qatılıb.

Onlayn videokonfransda Milli Kitabxananın direktoru, professor Kərim Tahirov çıxış edərək Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusu tərəfindən 44 günlük müharibə nəticəsində qazanılan tarixi Qələbə münasibətilə konfrans iştirakçılarını təbrik edib. O qeyd edib ki, 3 dekabr tarixində işğaldan azad olunmuş bölgələrin 10 MKS rəhbərləri ilə keçirilən onlayn konfransda kitabxana direktorlarının müraciətlərinə əsasən, Milli Kitabxana İFLA-ya həmin kitabxanaların hazırkı vəziyyəti barədə müraciət göndərib, həmin müraciətdə 975 kitabxanamızın binalarının tamamilə dağıdılaraq yerlə yeksan olunması, onların 4,6 milyon nüsxədən artıq qiymətli kitab fondlarının yandırılması faktı əks olunub.

İFLA prezidenti xanım Kristin Makenzinin cavab məktubunu iştirakçıların diqqətinə çatdıran direktor qeyd edib ki, IFLA qərəzli şəkildə kitabxanalara, onların fondlarına, işçilərinə və istifadəçilərinə dəyən bütün zərərləri qınayır. Kitabxanaların və onların işçilərinin fəaliyyəti nəinki indiki dövrdə əhəmiyyətlidir, eyni zamanda gələcək nəsillərin də mövcud materiallardan istifadə etmələrini və öyrənə bilmələrini təmin edir. Kərim Tahirov bildirib ki, Xocalı soyqırımı XX əsrdə baş vermiş ən dəhşətli insan faciələrindən biridir. Soyqırım hadisəsi dünyanın bir çox yerlərində baş verib. Lakin öz qəddarlığına görə Xocalı faciəsi digərlərindən fərqlənir. O qeyd edib ki, 613 dinc sakin bir gecənin içində öldürülüb. Kərim Tahirov vurğulayıb ki, Mədəniyyət Nazirliyinin karantin tədbirləri çərçivəsində Xocalı soyqırımının 29-cu ildönümünə həsr edilmiş tədbirlər planına əsasən, Milli Kitabxana tərəfindən “Xocalı soyqırımı 29” (http://anl.az/down/Xocali_29.pdf) adlı metodik vəsait, “Xocalı Soyqırımı - 29” (http://anl.az/down/Xocali.29.pdf) adlı daycest də hazırlanaraq virtual rejimdə təqdim olunub. Daha sonra o, Əliağa Cəfərovun 4 hissədən ibarət “Qırğın” adlı kitabının qardaş Türkiyədə “Katliam Hocalıda, kanlı gece” adı ilə kütləvi tirajla çap olunmasını Azərbaycan həqiqətlərini, xüsusilə erməni vandallarının Xocalı şəhərində vəhşiliklə törətdikləri soyqırım haqqında dəqiq faktları türkdilli oxuculara çatdırmaqda mühüm rol oynadığını qeyd edib.

Onlayn konfransın davamında Milli Kitabxananın direktor müavini Ədibə İsmayılova çıxış edərək bildirib ki, Xocalı soyqırımı Azərbaycan tarixinin ən qanlı səhifələrindən biridir. Milli Kitabxana hər ildönümü ərəfəsində əyani tədbirlər, geniş kitab sərgiləri, eləcə də kitab təqdimatları keçirir, bu il isə bütün bu tədbirləri mövcud vəziyyətlə əlaqədar onlayn formada həyata keçirib. O, Xocalı soyqırımının 29-cu ildönümünə həsr olunan “Xocalı 29”(http://anl.az/vsb/Xocali_soyqirimi_29/index.htm) adlı virtual sərgini, “Xocalı soyqırımı - Qan yaddaşımız!” adlı elektron məlumat bazasını (http://anl.az/el/emb/Xocali-soyqirimi/index.html), “Tragedy of the 20th century - Khojaly genocide”(http://anl.az/el/vsb/Tragedy_of_the_20th_century_Khojaly_genocide/index.htm) adlı ingilis dilində elektron virtual sərgini, Açıq Kitabxana Könüllülər qrupu tərəfindən “Khojaly genoside”(http://anl.az/el/vsb/Khojaly_genocide/index.htm) adlı ingilis dilində fotosərgini də konfrans iştirakçılarının diqqətinə təqdim edib. O, elektron məlumat bazasından danışaraq bildirib ki, baza “Rəsmi sənədlər”,“Xocalı rayonu”, “Xocalının Milli Qəhrəmanları”, “Soyqırım haqqında”, “Xocalı şəhidləri”, “Şahidlərin söylədikləri”, “Ermənilərdən etiraflar”, “Ermənilər tərəfindən dağıdılmış abidələr”, “Xocalıya ədalət kampaniyası”, “Xocalı soyqırımının tanınması”, “Xocalı soyqırımı mədəniyyətdə” və “Fotoqalereya” bölmələrindən ibarətdir.

Sonra “Katliam” kitabının müəllifi, professor Əliağa Cəfərov danışaraq, belə tədbiri keçirdiyinə görə Milli Kitabxanaya, direktor Kərim Tahirova öz təşəkkürünü bildirib. O qeyd edib ki, Xocalı bizim hər zaman yaralı yerimizdir. Müəllifi olduğu kitab barədə danışaraq vurğulayıb ki, Bakıda nəşr olunan “Qırğın” kitabını yazarkən çoxsaylı Xocalı şahidləri ilə görüşüb. Bu görüşlər zamanı daim onların necə erməni vandalizminə düçar olduqlarını, onlara qarşı ermənilərin necə vəhşicəsinə soyqırım etdiklərinin bir daha şahidi olduğunu qeyd edib. Kitabdan danışaraq o bildirib ki, müəllif bu kitabı Qarabağ uğrunda şəhid olub, adsız qəbirlərdə uyuyan - azərbaycanlıların müqəddəs ruhuna həsr edib. Erməni quldurlarının işğalçılıq siyasəti və törətdikləri Xocalı Soyqırımı barədə dəqiq məlumatlar təkzibolunmaz faktlarla 510 səhifəlik kitabda türkdilli oxuculara təqdim edilib.

Sonra onlayn konfransda çıxış edən MKS direktorları tədbirin təşkilinə görə Milli Kitabxananın rəhbərliyinə təşəkkür edərək Xocalı soyqırımı, törədilən vəhşiliklər, cinayətlər haqqında danışıblar.

# Gündəlik kitab oxumaq beyinə necə təsir edir?



***Amerikalı alimlər, gündəlik oxumağın zəkanın inkişafına faydalı təsir göstərdiyi və kompleks problemlərin təsirli həllinə kömək etdiyi qənaətinə gəliblər.***

Lent.az-ın xarici mediaya istinadla verdiyi xəbərə görə, bundan əlavə, Nyu-York ştatındakı Roçester Universitetinin alimləri tərəfindən sübut edilib ki, oxumaq yaddaş və empatiyanı da inkişaf etdirir.

Tədqiqatçılar müntəzəm oxumağın həm qısa, həm də uzun müddətdə effektli olduğu qənaətinə gəliblər.

Elmi işdə psixoloqlar və nevrologlar iştirak edbilər. Onlar əsərin personajlarının həyəcanının emosional zəkanı və empatiyanı artırdığını da sübut ediblər.

Eyni zamanda, mütəxəssislər sosial-idrak fəaliyyətin elmi ədəbiyyat deyil, yalnız bədii ədəbiyyat oxuyaraq yaxşılaşdırıldığına diqqət çəkiblər.

Bundan əlavə, yavaş və düşüncəli bir şəkildə oxusanız, fərdi konsentrasiya, yeni və mürəkkəb məlumatları daha yaxşı mənimsəmə qabiliyyəti kimi keyfiyyətləri inkişaf etdirə bilər.

Mütəmadi olaraq oxumağa davam etsəniz, əldə edilmiş bacarıqlarınız qorunub saxlanılır və inkişaf etdirilir.

Psixoloqlar da öz növbəsində qeyd edirlər ki, uzunmüddətli dövrdə ədəbiyyata valeh olmaq sözlə yaddaşı yaxşılaşdırır və bu da yeni məlumatları sözlərlə daha yaxşı mənimsəməyə kömək edir.

Beyindəki dəyişikliklərə gəldikdə, davamlı oxumaq, korpus kallosumunun qalınlaşmasına səbəb olur və bununla da beynin iki yarımkürəsi arasındakı əlaqəni yaxşılaşdırır.

Bununla birlikdə, mütəxəssislər gecə oxumaqdan çəkinməyə çağırırlar. Bunun səbəbi isə yuxusuzluğa gətirib çıxara biləcəyi və beyində dönməz dəyişikliklərə səbəb ola biləcəyi üçündür.

# Sovet vaxtı qadağan edilən qorxulu maddə qidalarımızda

***Biz nə yeyiriksə, oyuq. Lakin hər gün süfrəmizdə, menyumuzda sağlam qida daha da azalır.***

Hamı bir xəstəlikdən qorxur: Onkologiya. Amma hər gün də bir misqal onkoloji xəstəlik yaradan kanserogen maddə yeyirik.

Qidaların, ərzaqların keyfiyyətsizliyi bir tərəfə, tərkibinin qəsdən, sanki bilərəkdən zərərli maddələrlə doldururlar.

Medicina.az xəbər verir ki, Sovet dövründə qida istehsalatında, xüsusən uşaq qidalarında kanserogen maddə olan Qlisidol ciddi qadağa altında idi. Bir çox Avropa ölkələrində də bu maddə qida sənayesində qadağan olunub.

Məhz onun onkoloji xəstəliklər yaratdığı məlumdur.

Hazırda isə Rusiya, MDB dövlətləri və Azərbaycanda 60% ərzaq məhsullarının tərkibində qlisidol var.

Qlisidol hamının əzbər bildiyi texniki palma yağıdır.

O ucuz başa gəldiyi üçün bütün ərzaq məhsullarına qatılır.

Xüsusən marketdə qutu və qablaşdırılmış şirniyyat, peçenye, konfetlər, şokolad yağları. Bunları da daha çox uşaqlar, gənclər yeyir.

Əvvəl Moskvanın bütün şirniyyat konfet fabrikləri kakao yağından istifadə edirdi. İndi kakao yağını ancaq luks məhsullarda istifadə edirlər, onlar da bahalıdır.

İstənilən tərkibində süd olan elə məhsul yoxdur ki, onda qlisidol olmasın.

- Dondurma, kremlər, yağlar, hətta kərə yağı, kolbasa, sosis, müxtəlif konservləşdirilmiş məhsullar.
- Elə bilirsiz, çörəkdə qlisidol yoxdur?
- Marketlərdə satılan hazır qatlı xəmir qlisidolludur.
- Pitsalar, kekslər, ruletlər.

Bunu kim qadağan etməlidir?

Hər bir ölkəyə ərzaq idxalı və qida məhsulu istehsalına cavabdeh dövlət qurumu.

Bu qurumlar insanların vergiləri hesabına, dövlət büdcəsi hesabına işləyir və onların borcu milləti təhlükəli kanserogen maddələrdən qorumaqdır.

Hətta elə dünyaca məşhur qida brendləri var ki, onlar Avropada istesal etdikləri zavodlarda bu maddəni qanunla qadağan edildiyi üçün istifadə edə bilmir. Amma Rusiya və MDB dövlətlərində yerləşən zavodlarda geninə boluna palma yağı istifadə edirlər.

# Əsəbləri pozan, boğazı sıxan, sinəni göynədən- MƏDƏ REFLÜKSÜ



***Reflyuks xəstəliyi, digər adı ilə qastro-ezofageal reflyuks xəstəliyi- mədə tərkibinin (turşusunun) patoloji şəkildə mədədən qida borusuna doğru geri gəlişi ilə xarakterizə olunan xəstəlikdir. Xəstələr adətən döş sümüyünün arxasında yanma (qıcqırma) şikayəti ilə müraciət edirlər. Bəzən döş sümüyünün arxasında yanmadan başqa, qida parçalarının və suyun ağıza qayıtması şikayəti də olur. Qastro-ezofageal reflyuks xəstəliyinə, bütün dünyada olduğu kimi ölkəmizdə də çox rast gəlinir. Ölkəmizdə aparılmış bir elmi tədqiqatda cəmiyyətimizin 20%-də qastro-ezofageal reflyuks xəstəliyi olduğu aşkar edilmişdir.***

**Yaranma səbəbləri**

Qastro-ezofageal reflyuks xəstəliyinin simptomlarının kökündə, qida borusunun uzun müddət, çox miqdarda mədənin turşu tərkibli içəriyi ilə təması yatmaqdadır. Mədənin turşu tərkibinin qida borusu ilə uzun müddətli təması qida borusunun selikli qişasında zədələnməyə yol açır və bu da yanma hissinin əmələ gəlməsinə səbəb olur. Normal olaraq qida borusunun alt ucunda aşağı qida borusu sfinkteri dediyimiz əzələdən əmələ gələn qapaq bənzəri bir struktur mövcuddur. Bu struktur turşunun qida borusuna geri qayıtmasının qarşısını alaraq mədənin içində qalmasını təmin edir.

Reflyuks xəstəliyində isə bu sfinkterin gərginliyi aralıqlar ilə zəifləyir və mədənin turşu tərkibli içəriyi qida borusuna geri qayıdır. Bu vəziyyət çox hallarda idiopatikdir, yəni səbəbi bəlli deyildir. Qida borusunun diafraqma dəliyinin sürüşən yırtığı, piylənmə xəstəliyi, bəzi dərmanların xroniki qəbulu, bəzi sistemli kollagen xəstəliklər reflyuks xəstəliyinin digər səbəbləridir.

**Diaqnoz necə qoyulur?**

Alınmış ayrıntılı anamnestik məlumatlar, fiziki müayinə əlamətləri diaqnozun qoyulmasında həkimə çox kömək edir. Bariumlu qida borusu-mədə-on iki barmaq bağırsaq qrafiyası - xəstə barium içərkən, radioloqun flyuoroskopiya altında bariumun aşağıya - qida borusuna və mədəyə keçişini araşdırdığı bir instrumental müayinə metodudur. Qasroskopiya - ucunda işıq olan elastik bir boru (endoskop) ağızdan qida borusuna və mədəyə doğru irəlilədilir və qida borusu və mədə görülərək müayinə edilir. Ezofaqus alt uc manometriyası və PH-metriya - burundan çox incə elastik bir boru qida borusunun alt ucuna göndərilərək buradakı təzyiq və yuxarı çıxmış turşu miqdarı ölçülür.

**Ağırlaşmaları hansılardır?**

Əgər reflyuks xəstəliyi müalicə edilməzsə ciddi ağırlaşmalar meydana gələ bilər. Qida borusunda daralma, qanaxma və selikli qişada xərçəng qabağı bir sıra dəyişikliklərə (Barrett ezofaqus, displaziyalar) səbəb ola bilər.

Xəbərdaredici simptomları bunlardır:

- Udqunmada çətinlik (disfagiya)
- Qanqusma
- Boğulma hissi, öskürək, səs qısıqlığı
- Çəkinin azalması

**Simptomların ortadan qaldırılması**

- Qida borusu alt ucundakı iltihabı - ezofagiti müalicə etmək
- Ezofagitin təkrarlamasının və ya ağırlaşmalarının inkişafının qarşısını almaq

Bir çox xəstədə reflyuks xəstəliyi həyat tərzində edilən dəyişikliklərlə və dərman müalicəsi ilə kontrol altına alınır.

**Həyat tərzi dəyişiklikləri:**

- Siqaret tərgidilməlidir. Çünki, tütün qoruyucu mexanizmlərə zərər verir. Mədədə turşunun əmələ gəlməsinə təkan verir və qida borusu ilə mədə arasındakı əzələlərin zəifləməsinə yol açaraq turşu reflyuksuna yol açır.
- Qazlı və turşulu içkilərdən istifadə edilməməlidir.
- Alkoqol, şokolad, kofein, qəhvə, çay, yağlı, ədviyyatlı yeməklərdən və pomidor kimi turşuluğu artıran yeməklərdən qaçınılmalıdır.
- Arıqlamaq məsləhət görülür. Bir neçə kiloqramlıq kiçik çəki azalmaları belə dramatik müsbət nəticələr verir.
- Yatmamışdan ən az 3 saat qabaq yemək yeyilməməlidir.
- Çarpayının baş ucunun qaldırılması gecə ərzində turşu reflyusunun və qida hissəciklərinin ağıza gəlməsinin qarşısını alır.
- Sıx kəmər və geyimlərdən istifadə edilməməlidir.

**Cərrahi müalicə nə zaman lazımdır?**

Əgər konservativ müalicə ilə xəstələrin şikayətləri keçmirsə və qanaxma, Barrett ezofaqus, darlıq kimi ağırlaşmalar yaranmışsa cərrahi müalicə üsullarından istifadə olunmalıdır. Cərrahi müalicə üsulları turşu reflyuksunun qarşısını almağa xidmət edən qida borusu ilə mədə arasındakı təbii sfinkter mexanizmasının düzəldilməsinə xidmət edir. Ən şox istifadə olunan Floppy-Nissen fundoplikasiya əməliyyatının həm açıq, həm də laparoskopik şəkli tərəfimizdən HB Güvən Klinikasında müvəffəqiyyətlə icra olunur.

# "Qarabağ" müraciət etdi - 3000 manatlıq cəriməyə görə

***"Qarabağ" klubu AFFA Apellyasiya Arbitraj Tribunalına müraciət ünvanlayıb.***

"Unikal" qəzeti xəbər verir ki, bu barədə klubun mətbuat xidməti məlumat yayıb. AFFA İntizam komitəsinin 23 fevral 2021-ci il tarixli qərarına əsasən, "Sumqayıt" - "Qarabağ" oyununda (0:0) 8 nömrəli futbolçu Uroş Matiçin formasında adının yanlış qeyd olunduğu əsas gətirilərək, futbol forması standartları pozulduğu üçün "Qarabağ" klubu 3000 AZN məbləğində cərimə olunmuşdur.

"Qarabağ" həmin oyunda forma geyinməyən, 1 dəqiqə belə meydanda olmayan Uroş Matiçin forma standartlarının pozulması qərarı və cərimə ilə razılaşmır. "Qarabağ" klubu qərarın ləğvi üçün AFFA Apellyasiya Arbitraj Tribunalına İntizam Məcəlləsinin uyğun bəndlərinə əsasən hazırlanmış müraciət ünvanlayıb.

# Azərbaycan yığmalarının Kiyev turniri üçün heyəti açıqlandı

***Azərbaycanı sərbəst və qadın güləşçiləri Ukraynanın paytaxtı Kiyevdə beynəlxalq turnirə qatılacaq.***

Federasiyadan "Unikal" qəzetinə verilən məlumata görə, Ukraynanın məşhur güləşçiləri və məşqçilərinin xatirəsinə keçiriləcək ənənəvi yarış bu gün (fevralın 26-da) başlayacaq.

Böyük məşqçi Zəlimxan Hüseynovun və məşqçi Arif Abdullayevin rəhbərliyi altında sərbəst güləş millisinin 12 üzvü çıxış edəcək. Heyətdə Mahir Əmiraslanov, Əfqan Xaşalov, İslam Bazarqanov (hamısı 57 kq), Əhmədnəbi Qvarzatilov (61 kq), Əli Rəhimzadə, Turan Bayramov (hər ikisi 65 kq), Cəbrayıl Hacıyev (70 kq), Əşrəf Aşırov (74 kq), Rəşad Yusifli (79 kq), Osman Nurməhəmmədov (92 kq), İslam İlyasov (97 kq) və Vahid Qalayev (125 kq) yer alıb.

Fevralın 28-dək davam edəcək turnirdə qadınlardan ibarət millinin 9 güləşçisi qüvvəsini sınayacaq. Baş məşqçi Aslan Ağayev və məşqçi Rövşən Umudovun rəhbərliyi altında Türkan Nəsirova (50 kq), Leyla Qurbanova, Tatyana Varansova (hər ikisi 53 kq), Alyona Kolesnik (57 kq), Tatyana Omelçenko (62 kq), Elis Manolova (65 kq), İrina Netreba (68 kq), Gözəl Zutova və Səbirə Əliyeva (hər ikisi 76 kq) mübarizə aparacaq.

Qeyd edək ki, görüşlərin idarə edilməsində ölkəni beynəlxalq dərəcəli hakimlər Vaqif Zeynallı və Həbib Nurulu təmsil edəcək.

# Olimpiya çempionumuz yenidən zədələndi

***Azərbaycanın sərbəst güləş üzrə olimpiya çempionu Toğrul Əsgərovun Ukraynanın məşhur güləşçiləri və məşqçilərinin xatirəsinə həsr edilən Kiyev turnirinə qatılmamasının səbəbi müəyyənləşib.***



"Unikal" qəzeti xəbər verir ki, bu barədə federasiya məlumat yayıb. 74 kq çəki dərəcəsində çıxış edən idmançı zədə ilə əlaqədar yarışdan kənarda qalıb.

Əsgərov məşqdə zədələndiyindən, Rusiyanın Mahaçqala şəhərindəki təlim-məşq toplanışını da buraxmalı olub. Hazırda məşqsiz qalan və zədəsini bərpa etməyə çalışan təcrübəli güləşçi Kiyevdə 79 kq çəki dərəcəsində çıxış etməyi planlaşdırıb. Lakin zədəsinin sağalmaması, onu yarışdan kənarda qoyub.

Yığmanın kapitanı 97 kq-da mübarizə aparan Şərif Şərifov isə 4 - 7 martda İtaliyadakı turnirə qatılacağı üçün Kiyevə yollanmayıb. Azərbaycanın ən titullu qadın güləşçisi və Tokio olimpiadasına lisenziya qazanan Mariya Stadnik isə özünü 19 - 25 apreldə Polşanın paytaxtı Varşavadakı Avropa çempionatına saxlayıb.

Qeyd edək ki, Kiyev turnirində Azərbaycanın 21 güləşçisi mübarizə aparacaq.

# Tamaşaçılarla bağlı qərarın veriləcəyi vaxt bilindi - Tokio-2020-də

***Tokio Yay Olimpiya Oyunlarında tamaşaçıların iştirakı ilə bağlı qərar martın sonlarında veriləcək.***

"Unikal" qəzetinin məlumatına görə, bunu yarışın Təşkilat Komitəsinin sədri Seyko Hasimoto açıqlayıb.

O bildirib ki, koromavirus pandemiyası dövründə tamaşaçıların idman obyektlərinə buraxılması ilə bağlı məsələdə ortaq qərara gəlinməsi təxminən bir ay çəkəcək. Hasimoto qeyd edib ki, Olimpiya məşəlinin estafetinin başlayacağı tarixədək bu məsələyə də aydınlıq gəlməlidir. Bu isə martın 25-də baş verəcək.

Qeyd edək ki, 2020-ci il iyulun 24-dən avqustun 9-dək keçirilməli olan Olimpiada koronavirus səbəbindən təxirə salınıb. Yarış bu il iyulun 23-dən avqustun 8-dək keçirilməlidir.





# Rusiyalı idmançılar atletlərimizin yarışacağı Avropa çempionatına buraxılmayacaq

***Rusiyalı idmançılar 5-7 mart tarixlərində Polşanın Torun şəhərində keçiriləcək atletika üzrə qapalı məkanda Avropa çempionatında iştirak edə bilməyəcək.***

"Unikal" qəzeti xəbər verir ki, buna səbəb Rusiyadan olan idmançıların Səlahiyyətli Neytral Atletlər (ANA) qismində iştirakına icazə verilməməsidir.

Ümumiyyətlə, Dünya Atletikası Ümumrusiya Yüngül Atletika Federasiyasının və ya ANA-nın statusunu ən yaxşı halda 17-18 martda keçiriləcək növbəti iclasında təsdiqləyə bilər. Həmin iclasda rusiyalı atletlərin 10-dan çox idmançısına Dünya Atletika Seriya yarışlarında iştirakına icazə verilib-verilməməsi müzakirə olunacaq.

Qeyd edək ki, Ümumrusiya Yüngül Atletika Federasiyasının prezidenti Dmitri Şlyaxtin, eləcə də qurumun rəhbər əməkdaşlarından Aleksandr Parkin, Artur Kərəmyan, Yelena Orlova və Yelena İkonnikova 2018-ci ilin avqustunda dopinqə düşmüş Daniil Lısenkonun sənədlərini saxtalaşdırmaqda ittiham olunublar və dörd il müddətinə idman fəaliyyətindən kənarlaşdırılıblar.

Sözügedən qurum bundan sonra üç prezident dəyişib. Əvvəl Yevqeniy Yurçenko (28 fevral - 13 iyul 2020), daha sonra Pyotr İvanov (30 noyabr 2020 - 13 fevral 2021) quruma rəhbərlik edib. İvanovun istefasından sonra federasiyaya rəhbərlik vitse-prezident olan qaçış üzrə Olimpiya, dünya və Avropa çempionu İrina Privalova icra edir.

Onu da bildirək ki, sözügedən Avropa çempionatında Azərbaycan millisinin də iştirakı planlaşdırılır. Məsələn atletikanın üçtəkanla tullanma növündə ölkəmizi qapalı məkanda analoji turnirin son qalibi (2019-cu il, Qlazqo) Nazim Babayev təmsil edəcək.

# UEFA AVRO-2020-ni 50 faizdən çox azarkeşlə keçirmək istəyir

***UEFA bu ilin yayında keçiriləcək Avropa çempionatının matçları zamanı stadionların azı 50 faizinin dolacağını gözləyir.***

"Unikal" qəzetinin məlumatına görə, bu barədə qurumun İcraiyyə Komitəsinin üzvü, turnirin Rusiya hissəsinin Təşkilat Komitəsinin baş direktoru Aleksey Sorokin "Rusiya-24" telekanalının efirində deyib.

O bildirib ki, hazırda təşkilatçı şəhərlərin bir çoxunda vəziyyət yaxşı olmasa da, müsbət tendensiya müşahidə olunur: "UEFA turniri azı 50 faiz azarkeşlə, bəlkə də, daha çoxu ilə qəbul etməyin mümkünlüyünə inanır. Qurum Avropa çempionatını "50+" azarkeş sxemi ilə keçirmək istəyir. UEFA fanatların digər ölkələrə giriş və çıxışlarını qadağan edən təşkilat deyil. Bunu əlaqədar ölkələrin hökumətləri müəyyənləşdirir. Lakin qitə futbol qurumu maksimum azarkeş sayı və hərəkət imkanları üçün səy göstərir, eyni zamanda səlahiyyətlilərin fikirlərini dinləyir".

UEFA azarkeşlərin AVRO-2020-yə buraxılma formatını aprelin 7-də müəyyənləşdirəcək.

Qeyd edək ki, 2020-ci ildə keçirilməli olan Avropa çempionatı koronavirus pandemiyası üzündən bu il 11 iyun - 11 iyula təxirə salınıb. AVRO-2020 Bakı, Sankt-Peterburq, London, Münhen, Roma, Buxarest, Dublin, Kopenhagen, Bilbao, Qlazqo, Budapeşt və Amsterdam şəhərlərində təşkil olunmalıdır.

Bakı Olimpiya Stadionu A qrupunun İsveçrə - Uels, Türkiyə - Uels və Türkiyə - İsveçrə qarşılaşmalarına, eləcə də 1/4 final mərhələsinin 1 oyununa ev sahibliyi edəcək.

Səhifəni hazırladı: Aygün İlqarqızı